Xanım İsmayılqızı

# DUA YAĞIŞI

# Bir adam var…

***

Səninlə biz nə vaxtsa,
Hardasa görüşmüşük.
Bəlkə də bir keçibdi
uşaqlığımız bizim.
Bəlkə də bir küçədə
üz-üzə də gəlmişik,
Toqquşubdu hardasa
baxışlarımız bizim.
Bəlkə də bir anadan
doğulmuşuq səninlə,
Nə sənin xəbərin var,
Nə də mənim xəbərim.
Bəlkə də bunlar deyil
səni mənə bağlayan,
Yadıma düşdü, dayan.
O zaman da beləcə
mənə tanış gəlirdin.
Doğmalığın yanğısı
keçirdi ürəyimdən,
Səbəbini bilmədən.
Sən demə ki, lap çoxdan
mən sənə alışmışam,
Demə, doğulmamışdan
səninlə doğulmuşam…

1992.

***

Güzgüdən bir adam baxır.
Çox görmüşəm bu adamı
güzgülərdə, fotolarda,
Bir də, tanışların gözlərində.
Öz şəklimi çəkəcəyəm
gözlərimlə güzgüyə
boz rənglərin fonunda,
Ağ-qara çizgilərlə
cızacağam siluetimi.
Buluda bürünəcəyəm.
Ulduzlar - gözlərim,
Günəş - ürəyim,
Küləklər - əllərim olacaq,
Döyəcək hərdən-hərdən
qapıları, pəncərələri,
Hərdən qonağı olacaq çöllərin.
Ayaqlarım - torpaq,
Saçlarım - yarpaq,
Dilim - dəniz olacaq.
Hərdən coşacaq,
Çırpılacaq qayalara.
Gəmiləri, qayıqları
sahilə gətirəcək.
Gecənin samsakit pıçıltısında,
Sevənləri - vüsala yetirəcək.
Bir gün qopacağam
güzgülərdən, fotolardan,
Tanışların gözlərindən.
Öz şəklimi çəkəcəyəm
gözlərimlə.
Buluda bürünəcəyəm
o şəkildə.
Şəklim Aya düşəcək.
Hərdənbir görünəcək
bədirlənmiş Ayın
görünməyən tərəfində…

1992.

***

Bu gün də belə keçdi.
Günə qaranlıq düşdü.
Dünən bahar,
Bu gün payız,
Yəqin sabah da qışdı.
Nə tez dəyişdi hava?
Nə tez soyudu yuva?

Soyuq küləklər əsir,
Soyuq - hissimi kəsir.
Soyuq nəfəslər gəzir
kürəyimdə, üzümdə,
İlin yükü dizimdə…

O soyuq baxışların,
Bu yorğun divarların,
Küləktək əsənlərin,
Buluda dolanların,
Hələ yağacaq qarın
arasında qalmışam…
Yaman soyuqlamışam…

1992.

***

Bomboz yağış yağır səsin gedəndən,
Sənsiz, dünyanın da rəngi dəyişib.
Boz damcılar düşür son vaxt gözümdən,
Gözüm boz rənglərə yaman alışıb.

Səhər də açılır, axşam da düşür,
Gecənin rəngini mən unutmuşam.
Sahildə sevənlər yenə görüşür,
Ürəyimdə səni arzulamışam.

Elə bil, dünya da solubdu birdən,
Yoxsa gözlərimin nuru azalıb.
Bir gündə nələri yaşamışam mən,
Dünya da mənimlə birgə qocalıb.

Xoşladığın donun rəngi bozarıb,
İçimdə, sevginin son nəfəsidir.
Deyəsən, ömrümün vaxtı qurtarıb,
Mənimlə oynayır, son həvəsidir.

1995.

***

Gecə - ömrümün yarısı,
Yağış - dərdimin parası.
Payız - kədərimi geyən,
Qış - qapımı qəfil döyən.
Ulduz - əlçatmaz arzumdu,
Şeir - oğlumdu, qızımdı.
Sirdaş - qəlbə yuva salan,
Övlad - məndən mənə qalan.
Sevgi - qəfil itirdiyim,
Ömür - başa yetirdiyim.
Arzu - uzaqda qalanmış,
Vüsal - sən demə yalanmış.
Dost - hərdən xəyanət edən,

Gənclik - məni atıb gedən.
Dünya - yaşamaq həvəsi,
Həsrət - ömrün son nəfəsi.
Ölüm - başıma dolanan,
Anam - hər dərdimə yanan.
Cənnət - toxunulmaz nəfəs,
Bədən - ruhumuza qəfəs.
Nəğmə - könül pıçıltısı,
Söz - ürəyin çırpıntısı.

1996.

***

Dostum, məni tanımaq üçün,
Ayrılmalıydıq demə.
Mən yanılmışam yenə.
Yanında olanda
ürəyin ağ bulud imiş.
Bu uzun ayrılıq
nə çox söz yazdı ürəyinə,
Elə hey yağış yağır
yaz girəndən.

…Kitabçada telefon nömrən,
Yaddaşımda xatirən.
Kimsə tez-tez zəng vurub
susur yenə dünəndən…

1997.

***

Unutmuşam hər şeyi,
Yaxşı ki, unutmaq var.
Onunla birgə
gözümə duran günlər də
yox olur.

…Hisslərim yuxuda,
Ürəyim mürgüdə,
Mənsə - oyaq.
Birdən sən düşdün
yadıma bayaq.
Qorxudan,
Az qaldım mən də
yuxulayam.
Gərək yuxunu həmişə
ayıq saxlayam…

1997.

***

İstəyirəm qabaqlayam
ayaqlarımın getdiyi yolu,
Gözümün toxunacağı yeri.
İstəyirəm ağlayam
ürəyim göynəmədən.
İstəyirəm - səni görüb,
Məni - itirib,
Bizi - unudacağım günü
qabaqlayam.
Ayrılığın gələcəyini
addımlarından biləm,
Nəfəsim kəsilmədən
öləm.
Hər istəyimdə də
əlimlə sinəmdən qoparıb
atdığım daş,
Yolumu kəsib
qabaqlayar məni.
Daşım saxlayır məni…

1997.

***

Səs, gizli nəfəs, yoxdu bir kəs.
Yaş, gözdə savaş, ürəkdə daş.
Can, yerdə qalan, ömürdə an.
Bar, çoxunda var, bir gün solar.
Qan, canlarda can, gözü tutan.
Yar, həmdərd olar, namərdi var.
Əl, cütü gözəl, yalqız xəzəl.
Baş, arxa, qardaş, sirrli yaddaş.
An, ömrə həyan, ölümə can.

1998.

***

Ömür dediyimiz, ipdən asılıb,
Fələyin küləyi qopara bilər.
Hərəyə möcüzə payı yazılıb,
Bu yazı, qəflətən apara bilər.

Dünya tərəzidir xeyri, şəriylə,
Yaranan dünyanın talanı da var.
Bu həyatdan köçüb öz qismətiylə,
Arzusu ürəkdə qalanı da var.

O üzdə dünyanın rəngi necədir?
Geriyə qayıtmaq arzusu varmı?
Sizin tərəflərdə saat neçədir?
Səni axtaranlar orda taparmı?

1998.

***

Nəyəsə gülməyim tutubdu yenə,
Bilirəm, güldürən həmin ağrıdı.
Deyəsən, çox güldüm onun üzünə,
Üzümdə çatlayan onun bağrıdı.

Yanağımda döndü göz yaşlarıma,
Əllərimlə silib atdım ağrımı.
Gülə-gülə sağ ol demişəm ona,
Görəsən o ağrı, hələ sağdımı?

1998.

***

Səsinin rəngini gördüm,
Gözünün səsin eşitdim.
Lap yanımda idin,
Əlim çatmadı.
Ya əllərim qısalıb,
Ya yol uzanıb,
Ya sən qaçırsan,
Ya ruhum havalanıb.
Nəfəsin boynuma sarılıb,
Səsindən gecə ağarıb.
Gözlərinin rəngini
çəkirəm ürəyimə.
Görə bilmirəm…
Görə bilmirəm…

1999.

***

Elə bir gecə ola ki,
Əllərim divarına toxuna bilə.
Elə bir yuxu ola ki,
Hisslərimə toxuna bilə.
Elə bir səhər ola ki,
Gecəyarı oyana bilə.
Elə bir ürək ola ki,
Məhəbbətdən dayana bilə.
Elə bir söz ola ki,
Dünyanı çiynine ala.
Elə bir ölüm ola ki,
Lap gəlib yanında qala.
Elə bir adam ola ki,
Toxuna biləcək gecənin,
Oxuna biləcək yuxunun,
Məhəbbətdən dayanan ürəyin,
Dünyanı çiyninə alan sözün,
Sahibi ola.
Sahibim ola…

1999.

***

Dua nədir? - Allaha uzanan qol,
Sevgi nədir? - Ürəkdən ürəyə yol.
Həyat nədir? - Doğum ölüm arası,
Həsrət nədir? - Bəxtdə rəngin qarası.
Pənah nədir? - Özündən çox sevdiyin,
Günah nədir? - Öz içində etdiyin.
Qurban nədir? - Fəda olmaq döngəsi,
Ölüm nədir? - Bu dünyanın zirvəsi.
Dünya nədir? - Allahın yaratdığı,
Bəndə nədir? - Bu dünyaya atdığı.
Nəfəs nədir? - Ürəkdən gələn səda,
Məhbəs nədir? - Həyatımıza vida.
Baxış nədir? - Qəlbdən yol alıb gələn,
Yağış nədir? - Ayrılıq hissin bilən.
Ürək nədir? - Nəbzimizi vurduran,
Beyin nədir? - Ayıq bir dünya quran.
Cahan nədir? - Ayaqsız da yeriyən,
Adam nədir? - Tanrıya dua edən.
Dua nədir? - İçində Allah səsi,
Sevgi nədir? - Hissin ən müqəddəsi.

2000.

***

Çat verən ürəkdən ağrı süzülür,
Ağrım yandıracaq haraya düşsə.
Bir əlim ürəkdə, biri ağrıda,
Necə əl verərəm, sənlə görüşsəm.

Gözümə dolubdu həsrət bulağı,
Əlim çatmır ona bir yol göstərim.
Bulanıq görürəm bütün dünyanı,
Gözümə görünmür dünyada yerim.

Başım havalıdı, ayaqlar yorğun,
Tale fırtınalı dəniz kimidir.
Çırpacaq ləpədən ləpəyə məni,
Ömür - sükanı boş, yalqız gəmidir.

Lap yanımdan külək ulayıb keçir,
Mən kiməm, hardayam, bəlkə görərsən?
Çalış, bu gecəyə sən arxa çevir,
Yoxsa, bu gecədə qala bilərsən.

2000.

***

Dünən bir qırış da artdı,
Üzümdə səhərə doğru.
Gecə gün də çıxdı, batdı,
Günəş gecəyarı doğdu.

Səhər açılsa da belə,
Günəşim qaldı gecədə.
Gecəyə çox qalıb hələ,
Qaldım Allahsız döngədə.

Ruhum çıxdı bədənimdən,
İkiyə böləndüm yenə.
Birim göydən, birim yerdən,
O ki, var zülm edir mənə.

Əzab da gözəldi, Allah,
Sən eşitdinmi səsimi?
Yazığınmı gəldi, Allah,
Nə yaxşı ki, gördüm səni.

2000.

***

Yer ilə göy arası
tüstü-duman içində,
Kimin gözü qamaşdı
görən burdan keçəndə?

Yanıb köz olan sözün
ünvanına çatarsan,
Tüstüsü qalxan sözün
sahibini taparsan.

Sözə don geydirməyin,
Nəfəsi çatlayacaq.
Sözə azadlıq verin,
Ürəyi partlayacaq.

2000.

***

Ölü bədən,
Yiyəsiz bir ev kimidi.
Tifağı dağılmış ocaq,
Kol-kos basmış yurd kimidi.

Susan ürək,
Kor olan ömür kimidi.
Yoxa çıxmış ümidlərin,
Gedib-gəlməz nəfəsidi.

Qapalı göz,
Dünyanın sonu kimidi.
Canına əlvida deyən,
Ruhun son sözü kimidi.

9 may,  2001.

***

Gecəyə düşmə, yolunu azarsan.
Qaranlığın qucağında,
Özün üçün təzə qəbir qazarsan.
Göz yaşın yığışıb qalıb gözündə.
Ölümün nəfəsi donub üzündə.
Dərdi sıxdın,
Bircə damcı elədi,
O da düşdü dənizə.
Fırtınada qalan dəniz,
Yaxasında çalxalayır bu dərdi.
Yenə üstünə atacaq,
Bu dərddən yaxa qurtarmaq
hədərdi…

13 may, 2001.

***

Pərvərdigara.
Dünyanın nə dərdi var,
Yüklə mənim belimə.
Bir əsa ver əlimə.
Bu dünyaya gücü çatan,
Dərd daşıyan gətirmisən.
Dizlərim bükülsə birdən,
Mən yerdən yox,
Təkcə sənin ətəyindən tutacağam.
Bir əlim dərdin ucunda,
Bir əlim Tanrı əlində,
Gözləri dualı mən olacağam!

13 may, 2001.

***

Əllərində gözü, ürəyində ayaqları,
Beyni - müəmmalı planet.
Hissləri? -
Qəbristanlıqda burulğana düşən
torpaqların cavabsız sualları.

İçində uçurum, ruhunda fırtına,
Vücudu - qadın, ürəyi - kişi,
Arxası - o dünya,
Bu dünyada sərsəri.
Müəllifi kimdi?
Ölən ruhların əsəri…

18 aprel, 2002.

***

Öz sözünə güzgü tut,
Nəfəsi gəlsə - sağdı.
Ürəyinin pıçıltısını,
Dilinə gətirmə,
Görən olar…
Nəfəsi güzgüyə düşən
bu sözün,
Üstünü örtmə…
Boğular…

26 may, 2002.

***

Ayağında torpağın dadı.
Yanında arzuya çatmaz əllər.
Qarşısında diz çökmüş sevgi adamı.
İçində baş qaldıran ruh ağacı.
Ovuclarında ötənlərin hərarəti.
Dilində səssiz sözlər.
Yanağında hıcqırıqdan
çat-çat olmuş həsrətin nəmi.
Gözlərində yaxşını pisdən seçən,
Vücudunu adlayıb keçən
xoşbəxtliyin qəmi.
Kipriyində buz bağlayan fırtına.
Ürəyində əzizlərin başdaşı.
Yaşına şillə vuran ağıl.
Təpədən dırnağa
dilsiz-ağızsız nağıl.
Göydən quyuya düşən nəfəs.
Adamsız səs.
Yarpağı atan budaq.
Kağızla qələm kimi bağlı dodaq.
Budur Şair,
Odur Şair.

12 dekabr, 2002.

***

Soyunan ağaca baxırsan.
Ağacın kötüyü torpaqda,
Yıxılan deyil.
Duracaq vüqarla.
Sənin nə ruhun var
Göyə kök atasan,
Nə də ki, canın,
Torpağa çatasan.
Nə doğursan, nə doğulursan.
Allahdan xəbərsizmi doğulmusan?
Arzum budur, heç olmazsa,
Bu ağaca çox baxasan.
Gözlərini eşidəsən,
Nəfəsini görəsən.
Bir zamanlar kölgəsinə
sığındığın bu ağacı,
Bu dəfə də qızınmaqçün,
Oduna döndərməyəsən…

12 dekabr, 2002.

***

Qış gəlib…
Qar yağır yenə.
Bu dəfə,
Qar - çiçəyə bənzəyir,
Ağacı göydə.
Bar verəcək deyəsən bu ağac.
Göydə - qış bağının
boran fəslidir.
Nə bitəcək görəsən
ləçəyi qar olan qış bağının
bu ağacında?
Gedənmi gələcək?
İnsanmı doğulacaq?
İtən kəslərin izimi bu qar?
Küsən ruhların bağrındamı
bu ağac bar verəcək?
Kimi - diri gələcək,
Kimi - gəlib öləcək,
Kimi - ölüb güləcək.

Qış gəlib…
Qar yağır yerə.
…Adam iyi gəlir bu qardan…
…Qapım döyülür yenə…

12 dekabr, 2002.

***

Saatın əqrəbində,
Asılıb ömür yükü.
Bu işıqlı otağın,
Küncünə zülmət çöküb.

Dəqiqəbədəqiqə,
Saat, ömrümü satır.
Bu işıqlı dünyadan,
Məni zülmətə atır.

Bu otağın küncüdür,
Mənim rahatlıq yerim.
Bütün dünyanı görür,
Qaranlıqda gözlərim.

Nə yaxşı, otağımda,
Sığınmağa yerim var.
Yoxsa, işıq selində,
Adam lap dəli olar.

Ömür satan saatın,
Çıqqıltısı qulaqda.
Dəli edən işığın,
Çilçırağı otaqda.

Bir musiqi yaradır,
Ürəyin döyüntüsü.
Qaranlıqda duyulur,
Sözümün görüntüsü.

Bu otaqdan çıxmağa,
Qapı var, pəncərə var.
Mən getsəm bu saat da,
Bu işıq da darıxar.

Bağlayın bu qapını,
Örtün bu pəncərəni.
Küçəyə buraxmayın,
Qaranlıqda görəni.

26 oktyabr, 2003.

***

Bir ağ vərəq, bir qələm,
Yetər, ürək açmağa.
Bir piano bəsimdi,
Öz-özümdən qaçmağa.

26 oktyabr, 2003.

***

Xoşbəxtliyin rəngin çək,
Gözlər görsün…
Gözləri görməyənlərin
qulağına pıçılda
xoşbəxtliyin adını.
Bir az dilə gətir,
Xoşbəxtliyin dadını.
Bəlkə gözün görməsi,
Ya qulağın eşitməsi,
Dilin dad bilməsi, elə
bəxtin xoş olmasıdır?
Xoş o kəslərə ki,
Xoşbəxtliyin rəngindən
keçib gəlir.
O rəng - səhərlə gecənin,
Ürəklə gözün,
Yer ilə göyün arasında
parıldayan işıq selinin
ən ecazkar rəngidir…

11 noyabr, 2003.

***

Axı niyə dəyişim?
Məni belə yaradıbdı Yaradan.
Öz içimdə ayağımı qıra-qıra,
Niyə dəyim üzü üstə,
Ay adam?
Gözlərimi kor edim?
Ürəyimi də şikəst?
Qulağımı kar edim?
Ruhuma da edim qəsd?
Özümü öz içimdə
öldürüm bilə-bilə?

Öz bətnimdən - əcaib,
Mənə yad adam doğum?
Sonra da olum qohum?
Mənim dadıma çatar
öz içimdə doğduğum.
Amma ki bağışlamaz
həyatını boğduğum.
Axı niyə dəyişim?
Məni belə yaradıbdı Yaradan.
Özüm olmaq istəyirəm,
Ay adam.

17 noyabr, 2003.

***

Pianonun dillərinin,
Ağı da var, qarası da.
Dünyanı görən gözümün,
Ağı da var, qarası da.
Ömürdə yaşanan günün,
Ağı da var, qarası da.
Saçlarımın hörgüsünün,
Ağı da var, qarası da.
Əynimə biçilən donun,
Ağı da var, qarası da.
Piano - musiqi çalır,
Gözlər - işığa yol alır.
Günlər - illərə yurd salır,
Saçlar - yenə sığallanır,
Donum canımı qoruyur.

Ağla qara arasında
bir harmoniya yaranır.
Bu aralıqda deyəsən,
Həzin bir duyğu oyanır.
Bu duyğunun rəngi düşür,
Gündən qaçan illərimə.
Uçan rəngin izi düşür,
Duyğuların əllərinə.
Bu duyğunun səsi düşür,
Pianonun dillərinə.

11 fevral, 2004.

***

Barmaqlarıma baxıram.
Biri qısa, biri uzun, biri əyri,
Biri köntöy, biri kök.
Nə əcaib görünüş.
Birləşib - əl olublar.
Bir-birinə sığal çəkib,
Bir-birinə arxa olub,
Dost olub,
Yaman gözəl olublar.

11 fevral, 2004.

***

Tavan - evlərin üstüdü,
Bulud - göylərdə tüstüdü,
Ölüm - həyata pusqudu,
Ruhla bədən arasında.

Ayaq - cismini daşıyan,
Ürək - beyninə aşiyan,
Ömür - bir andı yaşıyan,
Ruhla bədən arasında.

Söz - qəlbdən su içib gələn,
Yaş - illərə dərdi bölən,
Dünənsə - bu gündə ölən,
Ruhla bədən arasında.

Göy - yerin üzünü görən,
Torpaq - yoxundan bar dərən,
Ana - bətnindən var verən,
Ruhla bədən arasında.

Vətən - sənə arxa olan,
Övlad - nəfəsini alan,
Can - yol ayrıcında qalan,
Ruhla bədən arasında.

Bəşər - milyonların səsi,
Sevgi - varlığın zirvəsi,
Allah - qoruyan hər kəsi,
Ruhla bədən arasında.

15 iyul, 2004.

***

Hərə bir cür dəli olur.
Biri sevgidən, biri nifrətdən,
Biri itgidən, biri zillətdən,
Biri də işığında çabaladığı zülmətdən.
Görəsən mən necə dəli olacağam?
Dəli olacağammı görəsən?

15 iyul, 2004.

***

Ev tikirəm neçə ildi,
Daş üstünə daş qoyub.
Özülü var, divarı var,
Üstü açıq qalıb hələ.
Tavanı olmayan evdi,
Necə yaşayım mən belə?

Ev tikirəm neçə ildi,
Gözüm ilə, sözüm ilə, dözüm ilə.
Tavansız bu evdə soyuqdu yenə,
Üstünü örtməyə gücüm qalmayıb.
Soyuqdu, yaman soyuqdu.
Üstümə örtməyə isti söz verin mənə,
Soyuqdan ölənə.

15 iyul, 2004.

***

Şam işığı xoşbəxt olur
qaranlıqda.
Şam özünü bədbəxt edib,
Xoşbəxt olur
qaranlıqda.

5  fevral, 2005.

***

Çırp özünü divarlara,
Divar ağrıya bir çəpər.
Yıxıl torpağın üstünə,
Torpaq qəhərdən nəm çəkər.

Ağ geyinmə, ləkə düşər,
Bu rənglərin arasında.
Səni qatarlar axına,
Milyonların sırasında.

O qədər maskalar var ki,
Bu üzlər neçənci üzdü.
Söz - silaha çevrilibdi,
Bilmirsən ki, hansı düzdü.

Adamlar domino kimi,
Bir-birinə dəyib aşır.
Bu oyunun qaydası yox,
Dəyən yıxmağa çalışır.

Sən məni yıx, mən də səni,
Görək hara gedəcəyik.
Bu domino oyunuyla,
Nəyi sübut edəcəyik?

Ya dərdini divara çırp,
Ya da çırpıl divarlara.
Divarların dili yoxdu,
Gedib deməz adamlara.

20 aprel, 2005.

***

Yuyum, izi itirim,
Yazısız yol gətirim.
Öz fikrimi bitirim,
Ürəyim vura-vura.

Əlimi göyə atım,
Doğmalarıma çatım.
Ömrü ölümə satım,
Həyatım dura-dura.

Keçmişə dəyim gəlim,
Sevgimi geyim gəlim,
Əlvida deyim gəlim,
Boynumu bura-bura.

Ölüm - dolmağa gəlir,
Hakim olmağa gəlir.
Əcəl - almağa gəlir,
Min oyun qura-qura.

19 noyabr, 2005.

***

Cəhənnəmin qapısı nə rəngdədi,
Heç bilirsən?
Ayaqlarından asılıb,
Əllərinsə havada,
Ürəyin ağzına çatıb?
Qulaqlarında uğultu,
Gözlərinə qanın dolub?
Ruhunu sinəndən dartıb çıxarıb,
Çırpıblarmı üzünə?
Səsinə qandal vurub,
Salıblarmı qiyamətin qapısının
açar girən gözünə?
Bədənin sovrulub qalıbmı
burulğanın dibinin
sonsuzluğunda?
Parçalanıb qalmısanmı
yuxu ilə həqiqətin
kandarının yoxluğunda?
Barmaqları yoxa çıxan əllərinlə,
Ayaqlarını bağlayan kəndirin
düyününü aça bilmisənmi?
Əllərini kəsib
qana bulaşan kəndiri
boğazına dolayıb
boğula-boğula
ayağa durmusanmı?
Cəhənnəmin qapısının
qanın rəngdə olduğunu
görmüsənmi?
Bu dəhşətin qucağına girmisənmi?
İtirdiyin əl-ayağı,
Gözlərini, səsini,
Ruhunun nəfəsini
qan rəngli qapı gözündən qoparıb,
Gecəyarı, dörd divarın arasında,
Ağappaq yorğan-döşəkdə
çırpınan bədəninin qucağına gətirmisənmi?
Gecəyarı bu dəhşətdən qurtulub
qaranlığı gördüyünə sevinmisənmi?
O dünyadan bu dünyaya
açılan bu qapının,
Nə rəngdə olduğunu heç bilirsən?
…Təki, bilməyəsən…

19 noyabr, 2005.

***

Deyəsən gözlərim görür,
Qara ilə ağı seçir.
Deyəsən nəfəsim gəlir,
Hava ciyərimdən keçir.

Deyəsən ruhum bu günə,
Özünü yetirə bilib.
Deyəsən gecə səhəri,
Ömrümə gətirə bilib.

Deyəsən kədər payımı,
Gizlicə yola salmışam.
Deyəsən günəşim doğub,
Mən, bir gün də qocalmışam.

Deyəsən axşama kimi,
Səni görə biləcəyəm.
Deyəsən yenə kiməsə,
Salam verə biləcəyəm.

26 iyul, 2007.

***

Gözlərimə yol çöküb
geri dönməz illərlə.
Bu yollar həsrət əkib,
Bitib nisgil ağacı.
Görünməyən budağı,
Danışmayan gövdəsi,
Ağlamayan yarpağı,
Çiçəksiz vücuduyla,
Kölgə salır günlərlə.
Bu ağaca söykənibdi bədənim,
Ruhum, yolların üstə
gəzir ünvansızları.
Gözlərimsə yol çəkir,
Taleyinə söykənib.
Bu yollarsa, deyəsən
bu günümə qol çəkir.
Hardasa torpaq üstə,
Kimsə təzə yol çəkir…

26 iyul, 2007.

***

Səsinə güc vermə, sözünə güc ver.
Qoluna güc vermə, dilinə güc ver.
Danış, yola gətir yoldan çıxanı,
İnsan olan yerə qaytar sən sərgərdanı.
Asand deyil əldən tutmaq,
Ələ gərək əlin çata.
Üzü donmuş, ruhu sönmüş birini,
Sevdirəsən həyata.

30 avqust, 2007.

***

Gör nə qədər hərflər var, sözlər var,
Vaxt olmur ki, darıxmağa.
Hərdən söz tapa bilmirsən,
Hərflər köməyə çatmır
söz yığmağa.
Eşitmək istəyirsən elə bir sözü ki,
Hərflərə zor gələ bilib, birləşməyib.
Bu hərflər, hələ heç vaxt görüşməyib…

30 avqust, 2007.

***

Mən bu yeri çox sevirəm,
Ayağım dəyməsə belə.
Gələnə qapı açıram,
Qapımı döyməsə belə.

Heç nə geymədən əynimə,
Vücudum gəlmir eynimə.
Nə isə qonur çiynimə,
Belimi əyməsəm belə.

Hamının adı yazılıb,
Kiminin üzü pozulub.
Çoxunun qəbri qazılıb,
Kəfəni geyməsə belə.

Qapısının kandarı yox,
Bir kafiri, dindarı yox.
Yox olan adamları çox,
Adamlar görməsə belə.

2 noyabr, 2007.

***

Alaqaranlıq otaq,
Titrəyən incə dodaq,
Soyumayan bir yataq,
Dünyanın qucağında.

Fikirlərin tufanı,
Hisslərin həyəcanı,
Bu da bir günün anı,
Dünyanın qucağında.

Ürəyin çırpıntısı,
Bir damla su yanğısı,
Gözlərin parıltısı,
Dünyanın qucağında.

Yerdən, göydən aralı,
Duyğular da havalı.
Səslərin qalmaqalı,
Dünyanın qucağında.

2 noyabr, 2007.

***

Çox demirəm,
Yarım saat qala bilsən
mənim olduğum yerdə,
Üz tutmazsan ora bir də.
Mən də getmək istəmirəm.
Bu duyğular, bu fikirlər,
Bu ürəyim, tutub əlimdən aparır.
Mən dönə-dönə gedirəm.
Gedib yenə qayıdıram.
Yarımcan olsam da belə
yenə ora qayıdıram.
Çox demirəm,
Bircə anlıq ola bilsən,
Mənim olduğum yerdə,
Geri dönməzsən bir də…

4 noyabr, 2007.

***

Bu ürək ki, səndə var,
Canın qurtaran deyil.
Bu boyda bədənini
qatıbdı qabağına.
Yüyən onun əlində,
Qamçı onun əlində.
Çırpa-çırpa aparır
özünə qəsd etməyə.
Ayağın ağzı nədi,
Bu ürəklə getməyə.

4 noyabr, 2007.

***

Sən sazı çal, mən kamanı,
Sən yolu gör, mən dumanı,
Sən vaxtı tut, mən zamanı,
Görək kimin gücü çoxdu.

Sən maşın sür, mənsə atı,
Sən röya sev, mən həyatı,
Sən düyün ol, mənsə çatı,
Görək kimin gücü çoxdu.

Sən ağıl ol, mənsə yaddaş,
Sən qohum ol, mənsə sirdaş,
Sən tənha ol, mənsə yoldaş,
Görək kimin gücü çoxdu.

Sən dənizsən, mən sahilin,
Sən kişisən, mən cüt əlin,
Sən dövlətsən, mənsə dilin,
Görək kimin gücü çoxdu.

4 noyabr, 2007.

****

Barmaqlar elə bilir ki,
Böyük hünər sahibidir.
Əl hara aparsa, gedir.
Əl qola bağlıdır,
Qol da çiyinlərinə.

Çiyinin üstə baş var,
Başın içində ağıl.
Ağıllıda bir yaddaş,
Yaddaşın xatirəsi,
Xatirənin nəfəsi.
Nəfəsin də hərdənbir
yazmaq istəyən səsi.
Barmaqlar qələm tutub,
Həmin o səsi yazır.
Səsin əmrinə hazır,
Barmaqlar sözə baxsa,
Çox işlər görmək olar.
Barmaqlar üzə baxsa,
Bu səsi, bu nəfəsi,
Eləcə dərmək olar.

4 noyabr, 2007.

***

Bir yarpaq ağacda etdi intihar,
Nə budaq danışdı, nə yarpaq dindi.
Göydən qəm yerinə yağdı bəyaz qar,
Bir ömür qırıldı kökündən indi.

Bu yarpaq ilk bahar ömrü yaşadı,
Naz etdi ağacın yarpaqlarına.
Yamyaşıl rəngiylə gözü oxşadı,
Pıçıltılar qondu dodaqlarına.

Üzünə bir payız həsrəti güldü,
Yağışdan yağmura düşdü elə bil.
Sözünü demədən diriykən öldü,
Budaqdan torpağa köçdü elə bil.

Ağacsa qürurla dayanıb yenə,
Yarpağın ömrünə gəldi son bahar.
Əlvida deyərək sevdiklərinə,
Bir yarpaq ağacda etdi intihar.

Qəlbimə sığınan olmasa bir an,
Ömürdən son damla içmək istərəm.
Ruhumun gözünü bağlasa duman,
Mən də yarpaq kimi köçmək istərəm.

Axı bu yarpağın nə günahı var?
Bir budaq üstünə ömrü dar gəlib.
Bir yarpaq ağacda etdi intihar,
Köməyinə yalnız intihar gəlib.

14 noyabr, 2007.

***

Başımın içi sıxılır,
Elə bil beynim yıxılıb.
Ağzı-burnu parçalanıb,
Bu fikirlər yıxdı onu.
O qədər çox oldular ki,
Beynim başıma yıxıldı,
Başım da çiynimə düşdü.
Bu ağrıların içində,
Gözlərimin qabağında,
Gecə səhərlə öpüşdü.

12 dekabr, 2007.

***

Yer, göy, səhər, gecə,
Yağış, qar, günəş, Ay.
Təbiətin möcüzəsinə bir bax,
Bu qədər gözəlliklər
bir-birinə həsrətdi.
Bu da bir qismətdi.
Ən gözəl bildiyin nə varsa, ona
uzaqdan baxmalısan.
Əlçatmayana çatmaq duyğusunu,
İçində boğmalısan.

12 dekabr, 2007.

***

Yuxum gedib gəzməyə,
Geri dönmək istəmir.
Gözlərimsə, yuxum geri dönməyincə
gözünü yummaq istəmir.
Yuxum səfil, gözüm açıq,
Ürək oyaq, ruh dağınıq.
Yuxum səhər gələcək,
Gözlərimə girəcək.
Canım yatmaq istəyəndə,
Qapımız döyüləcək.

12 dekabr, 2007.

***

Heç bu da sözdü yəni,
«darıxma, düzələr».
Hamı düz üzə, düz gülə,
Pul düz ələ, düz gələ.
Sevən, qəlbini düz ilə, düz bölə.
Görənlər əyrini düzdən, düz silə.
«Düz olan, düzdə qalar»
deyənlər olmaya.
Onda lüzum qalmaz darıxmağa.
Ehtiyac olmaz
əyrilər arasından
düz çıxmağa.
Düzlüyünlə sıxılma ha…

12 dekabr, 2007.

***

Sən neçə dil bilirsən?
Beş, on, yoxsa daha çox.
Öz aramızda dil tapaq,
Kitablarsız, filansız.
Fırıldaqsız, yalansız.
Duyğuların dilini öyrən,
Adam dilidi bu.
O, Allahın vergisi.
O dili bilsən, əgər,
Bütün dilləri bilirsən.
Öyrən hisslərin dilini,
Nə olar.
Özün öyrən.
Bu dili öyrənməkçün
Hələ yoxdu yazılar.

12 dekabr, 2007.

***

Nə istəyir ürəyin,
Niyə rahat olmursan?
Oyun quran fələyin,
Gözünü də yormursan.

Sürətlə gələn maşın,
Səni vuracaq indi.
Bəlalar çəkər başın,
Bu can axı sənindi.

Düşüb bulanıq suyun
axınına, gedirsən.
Ömür səninçün oyun,
Uduzmağı sevirsən.

İblis əlindəki daş,
Başına düşə bilər.
Səni tərk edər yaddaş,
Ruhun bədəndə sönər.

Həyat gözəldi axı,
Niyə onu sevmirsən?
Belə alıb günahı,
Axı hara gedirsən?

Özün burda olsan da,
Başqa dünya gəzirsən.
Lap yanımda olsan da,
Harasa tələsirsən.

Bir anlıq ayaq saxla,
Bədbəxtlik-zad gətirmə.
Sən öz qəlbini yoxla,
Onu yolda itirmə.

Oyun quran fələyin,
Gözlərindən keç, yaşa.
Nə istəyir ürəyin?
Ürəyimə köç, yaşa.

3 yanvar, 2008.

***

Dünyanın işinə bax,
Özündən də biri var.
Özündən olan biri,
Dara çəkir səbiri.

3 yanvar, 2008.

***

Yıxılmaq istəyirəm,
Bu qədər durmaq olar?
Ayaqüstü işlərin,
Sonunda yıxılmaq var.

Yıxılsam qolum sınar,
Ya əzilər ayağım.
Yıxılan o anımda,
Kim olacaq dayağım?

Başım partlaya bilər,
Üzüm cızılar bəlkə.
Ürəyimə yığılsam,
Qalacaq kiçik kölgə.

Bu kölgə nələr edər,
Bütün ömür boyunca.
Yaşaya da bilmərəm,
O ürəklə doyunca.

Yıxılmaq istəyirəm,
Mənə dərin yer qazın.
Yorğanım torpaq olsun,
Torpaq altında azım.

Yıxılmaq istəyirəm,
Kədərimin başından.
Yıxılmaq istəyirəm,
Gözlərinin yaşından.

3 yanvar, 2008.

***

Rahatlıq necə olur?
Gözlərin heç nə görmür?
Qulaqların kar olur?
Duyğuların, hisslərin,
Sənə hökmdar olur?
Nə soyuğu, istini,
Nə acını, şirini,
Bilmir dad bilən dilin?
Heç bir yükü çəkmədən,
Yanına düşür əlin?
Rahatlıq necə olur?
Ürəyin tez-tez vurmur?
Bədən ayağı yormur?
Başın heç vaxt ağrımır?
Heç kim səni çağırmır?
Darıxmaq nədi bilmir,
Ruhun da bu bədəndə?
Əzab, kədər yan keçir,
Səninlə görüşəndə?
Rahatlıq necə olur?
Heç yuxu da görmürsən?
Diri ikən ölürsən?
Rahatlıq necə olur?
Rahatlıq istəyirəm.
O rahatlıq ölümsə,
Mən onu gözləyirəm.

3 yanvar, 2008.

***

Vicdan nə böyük dünya.
Vücudun içində can.
Vəzifəli cəmiyyət.
Vüqar istəyən cahan.
Vaxtı izləyən cihaz.
Varlığını içən cam.
Vardığın izdə cihad.
Verilən ismi cəsəd,
Vecsiz, istəksiz calaq.
Verilən sadə bir ad…
…Nə qəribədi həyat…

3 yanvar, 2008.

***

Qar ağı geyib gəlib,
Göy ağı deyib gəlib.
Vidalaşıb səmayla,
Qəddini əyib gəlib.

Qışın elçisidi qar,
Göyün kölgəsidi qar.
Yağanda sevinsək də,
Kədər ölkəsidi qar.

Göydəki bardan gəlib,
Nə bilək hardan gəlib.
Qar yağıb yer üzünə,
Bəlkə qübardan gəlib.

Dolub göyün gözünə,
Ağ çəkibdi üzünə.
Qar adı qazanaraq,
Düşüb yerin izinə.

3 yanvar, 2008.

***

Bahar vaxtsız ötüşdü,
Payız yoluma düşdü.
Dedim ki, son görüşdü,
Qış mənə yaxın gəldi.

Çiynimdəki bu başım,
Taleyimdə yaddaşım.
Dost bildiyim sirdaşım,
Namərdə qohum gəldi.

Kirpiklərim sipərdi,
Gözlərimə çəpərdi.
Gecə keçib, səhərdi,
Nədənsə yuxum gəldi.

Ömür illəri atdı,
Üçüm yeddiyə çatdı.
Fələk başımı qatdı,
Deyəsən qırxım gəldi.

3 yanvar, 2008.

***

Əllərimin titrəməsi,
Ürəyimin sevgi səsi,
Gözlərimin yol çəkməsi,
Yadında qalsa, nə olar.

Varlığımla göyə uçan,
Dünyadan dünyama qaçan,
Ürəyini mənə açan,
Yanımda olsa, nə olar.

Ruhuma sevgin dəyəndə,
Qəlbim qapını döyəndə,
Səni sevirəm deyəndə,
Gözlərin dolsa, nə olar.

Biz o dünyanı görmədən,
Burda qovuşaq, ölmədən.
O zaman sevgi bilmədən,
Canımı alsa, nə olar.

10 mart, 2008.

***

Kimi qaçır, kimi qovur,
Hardasa bir duyğu doğur,
Ürəyinə sevgi qonur,
Dünyaya gəlir, pay kimi.

Gözlərin işığı yanır,
Həyat yanında dayanır,
Səsində bir eşq oyanır,
Gecələr doğur Ay kimi.

Bir gözəl ömür verilib,
Sevgi ürəkdən dərilib,
Bu həyəcandı, gərilib,
Oxunu atan yay kimi.

Sınmasın gözün güzgüsü,
Susmasın qəlbin sevgisi.
İki ürək döyüntüsü,
Üsyan edir, haray kimi.

10 mart, 2008.

***

Dünyadan bixəbər kimi,
Aləmi qatdın elə bil.
Gecə kimi, səhər kimi,
Nəyəsə çatdın elə bil.

Fırçaya döndü gözlərin,
Çəkdiyi sevgi butası.
Ürəkdə qalan sözlərin,
Bir gün çıxacaq xatası.

Bir ovuca sığa bildi,
Elə bil ürəyin səsi.
Tənhalığı yıxa bildi,
Yerində qaldı naləsi.

Bir baxışın bax gücünə,
Fırtınaya atdı məni.
Heç nəyi alma vecinə,
Gözlərin aldatdı məni.

Mən nəfəsinə əsirəm,
Azadlığım dilindədi.
Mən yaratdığın əsərəm,
Qələm sənin əlindədi.

Özün də bilmədən belə,
Aləmi qatdın elə bil.
Dönüb tikanlı bir gülə,
Ruhuma batdın elə bil.

12 mart, 2008.

***

Boz paltarlı səhər açıb,
Döydü günün qapısını.
Sevinc gözlərimdən qaçıb,
Düyünlədi çatısını.

Səhərə sevinməkdənsə,
Çiynimə bir yük qalandı.
Güzgüyə baxdım, nədənsə,
Qəfil həyəcan oyandı.

Üzümdə bir yorğun dəli,
Gözlərimdə eşqi sönən.
Çiynimdə əzabın əli,
Bədən o dünyadan dönən.

Gecəsi yuxuda azan

Vücudum, səhərə çatıb.
Hər gün mənə quyu qazan
Ruhumsa, hələ ki, yatıb.

Kaş səhərin üzü gülsün,
Zəhrimar qana işlədi.
Oyananın gözü görsün,
Bu səhər cana işlədi.

12 mart, 2008.

***

Şeytana rəvac vermisən,
Tanrından üz döndərmisən,
Sən dar dalana girmisən,
Çıxışı yoxdur bu yolun.

Vicdanını itirmisən,
Salıb yerəmi gəlmisən?
Heç olmaya deyirmisən,
Bəsdi bulandım, durulum?

Həyatdan nə tez bezmisən,
Öz ruhunu da əzmisən,
Danışmağa üz gəzmisən,
Adamdolu sağın, solun.

Qaranlıq dünyanı at, gəl,
Duyğularını oyat, gəl,
Vallah gözəldir həyat, gəl,
Salamı vardır, sağ olun.

28 mart, 2008.

***

Əlini çək pəncərənin üzünə,
Şehə barmaq izi çək…
Gecə dəysin gözünə.
Yuxuya batan şəhərin
qara köynəyinin yaxası açıqdı.
Gözə dəyənlər göyə çıxdı.
Qucaqlayıb gecəni
özünü göyə yıxdı.
Sən də yıxıl,
Ya pəncərənin o üzünə,
Ya da bu üzünə.

Gecənin damarını tut.
Yaxasını buraxma.
Ya sən gecənin olacaqsan,
Ya da gecə sənin
unudulmaz əsərin.

23 aprel, 2008.

***

Vaxtın üzünü görsəm,
Məni tapdalayacaq.
Vaxt dayanıb getməsə,
Ürəyim partlayacaq.
Nə istəyirsən danış,
Səsinlə vaxtı apar.
Məni bu vaxtdan qopar…
Gəl səsi qucaqlayaq,
İstəyirsən ağlayaq.
Təki, aramızdakı
Boş vaxtı ayaqlayaq…
Zamanı da saxlayaq…

23 aprel, 2008.

***

Dünən də elə idim,
Bu gün də beləyəm,
Sabah da elə-beləyəm.
Heç nə dəyişən deyil,
Nə beynimdə, nə ruhumda,
Nə də üzümdə.
Sadəcə ayların adı dəyişir,
İllərin sayı artır.
Hə, yadıma düşdü.
Dünən yaşaya-yaşaya ölmək istəyirdim,
Bu günsə ölüb yaşamaq istəyirəm.
Nə dünən elə oldu,
Nə bu gün belə olacaq.
Yəqin sabah bu arzu da olmayacaq.

23 aprel, 2008.

***

Səsini çıxarma,
Sakit otur öz yerində.
Şeytan səni görməsin.
Üzünə dəyməyib hələ onun nəfəsi,
Heç dəyməsin.
Səsini boğ içində,
elə yaşa ki,
Şeytan, sənin ürəyinin
qapısını döyməsin.

23 aprel, 2008.

***

Gözlə qaşın arasında doğan bir an,
Doğumla ölüm arası ömür sürür bəzən.
Sən kimsən?
Fasilədə ömür sürən?
Ölsən belə üzə gülən?
Taleyimə qəfil gələn?
Sən, mənsən?
Bəs mən kiməm?
Mən də sənə yol alıb gələn.

23 aprel, 2008.

***

Bu bacanın tüstüsü var,
Mən onu tuta bilmərəm.
Tüstü əlimdən sürüşüb
ələ gəlməz.
Xəyal da duman kimidir,
Məni yolda azdıracaq.
Xəyalın dediyi sözlər
dilə gəlməz.
Bir anın əliylə yazılan
Hansısa hökmü,
Bir il də silməz.

23 aprel, 2008.

***

Ürək susuzluqdan yanır,
Dil quruyur.
Ruhun səndə üsyan edir,
Ürək dayanır.
Ayaqların sözə baxmır,
Nəfəsin gedib gəlir.
Damarında qanın qaynayır,
Üzün donur.
Yaş üstünə yaş gəlir,
Ömür qısalır.
Ağıl müdrikliyə çatır,
Vücud solur.
Nə isə, nəyəsə təslim olur…
Bu üzdə oyun qurulur,
Bir uşağın gözü dolur.

23 aprel, 2008.

***

Alnıma qırış düşüb
qaşlarımın düyünündən.
Neyləyirəm açılmır.
Neçə illər üzümün hikkəsindən
qaşlarım toqquşaraq
aralığa iz salıb.
Sözümün hökmünü yazan
bu cizgi,
Hirsimə tutub güzgü.
Ha çalışsam, vuruşsam,
Qırış açılan deyil.
Qaşlarım rahatlaşmasa,
Təzə izlərin gəlməsi,
Üzdən qaçılan deyil.

23 aprel, 2008.

***

Torpaq damlanı gözlər,
Sözlər cümləni gözlər,
Döyüş həmləni gözlər,
Bu dünyanın canı bu.

Dünya qocalmaq istər,
İnsan ucalmaq istər,
Ürək kam almaq istər,
Həyatın sultanı bu.

Sevgi nəfəsə sığmaz,
Oyun həvəsə sığmaz,
Ruhlar qəfəsə sığmaz,
Zamanın dövranı bu.

Tikə boğazdan keçər,
Duyğu kağızdan keçər,
Nalə ağızdan keçər,
Dodağın mehmanı bu.

Gözlər danışa bilir,
Fikirlər çaşa bilir,
Aləm qarışa bilir,
Sevgi həyəcanı bu.

23 aprel, 2008.

***

Çıqqıltıdan qulaq batır
səhər tezdən.
Onlar nə istəyir bizdən?
Biri-birinə qoşulub vura-vura
bizi əlində oynadır.
Biri sinənin üstündə,
Biri qulağın dibində.
Başa düşdüm, durmalıyam.
Yuxuya aşiq olsam da,
Bu günə baş vurmalıyam.

24 aprel, 2008.

***

Telimin sığalını,
Sevgimin xəyalını,
Allahın qonağını,
Ömrünə pay göndərim.

Könlümün avazını,
Kamanını, sazını,
Bəxtəvərin nazını,
Ömrünə pay göndərim.

Sevgim qonar səsimə,
Ovudan nəfəsimə,
Var-dövlət əvəzinə,
Ömrümü pay göndərim.

Ömrünü Allah yazıb,
Ömrün bu canda azıb.
Qəlbi muma döndərim,
Ömrünə pay göndərim.

11 iyun, 2008.

***

Gah yaz ola, gah da qış,
Qar yağa, ya da yağış,
Bəsdi bir odlu baxış,
Ömrü fəda etməyə.

Gün gecəyə yar ola,
Dünya bəxtiyar ola,
Qəlbdə ixtiyar ola,
Dərdə vida etməyə.

Yer göyə aşiq ola,
Gün aya sadiq qala,
Eşq yenə zülmə sala,
Məndə əda etməyə.

Od var külə döndərir,
Od var gülə döndərir,
Gün var aya tay deyil,
Ay var ilə döndərir.

11 iyun, 2008.

***

Hər budaq ağac deyil,
Kölgəsi olsa belə.
Hər sevən əlac deyil,
Dərdinə qalsa belə.

Mən özümü saxladım,
Sənin gözündə tapdım,
Göy üzündə ağladım,
Yaşı üzündə tapdım.

Uçmağa qanad olan,
Sevgini daddım belə.
Ömrümüzə yol alan,
Qüssəni atdım belə.

Ürəyinin sözünü,
Sənin üzündə tapdım,
Axtararaq özümü,
Sənin özündə tapdım.

11 iyun, 2008.

***

Pəncərəmə düşən işıq,
Ümiddən xəbər gətirib.
Dünyaya açılan səhər,
Özünü mənə yetirib.

Bu işığın gücünə bax,
Gözlərimi aça bilib.
Əlini üzümə çəkib,
Öz evinə qaça bilib.

İnanmıram özü gəlib,
Onun da göndərəni var.
Bu dünya bir baş kimidir,
Onun da döndərəni var.

Ürəyimin pəncərəsi,
İşıq əliylə döyüldü.
Qaranlıq yaxasın çəkdi,
Gecənin üzü əyildi.

Hərdənbir bizə də boylan,
Bilirəm ki, gedəcəksən.
Ruhum gecələrdən küssə,
Yenə bizə dönəcəksən.

11 iyul, 2008.

***

Səni ömrümə yazdım,
Eşq dünyasında azdım,
Sənə bənd olan qızdım,
Yolunu çaşıb getdin.

Bahara qış gətirdin,
Qəlbimə daş gətirdin,
Gözümə yaş gətirdin,
Həddini aşıb getdin.

Yağmurda dözüm kimi,
Qəfəsdə sözüm kimi,
Boğulan özüm kimi,
Səbirdən daşıb getdin.

Ayı ildən alaraq,
Xatirəmə dolaraq,
Məndə yuva salaraq,
Hara yığışıb getdin?

11 iyul, 2008.

***

Göyə yaman baxırsan,
Orda nəyin azıbdı?
Hər gün göyə çıxırsan,
Bəxti yazan yazıbdı.

Sözü daşa döndərib,
Hara gəldi tullama.
Sonsuzluğa göndərib,
Daşı sözə yollama.

Sən bir içinə baş vur,
Duyğunu sahmana sal.
Orda dar ağacı qur,
Kəndirin boynunda qal.

Ağac kölgə salsa da,
Kəndir ondan asılır.
Torpaq cənnət olsa da,
Qəbir onda qazılır.

Təkcə göyə baxmaqla,
Baş uca ola bilməz.
Onu-bunu yıxmaqla,
Kimsə ucala bilməz.

11 iyul, 2008.

***

Ürək bağlı qapı kimi,
Döyülməsə açılmaz ki.
Öz əllərin boğsa səni,
Bu taledi, qaçılmaz ki.

Vulkan üstə oturanda,
Onun da püskürməyi var.
Bəxtin sənə yol çəksə də,
Hərdənbir küsdürməyi var.

Dünyanın yaxası açıq,
Onu soyuq vura bilər.
İnandığın gözlərin də,
Sənə oyun qura bilər.

Qismətin çəkməsi cırıq,
Uzaq yolu gedə bilməz.
Fikirlər dolaşıq düşsə,
Bir-birini güdə bilməz.

Yorğunsansa bir az otur,
Can səni daşımalıdır.
Bu yazıq bədən neyləsin,
Bu ruhla yaşamalıdır.

Hər gün ölüb-dirilməkdən
bezən adam, həyat - oyun.
Gör neçə qəm köynəyin var,
Yazıqsan, birini soyun.

Gül yerinə bu torpağa,
Dözüm ağacı ək bir gün.
Darıxma, bar verməsə də,
Kölgəsi gələcək bir gün.

22 iyul, 2008.

***

Əgər uşaq ağlayırsa,
Deməli nəsə istəyir.
Gözlər aşağı baxırsa,
Ruhun üzünü gizləyir.

Nəfəsin gedib-gəlirsə,
Bu hələ yaşamaq deyil.
Özünü görə bilmirsən,
Bir azca içinə əyil.

İstədiyin səsi götür,
İçində öz dünyan da var.
Bir az da özünçün oyna,
Axı sənin havan da var.

Sığal çək sarı yarpağa,
O da bir vaxt yaşıl olub.
Ağacın budağı boşsa,
Ayrılığı çəkib, solub.

Gözlərini buluddan as,
Sənin yerinə ağlayar.
Həyat, ölüm arasında,
Darıxma, Allah saxlayar.

23 iyul, 2008.

***

Dəvəsi ölmüş ərəbəm,
Hökm fələk dilindədi.
Hara dartsa gedəcəyəm,
İpim onun əlindədi.

Nə soyuğa, nə istiyə,
Dözümüm qalmayıb daha.
Qorxuram hərarət düşə,
Vücudum bata günaha.

Məni məndən qoparmağa,
Göz qırpımı da bəs edər.
Əcəlim bu halı görüb,
Aparmağa həvəs edər.

23 iyul, 2008.

***

Deyəsən tək qalmısan,
Düşünməyə vaxtın var.
Əgər vaxt verilirsə,
Demək, sənin baxtın var.

Tək qal, amma təklənmə,
Heç vaxt küncə sıxılma.
Barmaqla göstərsələr,
Möhkəm dayan, yıxılma.

Sən seçilmiş adamsan,
Nə gəldi seçmək olmaz.
Sənin seçdiyin yoldan,
O yana keçmək olmaz.

Bir söz verilib sənə,
O sözün adı - zülüm.
Bir çox qafiyəsi var,
Çalış olmasın ölüm.

Təkliyə şəkk gətirmə,
Hər kəs tək qala bilməz.
Allah sənə bar verib,
Pulla satıla bilməz.

Hamı səndən söz istər,
Sən söz deməyə gəldin.
Bağlı qalan qapını,
Açıb, köməyə gəldin.

Damla-damla boşalan,
Damcılarla dolacaq.
Gedən nə, gələn nəsə,
Adına yazılacaq.

Deyəsən tək qalmısan,
Duyğuların incəlir.
Özünlə öz aranda,
Beynin, ruhun dincəlir.

Sən özünü itirmə,
Qorxma ki, qalmısan tək.
Səni Allah bəyənib,
Sənə uzadıb ətək.

27 iyul, 2008.

***

Al bu kağız, bu qələm,
Bu dörd divar, bir də sən.
Mən də çıxıb gedərəm,
Heç kəs baxmır, özün yaz…
Amma ki, bax, düzün yaz.
Bəlkə də bu yazının
hissindən, dəhşətindən
ürəyim partlayacaq.
Bəlkə də dayanacaq.
Özünü elə yaz ki,
Xəttin oxuna bilsin
Rəhmini azdır getsin,
Sözün toxuna bilsin.

6 avqust, 2008.

***

Kipriklər gözə məhkum,
Dodaqlar üzə məhkum,
Dil özü sözə məhkum,
Bu, Allahın əmridi.

Ayaq bədənin qulu,
Nəfəs həyatın yolu,
Ruhun əlləri dolu,
Bu, Allahın əmridi.

Ürək döyünüb yaşar,
Səbr damladan daşar,
Qan başa vursa çaşar,
Bu, Allahın əmridi.

Dünyaya gələn ağlar,
Əzabı görən ağlar,
Öləndə gülən ağlar,
Bu, Allahın əmridi.

6 avqust, 2008.

# Dey əsən tə

***

Gecənin qasırğası,
Dənizin fırtınası,
Ürəyin çırpıntısı,
Hər şey üst-üstə düşür.

Ruhunun əzilməsi,
Ağrının dözülməzi,
Nəfəsin kəsilməsi,
Hər şey üst-üstə düşür.

Ömrün varaqlanması,
Zamanın dayanması,
Həsrətin oyanması,
Hər şey üst-üstə düşür.

Gözlərini bağlamaq,
Öz içinə ağlamaq,
Torpağı qucaqlamaq,
Hər şey üst-üstə düşür.

Gedəni yola salmaq,
Tənhalığa yol almaq,
Bir daha yetim qalmaq,
Hər şey üst-üstə düşür.

6 avqust, 2008.

***

Nə vermisən ki, mənə,
Geri də istəyirsən.
Verdiyin üzə gülüb,
Amma ki, çoxdan ölüb.
İçimdə basdırmışam,
Duyğularımı bir-bir.
Bilirsən neçə qəbir,
Ürəyimdə qazılıb?
Üstünə «dərd» yazılıb.
Ağlamaq istəyirsən?
Gəl onlara yas tutaq.
Geri istədiyin o,
ölən duyğularımın
göz yaşlarında bataq.
Bəlkə duyğuya çataq…

6 avqust, 2008.

***

Əlimdən düşənləri,
Yollarda itənləri,
Geriyə qayıdaraq,
Bu yollardan yığaraq,
Mən sənə bəxş edərdim.
Səni bir də sevərdim.

6 avqust, 2008.

***

Az qaldım yıxılam göyün üzünə,
Elə bil tərsinə fırlandı başım.
Burdan gedənlərin düşdüm izinə,
Borcumu yadıma saldı yaddaşım.

Həyatımın hökmü neçə ildi, bax,
Azadlığın vaxtı hələ çatmayıb?
Neçə addım qalıb qurtarsın sınaq?
İki əsrdi ki, ruhum yatmayıb.

Qapımla pəncərəm dəyişir hərdən,
Hansından küçəyə çıxdım, bilmədim.
Ayaqlarım qəfil üzüldü yerdən,
Allahın sirridir, düşüb ölmədim.

13 avqust, 2008.

***

O qədər işarə var ki,
Nöqtə, vergül, nida, sual.
Hansını istəyirsən yaz
dediyinin sonuna.
Söylədiyin sözlərin qərarını
işarələr verəcək.
Arif adam, işarədən biləcək.

28 avqust, 2008.

***

Dərəcəni bilirsən?
Hər şeyin dərəcəsi olmalıdır.
Danışmağın, gülməyin,
Sevilməyin, sevməyin,
Nifrətin, həqiqətin,
Bədbəxtliyin, qismətin,
Və sairə və ilaxır.
Bircə şeyin dərəcəsi
yoxdu amma.
Qəfil ölməyin.

28 avqust, 2008.

***

Bir sınıq güzgüyəm yerə çırpılan,
Yığıb toplasan da çatı qalacaq.
Ürəkdən əlinlə qəmi qoparma,
Onsuz da alnımda qatı qalacaq.

Göy üzü üstümə aşmaq istədi,
Yerə yıxılanı yıxmağa nə var.
Ruhum da yapışıb şikəst canımdan,
Öləndə canımdan çıxmağa nə var.

Dünya da fırlansa mənim başıma,
Bu qəmə köklənmiş yol hara çəkir?
Dərdə təslim olub ölə bilərdim,
Mənə təslim olan dərd dara çəkir.

22 sentyabr, 2008.

***

Bu dünyaya mən də bir can gətirdim,
Uşaqlıqdan gəncliyinə yetirdim.
Nələrisə tapdım, nələr itirdim,
Məəttəl qalmışam öz ürəyimə.

Tüstüsü görünmür, ürəkdi yanan,
Bir dəli vulkandı sakit dayanan,
Gündüzləri yatıb, gecə oyanan,
Qəm-kədər basıbdı köz ürəyimə.

Bağrım yarılacaq göz baxa-baxa,
Az qalır ki, ruhum bədəndən çıxa.
Ha çəkim kənara, əldədir yaxa,
Məlhəm ola bilmir söz ürəyimə.

Nə yerə, nə göyə bu can sığışır,
Mənə sarı gələn tufan sovuşmur,
Dilim, gözüm, qəlbim susub danışmır,
Duyğularım deyir - döz ürəyimə.

Qollarım bağlansın, yolum üzülsün,
Gözlərim tutulsun, başım əzilsin,
Həyat sona yetsin, nəfəs kəsilsin,
Ölüm zəhərini süz ürəyimə.

Bu şax vücudumu kədərim əydi,
Fəsillər də matəm libası geydi,
Kimsə nişan aldı, balama dəydi,
Qəlpəsi sancıldı düz ürəyimə.

22 sentyabr, 2008.

***

Hər şey öz yerindədir
elə bil.
Bu da mən…
Mənim yerim hardadır?
Öz evimdə oturmuşam elə bil.
Gecədir.
Ulduz-Ay öz evindədir
elə bil.
Mənsə, gecənin qolları arasında,
Öz evimin içində,
Doğuluram elə bil.
Bu bədənimin içindən
harasa atılmaq üçün
sıxılıram elə bil.
Qəzaya düşüb yenə də,
Dağılıram elə bil.
Yıxılıram, sıxılıram,
Boğuluram elə bil.
Hər şey öz yerindədir,
Bu da mən.
Yox oluram, gəl və bil.

23 sentyabr, 2008.

***

Mən özümü o dünyaya kökləmişəm,
Bu dünyaya çətin alışa bilim.
Həqiqətdən möcüzələr gözləmişəm,
Susa-susa necə danışa bilim?

Uçan quşun qanadına yük asmazlar,
Axır-əvvəl dizüstə yerə dəyəcək.
Taleyindən qoparılan adam ki, var,
Yoxluğuyla sənə çox şeylər deyəcək.

23 sentyabr, 2008.

***

Külək evində durmur,
Düşübdü küçələrə.
Gah susub, gah danışıb,
Çırpılır döngələrə.

Çağırışsız, filansız,
Giribdi otağıma.
Mən də varam - deyərək,
Dönübdü qonağıma.

Sözə yük olmayaraq,
Nəfəsinə güc gəlir.
Qəzəbini coşdurub,
İstədiyini bilir.

Kim bilir ki, dərdinə,
Üsyan edib dözür o.
Çox da ki, azadlıq var,
Azadlıqdan bezir o.

Qəribə taleyi var,
Gözə görünə bilmir.
İşlətdiyi fəndlərlə,
Hər an öyünə bilmir.

O da belə yaranıb,
Əsirsə - adı külək.
Hamı onun üzünü,
Əsəndə görsün gərək.

Ruhum içimdə əsir,
Küləyə dönə bilmir.
Canımın qapısında,
Əssə də, döyə bilmir.

Küləyə qibtə etdim,
Məni oyada bilir.
Öz içini dağıdıb,
Geri qayıda bilir.

2 aprel, 2009.

***

Özünə qapalı adam,
İçinə qapanıb qalıb.
Sözləri ilə bir yerdə,
Qorxudan oyanıb qalıb.

Qələminə güc gələrək,
Yazmağı qorxudur onu.
Fikirlərin arasında,
Azmağı qorxudur onu.

Dərdin dağına çıxsa da,
Əksini kağızda tapır.
Ürək, sinəsinin üstə,
Qəmə köklənərək çapır.

Ürəyindən keçənləri,
Qapamağa tək özü var.
Özünə qapalı adam,
Bu adamın cüt gözü var.

Bir gözə yük düşməyəcək,
Gözə yaşı qoşa göndər.
Adamlardan qaçan adam,
Kədərini yaşa göndər.

2 aprel, 2009.

***

Yenə bir əl uzanıb,
Həmin bu əli sıxıb,
Yenə barışmalıyıq…
Növbəti hədiyyəni
yenə qəbul edərək
milyonlar sırasına
yenə qarışmalıyıq…

2 aprel, 2009.

***

Hamı dua edir,
Sən də dua et.
Elə dua et ki,
Nəfəsin gəlib-getsin.
Elə dua et ki,
Allah eşitsin.

2 aprel, 2009.

***

Atım özümü qapıdan bayıra,
Bu evin təhlükəsi var.
Bilmirəm nə məsələdi,
Deyəsən üstümə gəlir divarlar.

2 aprel, 2009.

***

Qucaqla məni, bağrına bas.
Qollarının arasında
sıxılım.
Yad bir məkana
yıxılmaqdansa,
Təki, sənin qucağına
yıxılım.

2 aprel, 2009.

***

Gözlərimdən oxuya bilmirsən
ürəyimdən keçənləri?
Ağ kağıza yazım - deyirsən?
Yazmağa nə var, yazım.
Oxu.
Amma, o ağ kağıza düşən
hərflərin arasında,
Duyğuların izini görəcəksən,
Üzümü görməyəcəksən.

2 aprel, 2009.

***

Şəhər duman içində,
Evlər yarıyuxulu.
Adamları da yatıb.
Bu dumandan keçmək olar
görəsən?
Sən necəsən?
Bu yuxulu, bu dumanlı şəhərdə,
Bu oyaq adamı
görə biləcəksən?

2 aprel, 2009.

***

Havam çalınır hardasa,
Bu havadan havalanıram.
Havasız qalan bu otaqda,
Nəfəsim gedib-gələnə qədər
yırğalanıram.

2 aprel, 2009.

***

Sükutu pozmaq istəmirsən?
Pozanda nə olacaq?
Guya ki, nəsə doğulacaq?
Yuxuya verdiyini,
Onsuz da
sükut - pozacaq.

2 aprel, 2009.

***

Sən xəstəsən?
Görəsən hər şey verərlər
sən istəsən?
Burda ancaq xəstəyə
əl tutanlar var.
Adam, xəstə olmayınca,
Görmür ki, bu adamlar.

2 aprel, 2009.

***

Bu bəladan qopa bilsəm,
Qaçıb geri dönmərəm heç.
Məni görməməzliyə vur,
Sus, eləcə yanımdan keç.

Bədbinliyim keçicidi,
Əhvalını poza bilər.
Mənə əlini uzatsan,
Hərə bir cür yoza bilər.

Bu bədən daşdan olsa da,
Qəzadan söküləcək, bax.
Köməyə çata bilməzsən,
Heç olmasa etmə günah.

Çiynimə yüklənən dərdi,
Bir ömürdü daşıyıram.
Adamlar görməsin deyə,
Gizlənərək yaşayıram.

Nəfəs tıxanıb boğazda,
Dilim bağlanıb ağızda.
Nəyim varsa, ağ kağızda,
Qəm nə görüb mən yalqızda.

Şax gəzən bu vücudumu,
Yüklənərək məni əymə.
Öldürməyə kimsə yoxsa,
Məni al, balama dəymə.

13 may, 2009.

***

Səni sən edən mənəm,
Ruh daşıyan bədənəm,
Gəldim, bir gün gedənəm,
Mənsiz qalmağa alış.

Sarı sim qəlbin teli,
Sevgi dünyanın seli,
Yalqızlıq, yetim əli,
Onu tutmağa çalış.

Ayrılıq yoxdu demə,
Qucaq aç gələn qəmə,
İnanmayıb heç kimə,
Bəsdi savaşdın, barış.

Gözlərim yol çəkəndi,
Yolda dumandı, çəndi,
Artıq səbrim tükəndi,
Mən susdum, indi danış.

17 iyun, 2009.

***

Beynində duman var, duman azdırır,
Ürək öz əlinlə hökm yazdırır,
Seçdiyin yol sənə qəbir qazdırır,
Nə qədər gec deyil, dumandan keç, dön.

Ayağı bu yerdən üzmək istəmə,
Bu gözəl dünyadan küsmək istəmə,
Sərgərdan olaraq gəzmək istəmə,
Allahın yazdığı düz yolu seç, dön.

Yalanın içində itib-batmısan,
Hamı oyaq ikən niyə yatmısan?
Yenə uçuruma gəlib çatmısan,
Həyat şərbətindən bir qurtum iç, dön.

Bu canı sınağa çəkmək çox oldu,
İblisin əliylə dəyən ox oldu,
Yenə də üzünün nuru yox oldu,
Cəhənnəm içindən cənnətə köç, dön.

20 iyun, 2009.

***

Kasa dolubsa, bir damla götürməz,
Xoşbəxtliyi əcəl gəlib gətirməz,
Nə var olan, nə yox olan itirməz,
Fani dünya bu məqamı gözləyər.

Yuxu səni ala bilər özündən,
Tutacaqlar hər nə desən sözündən,
İtəcəkdir doğru yolun gözündən,
Fani dünya bu məqamı gözləyər.

20 iyun, 2009.

***

Ayağın altında torpaq,
Başının üstündə göy üzü.
İki əlinlə hardan tutarsan
yıxılsan?
Bədənini torpaq çəkir,
Ruhunusa göy üzü.
İndi aşağıdan yuxarı baxan
gözlərlə,
O dünyada yuxarıdan aşağıya
baxacaqsan.
Ayağın altda olsa da bu torpaq,
Sonunda səni o qucaqlayacaq.
Balaca bədənin, ölümünlə böyüyəcək,
Yerlə göyü birləşdirəcək.
Ölümdən qorxma.
Uzağa getmirəm ki.
Məni öpmək istəsən,
Ayağın dəyən torpaqdan öpərsən.
Başının üstündə duran göy üzünü,
İndi lap çox sevərsən.

22 iyun, 2009.

***

Xırıltılı bir səs,
Ağır gələn bir nəfəs.
Üzdə oxunmayan söz,
Qapını bağlayan göz.
Ürəkdən qopan ağı,
Payızın son yarpağı.
Bir adamın gedişi,
Əcəlin xoş vərdişi.
Torpaq üstə başdaşı,
Tükənməyən göz yaşı.
Şəkildə qalan ömür,
Xoş xatirəylə dönür.
Dünyanın sonu demə,
Dözümlü ol, qəm yemə.
Burdan da keçməliyik,
Ora da köçməliyik.
Yuxarıdan aşağı,
Aşağıdan yuxarı.

22 iyun, 2009.

***

Bütün ömrünü yaşayıb bir anda,
Nə demək olar sonda.
Bax onda,
Külək kimi yeri-göyü sovurub,
Ürəklərdən, nəfəslərdən,
Gözlərdən keçərək,
Əlini yelləyərək,
Bir söz qopur dilindən,
Eşidilmədən.
Əlvida!

22 iyun, 2009.

***

Dərdi qucaqlayıb durmuşam yenə,
Bu qəm otağımın qapısı da yox.
Heç kim əl uzada bilmir ki, mənə,
Bura yaxın gəlmə, bu halımdan qorx.

Daşına bilməyən yük çiynimdədi,
Bundan da ağırı varmı görəsən?
Yağmurdan islanan don əynimdədi,
Mənə bax, öləni görmək istəsən.

Dərdimin üzünü sığallayıram,
Bəlkə bir anlığa yuxuya gedə.
Qollarıma alıb yırğalayıram,
Qəminə dözərəm, zülmü tərgidə.

Ovutmaq istəyir gəlib-gedənim,
Mən öz ürəyimə heyran olmuşam.
Yerlə, göylə üsyan edən - bədənim,
Ruhumla kədərə qurban olmuşam.

24 iyul, 2009.

***

Bir sevgi istəyirəm mən,
Ağlımı başımdan alsın.
Məni özümdən qoparsın,
Əlimdən tutub aparsın.

Elə bir sevgi olsun ki,
Unudum vaxtı, zamanı.
Dəyişik düşsün fəsillər,
Gözümdə sevgi dumanı.

Bu sevginin təsirindən,
Bilməyim yaşım neçədir.
Xoşbəxtlikdən bihuş olum,
Elə bilim ki, gecədir.

Bu sevginin qollarında,
Rəqs edim səhərə qədər.
Bir sevgi istəyirəm mən,
Görə bilməsin qəm, kədər.

Kaş sevgidən sərxoş olaq,
Hardan gəlmişik unudaq.
Əlçatmayan duyğulardan,
Sevgi qalası yaradaq.

Nə yer bilsin, nə göy bilsin,
Bu sevginin ünvanını.
Biz ikimiz birləşərək,
Kəşf edək eşq insanını.

13 sentyabr, 2009.

***

Hər şey ağrıdan doğur,
Sən də, mən də,
Sevinc də, qəm də,
Hətta bu aləm də.
Ağrının gözlərini
görə bilsəydim,
Öpərdim.
Gözə görünməyən canıyla,
Nələrə qadir imiş.
Hətta indi, bu anda,
Ürəyimi yandıran da,
Həmin o ağrı imiş.

23 yanvar, 2010.

***

Bir quş qonub eyvanıma,
Sanki bir xəbər gətirib.
Kimsə göndərib yanıma,
Yolda xəbəri itirib.

Muncuq kimi gözlərini,
Fırladaraq parıldadır.
Gəlib tapıbdı yerimi,
Yalandan başımı qatır.

Bu quş xəbərin elçisi,
Məzmununu bilməsəm də.
İçimdə bir quş sevgisi
yarandı, gözləməsəm də.

Qəribədir, uçub getdi,
Ümid duyğusu yarandı.
Nədənsə xəbər gətirdi,
Gözləməsi mənə qaldı.

Hər gün onu gözləyirəm,
Eyvanıma gəlib qona.
Təzə xəbəri, deyirəm,
Gəlsin, mən söyləyim ona.

23 yanvar, 2010.

***

Qardaşım Qoşqara ithaf

Bir adam yığışıb getdi,
Qulaqdan səsi çəkildi.
Üzümə sığal çəkərək,
Qəfil nəfəsi çəkildi.

Ürəyimdə ağı səsi,
Gözlərimdə yaş oynadı.
Fələyin bu nəğməsinə,
Bu dəfə qardaş oynadı.

Ayaqları bu ocaqdan,
Ruhu öz canından qaçdı.
Tutub saxlaya bilmədim,
Yüyürüb yanımdan qaçdı.

Ürəyinin son zərbəsi,
Vuraraq bəmdə tükəndi.
Ruhu ilə can savaşı,
Bitərək qəmdə tükəndi.

28 mart, 2010.

***

Qoşqara ithaf

Qara bulud hasar çəkib,
Günəşi çıxmağa qoymur.
Gözlərim qamaşar deyə,
Bəlkə də baxmağa qoymur.

Nə bu yerə xeyri dəyir,
Nə də ki, göyün üzünə.
Böyük qara ləkə kimi,
Yapışıb göyün gözünə.

Sıx özünü bir balaca,
Bəsdi göydə durub qaldın.
Bəlkə də yerin dərdini,
Öz içinə vurub qaldın.

Yağışa dön, yağ bu yerə,
Qara bəxtini yu apar.
Bu havadan toz-dumanı,
Gölməçədən suyu apar.

Qara bulud, qəlbini aç,
Sən də bu dənizə qoşul.
Bizimtək dərdin böyükdü,
Sən də ağla, bizə qoşul.

29 mart, 2010.

***

Qoşqara ithaf

Hardansa bir kəndir sallanıb yerə,
Sənin qismətindi, qalx yavaş-yavaş.
Saatdan ataraq dəqiqələri,
Bircə saniyəyə yükləndin, qardaş.

Çəkisi ağırdı qəm havasının,
Əlini sıxmağa əlim gəlmir heç.
Bu son səfərində dua edərək,
Yaxşı yol, deməyə dilim gəlmir heç.

Nigaran qalaraq əzizlərindən,
Gəlibdi yanına balan - deyərsən.
Qardaş, mən yubandım, mənim yerimə,
Atama, anama salam deyərsən.

29 mart, 2010.

***

Bir ovuc odum qalıbdı,
Ürəyimin içində,
Ürəyim odun içində.
Yaxşısını sən apar,
Yandır evində,
Bir işə gərək olar.
Pisini mən söndürürəm birtəhər…
Bu yatan şəhərdə indi
Bir oyaq adam varmı?
Tutaq ki, axtarıb tapdım adamı,
Mənə kömək olarmı?
Yanan ürəyimə çiləməyə,
Bir ovuc su taparmı?

25 iyul, 2010.

***

Bu közün tüstüsü göz qamaşdırar,
Bu köz oda dönər, məni yandırar.
Başımı götürüm gedim dənizə,
Boğulmasam, su çilənməz bu közə.

25 iyul, 2010.

***

Bir əlimə bir ovuc torpaq keçə,
Bir əlimə, gecə Ayın işığı.
Biri mənim gözlərimə səpilə,
O birisi, ruhumu göyə çəkə…

25 iyul, 2010.

***

Bu gələn, zormu gəlir?
Gözümə, tormu gəlir?
Bu dünya, darmı gəlir?
Yaxam kimin əlində?

Ürəyim, sözmü deyir?
Alışan, közmü - deyir?
Bu dünya, dözmü deyir?
Yaxam kimin əlində?

Ayağım əl istəyir,
Gözlərim dil istəyir,
Nəfəsim yel istəyir,
Yaxam kimin əlində?

Səsimə səsmi verir?
Qərarı tərsmi verir?
Yaşamaq əzmi verir,
Yaxam kimin əlində?

Sükutu pozma - dedim,
Ruhuma, azma - dedim.
Qəbrimi qazma - dedim,
Yaxam kimin əlində.

25 iyul, 2010.

***

Bu gecənin köynəyi də qaradı,
Düymələri ulduzdan.
Bu gecənin gözləri də qaradı,
Ağararmı yuxudan?

Yırğalayır qucağında şəhəri,
Yatmayan qalmamalı.
Bu gecənin çox uzundu əlləri,
Bu gecə ağlamalı.

Gözlərimin yaşını o görəcək,
Bu şəhər yatsa belə.
Bəlkə də məni gecə öldürəcək,
Səhərə çatsa belə.

Yatağımı tapşırıram gecəyə,
Yıxılıb yatsın özü.
Bu gecədən qaçacağam küçəyə,
Yuxuda batsın özü.

Bu gecənin sükutunu sevmədim,
Dünyanın sonu kimi.
Bu gecəni cırıb atmaq istədim,
Son matəm donu kimi.

25 iyul, 2010.

***

Tapa bilmədim tapmaq istədiyimi.
Adı nə idi?
Adını unutdum.
Amma səsindən tutdum.
Gözümə dəyib yox oldu içimdə,
Səsi qaldı əlimdə.
Rəngini tapa bilmədim dilimdə.
Nəfəsindən keçib getdim yuxarı,
Tapmaq istədim köhnə yuxuları.
Orda biri adını yadıma salar,
Orda kimsə tapmaq istədiyim olar…
Qorxuram ki, tapıb bura gətirərəm,
Tapdığımı tapıb, bir də itirərəm.

25 iyul, 2010.

***

Səsim kökdən düşüb bu gün deyəsən,
Öz yerində dayanmağı unudub.
Bəlkə gəlib bir az onu sevəsən,
Ləngər vurub, oynamağı unudub.

Səhər tezdən çıxmaq bilmir boğazdan,
Yeri rahat, yatıb qalıb sinəmdə.
Nəfəs alır yavaş-yavaş ağızdan,
Sığal çəkib ovudardım əlimdə.

Gəl kökləyək səsimizi birlikdə,
Səsimizə səs verənlər tapılar.
Səsin gücü eşidilmir təklikdə,
Səsimizlə açılacaq qapılar.

25 iyul, 2010.

***

Yaz, yaz, yaz, yaz…
Nə yazım, axı bilmirəm.
Bilmirəm ki, yazdığım bu yazı
kimə çatacaq.
Bəlkə kimsə oxumadan onu
cırıb atacaq.

Yaz, yaz, yaz, yaz…
Ürəyim doludur, əlim də şikəst,
Kağız da götürmür yazacağımı.
Kimsə kiməsə edir qəsd,
Bəlkə yazacağam pozacağımı.

Yaz, yaz, yaz, yaz…
Elə bil bir ox işləyib beynimə,
İlişib qalıb fikrimin qəlbinə.
Nə geyinim əynimə?
Hava necədir yenə?

Yaz, yaz, yaz, yaz…
Deyəsən axı yaz gəlib,
Yazdan keçib hara çatım?
Söykəndiyim o divara,
Hamıdan gizləndiyim,
O yuxulara çatım?
Çatım, elə orda yatım.

Yaz, yaz, yaz, yaz…
Qulağımın dibində
bir nəfəs pıçıldayır.
Deyir - bu yaz
adam doğulmaz...
Ölmək istəyənə yer verin
bir az.

Yaz, yaz, yaz, yaz…
Azıram deyəsən yazın küncündə,
Yaza bilmədiklərimin içində.
Azıb nəsə qazıram
dişimlə, dırnağımla.
Bir az yaza hazıram.

Yaz, yaz, yaz, yaz…
Yaza çıxan bir yazı
masası var.
Üstündə də yazdıqlarım yazılar.

Yaz, yaz, yaz, yaz…
Bu yazını çox yozdum,
Bir söz vardı ki, pozdum.
Özümü yazmadığım,
Həmin o sözdən asdım.
Yas, yas, yas, yas…

31 iyul, 2010.

***

Yağışın həsrət çəkən
gözləri var deyəsən.
Yerə ürək açır ki,
Sən də onu sevəsən.

Buludun ürəyindən
qopub gözünü sıxır.
Göydən yaxa qurtarıb,
O, azadlığa çıxır.

Hamı göyə üz tutur,
Onun məqsədi yağmaq.
İstəyi yerə dönmək,
Yerdən göylərə baxmaq.

Qonaq gələn yağmura,
Hərə bir ad qoyacaq.
O dənizə qovuşub,
Yer üzündən doyacaq.

Pəncərədən boylanıb,
Yağış yağır - desinlər.
Göy yerə qonaq gəlib,
Görüşünə gəlsinlər.

Yağaraq bu şəhərə,
Sellərdə boğulacaq.
Göyün bətninə düşüb,
Yenidən doğulacaq.

6 oktyabr, 2010.

***

Gəl yenidən tanış olaq,
Mənim təzə adım var.
Sənin adını bilirəm,
Bilsəm guya nə olar.
Əsil adım - Adamdı.
Sənin də adın - Adam.
Madam ki, hər ikimiz
eyni ad daşıyırıq,
Səni məndən ayırıb
necə çağıracaqlar?
Bizə ad qoyacaqlar.
Məhbusların zindanda
nömrələndiyi kimi,
Bu yerdə gəzənləri

hərflərə bağlayıb,
Beləcə bir-birindən
adla ayıracaqlar.
Adlarımız ayrıdı.
Amma kökümüz birdi.
Allah bizi yaratdı,
Adam - adını verdi.
Adama oxşamasaq,
Başqa canlılar da var.
Allah verdiyi addan,
Yıxılmasın adamlar.
Mənim adım Adamdı.
Adın nədi, de görək?
…Təzə adın mübarək…

6 oktyabr, 2010.

***

Danışan var, səsi qəribə gəlir,
Səsi özündən böyükdü,
Özü səsindən asılıb.
Səsi fırtına yaradır,
Səsi - əlində oynadır.
Öz səsinin arxasıyca sürünərək,
Yıxmadığı adam, ocaq qalmayacaq.
Səsinə güc vermə, Adam.
Vücuduna yaraşmayan
bu səs, bir gün bata bilər.
Səsin də səndən yorulub,
Varlığını soyunaraq,
Səni bir gün ata bilər.

6 oktyabr, 2010.

***

Hardan çıxmaq istəyirsən?
Qapıdan, pəncərədən?
Yoxsa ki, bacadan?
Bir haray çək ucadan.
Nəfəsin çıxa bilsə
öz sinəsindən,
Sən də əl çəkəcəksən
bu həvəsindən.

6 oktyabr, 2010.

***

Günəş batdı deyəsən,
Hamı yatdı deyəsən,
Gün gecəyə təslim oldu,
Vaxtı çatdı deyəsən.

Heç kim səni eşitmir,
Duyğular sona yetmir,
Ay üzünə baxsa da,
Fikirdən azad etmir.

Balışını qucaqla,
Çalış gözünü bağla.
Qaranlıqdan tez ol qaç,
Dözə bilməsən, ağla.

Səssizliyə nəfəs ver,
Vuran ürəyə səs ver.
Bu gecəylə vidalaş,
Sabahına qəfəs ver.

Günəş yenə doğacaq,
Yatanlar oyanacaq.
Sən də qoşul adamlara,
Bu gecədən çıx ancaq.

7 oktyabr, 2010.

***

Nə geyinim ki, qəribə görünməyim?
Bəlkə saçımı boyayım,
Bəlkə başımı bağlayım,
Əllərimi qapayım?
Gözlərimə eynək taxım?
Hisslərimi gizlədim?
Baxışlarım kobudlaşıb,
Üzüm artıq qırışıb.
Yaşımın beli bükülür,
Əllinin üstünə gələn rəqəmlərdən.
Ürəyim də sözə baxmır ki, hərdən.
Nə geyinim ki, gizlədim, ağlımın bədənini?
Bu ruhum da, bu canımın qənimi.
Neyləsəm də çoxlarına
əcaib görünəcəm
onsuz da.
Məni belə sevməyənlər,
Heç elə də sevməyəcək
onsuz da.
7 oktyabr, 2010.

***

Barmağına üzük tax,
Sonra üzüyünə bax.
Səncə hansı gözəldir?
Üzük, yoxsa barmağın?
Yoxsa nişanlı olmağın?
Bu da bir işarədi,
Nəyəsə nişanədi.
Halqa barmaqda olsun,
Özün düşmə çevrəyə.
Dairədə fırlanıb,
Vuracaqsan dövriyyə.
Çıxa bilmək də olmur,
Bu məkanın içindən,
Asılıdır seçimdən.
Özün öz əllərinlə,
Barmağına halqa tax,
Biləyinə də qolbağ.
Amma öz əllərinlə,
Dairəyə düşmə, bax.
Çevrə çəkib aparar,
Uçurumun dibinə.
Nişan üzüyü səni,
Aparacaq kəbinə.
Bu üzük barmağına
yaraşıq versin sənin.
Nişan edib seçdiyin,
Ömürlük sevsin səni.
Dairədən ailə,
Sevgidən çevrə yarat.
Toyunda yallı gedək,
Ətrafda dövrə yarat.

8 oktyabr, 2010.

***

Ürəyində bir arzu tut,
Dilində dua kimi.
Bu arzu səni aparsın
bir gülərüz qapıya.
Bu dua səni çatdırsın
Tanrıya.

8 oktyabr, 2010.

***

Mənim də gözlərim var,
Səninki də,
Onunku da.
Hər birimiz gözümüzü
bir nöqtəyə tuşlayaq.
İçimizə ata bilsək
gördüyümüz nöqtəni,
Nöqtə sevəcək səni.
Eşidək o gözlərin
susan haray səsini.
Birlikdə alqışlayaq,
O gözlərin seçdiyi,
Ən böyük nöqtəsini.

8 oktyabr, 2010.

***

Danışımmı alnıma düşən
o qırışın hekayətini?
Yarım əsr yol gələrək
üzümə köç edibdi.
Qələminə güc verərək
cızığını çəkibdi.
Portretimi çəkən olsa,
Bir saniyəlik işdi.
Rəssam üçün vərdişdi.
Yazıçı üçün isə
böyük bir roman olar.
Susarlar oxuyanlar.
Neçə ildi daşıyıram
o qırışı alnımda,
O qırışın sahibi var
yanımda…
Əli ilə o cizgini
indi pozmaq istəyir.
Məni gülüşə qərq edib
üzümə sevincdən doğan,
Öz təzə hekayəsini
yenidən yazmaq istəyir.

9 oktyabr, 2010.

***

Məni axtarıb-axtarıb,
Tapa bilməsin heç kim.
Yağış yuyan izlər kimi,
Mən də qeybə çəkilim.

Dumana düşüb eləcə,
Gözəgörünməz olum.
Hamının yadından çıxım,
Yeri bilinməz olum.

Yiyəsiz bir varlıq kimi,
Hardasa gecələyim.
Küncə sıxılan ruhumu,
Ulduzlara bələyim.

Mən də özümü tapmayım,
Unudum kimliyimi.
Yaddaşımı da itirim,
Dəli adamlar kimi.

Kiçilib gizlənə bilim,
Bir quşun yuvasında.
Mənə də quşun anası,
Yem gətirsin ağzında.

Divarlardan, yuvalardan,
Azad olub uçum mən.
Lap elə özümdən uzaq,
Bir məkana köçüm mən.

Uçuşuma heyran olsun,
Bu sahibsiz səmalar.
Köç eləyim quşlar kimi,
Qoy tapmasın adamlar.

9 oktyabr, 2010.

***

Bu sancı kürəyimdən,
Dost kimi ayrılıb gedə.
Bu ağrı ürəyimdən,
Xəncərtək sıyrılıb gedə.

Bir qapı açılıb ki,
Bağlamağa güc istəyir.
Üstümə bir toz qonub,
Daşımağa köç istəyir.

Bir ox sinəmdən qopdu,
Bir damla qanım çıxmadı.
Başım daşa çırpıldı,
Nə əcəb canım çıxmadı.

9 oktyabr, 2010.

***

Ovçuların əlində,
Ürək qarmağa keçdi.
Arxamı söykəyirdim,
Bədən çarmıxa keçdi.

Baxıb bu vəziyyətə,
Alqışladı adamlar.
Bir ilan da sarıldı,
Sıxdı məni o ki, var.

Ağrıların gücündən,
Üzüm yüz rəngə çaldı.
Boğulan son nəfəsim,
Boğazda azıb qaldı.

Bağırtıma ayıldım,
Yuxu imiş sən demə.
Allah belə yuxunu,
Göstərməsin heç kimə.

9 oktyabr, 2010.

***

Bu ölənin üzündə, dünyaya yeni doğulan
bir körpə məsumluğu var.
Səssizliyində isə,
O uşağın çığırtısı.
Bu adam doğulurdumu?
Yoxsa ölürdü?
Elə bil ki, gülürdü.
Ruhu bu cansız bədəni
atmaq çırpıntısında.
Üzündə dilə gəlməyən
hisslərin etirafıyla,
O uşağa çatmaq aldanışında.
O səsi bu nəfəsə bələyib
beşikdə yırğalayacaqlar.
Bu ölən adamın,
Çocuq çığırtısını andıran
gözünü bağlayıb,

Üzünü qapayacaqlar.
O uşağın körpə səsi, ömür boyu
içimizdə böyüyəcək,
Budaq kimi, yarpaq kimi.
Öz yaşına çatanadək böyüyəcək.
Əlimizdən vida sovqatı çıxacaq,
Üzünə səpilə bilən,
Bircə ovuc torpaq kimi.
Ölən adam, bir ağaca sahib olan
torpaq olub, özbaşına böyüyəcək,
Öz yaşını böyüdəcək.

10 oktyabr, 2010.

***
Nəvəm Nuraya

Bir uşaq gəldi dünyaya,
Kiminsə qanından qopdu.
Gəlişinə ağlayaraq,
Doğmanın canından qopdu.

Yarı bədən, yarı ruhu,
Öz canında daşıdı o.
Bunun özü də xoşbəxtlik,
Ayrılığı yaşadı o.

Səsinə güc yükləyərək,
Bağırdı səslər içində.
Nəzərlərdən uzaq idi,
Qarışdı gözlər içində.

Hamı baxıb vücuduna,
Onun kimliyini seçdi.
Kimisi əl-ayağını,
Kimlərsə boyunu ölçdü.

Elə bil bütün ömrünün,
Sınağına tuş gəldi o.
Onu həsrətlə gözləyən,
Bir ocağa xoş gəldi o.

Səsin səslərdən seçilsin,
Bu dünyaya gələn körpə.
Ömrümün gözəl payısan,
Üzümüzə gülən körpə.

Hamı səni qucaqladı,
İndi sən məni qucaqla.
Körpə əllərinlə məni,
Yenidən həyata bağla.

24 oktyabr, 2010.

***

Nəvəm Nurayın ad gününə

Doğum günün mübarək,
Ay mənim Nuray balam.
Dünyamın var-dövləti,
Sevgi dolu bir qalam.

Gəlişinlə ömrümə,
Yeni nəfəs gətirdin.
Hər açılan səhərə,
Təzə həvəs gətirdin.

Ən gözəl bəzəyimsən,
Ən böyük mükafatım.
Nənə oldum səninlə,
Cana gəldi həyatım.

Qızımın qız balası,
Sən mənim ilk nübarım.
Səni xoşbəxt olasan,
Ay mənim ilk baharım.

Gözlərin dənizimdi,
Nəfəsin ömür payım.
Mənim canım, bir dənəm,
Başıma tac, Nurayım.

O gün olsun toyunda,
Üzündən öpə bilim.
Sığal çəkib, telinə,
Çiçəklər səpə bilim.

Bu şerimi səninçün,
Yazmışam, yadigardı.
Öz balana deyərsən,
Bir Xanım nənəm vardı.

24 oktyabr, 2010.

***

Nurayıma

Göydə bir şimşək çaxdı,
Səsi qulağa gəldi.
Ürəkdən duyğu qopdu,
Axıb dodağa gəldi.

Bu hisslər üz-gözümü,
Öpüşlərə qərq etdi.
Balaca ovucunda,
Sehir yarada bildi.

Özü bir möcüzədir,
Bircə nəfəsi cənnət.
Allah, sən özün qoru,
Necə gözəldi, heyrət.

Dilindən çıxan hər söz,
Qəlbimə bir məlhəmdi.
Tanrı göydən göndərib,
Bu mənim öz nəvəmdi.

Barmaqları dəyən yer,
Gülüstana çevrilir.
Elə bildim ölmüşəm,
Ölü necə dirilir?

Səhərimə günəşdi,
Gecəmə doğan bir Ay.
Evimdə işıq yandı,
Adını qoyduq Nuray.

Hər gün bir addım, bir boy,
Bu işıq böyüyəcək.
Özünün nur payını,
Bir dünya böyüdəcək.

24 oktyabr, 2010.

***

Bir kasaya su tökdüm, tutduğu qədər,
Son damlanı saxladım,  getməsin hədər.
Bu son damla bəlkə də yanğına möhtac,
Söndürməyə özündə böyük ehtiyac.

Suya baxdım, üz-gözüm əyildi birdən,
Bir dəniz su axtardım durduğum yerdən.
O bir damla daşacaq kasadan bəlkə,
Mənim içim alışıb-yanan bir ölkə.

Bu ölkənin yanğını damladan sönməz,
Bu atəşin tüstüsü gözə görünməz.
Bir kasa su mənimçün kiçik ehtiyat,
Susuzluqdan yanançun böyük bir həyat.

Bu suyu əvvəl-axır kimsə içəcək,
Kasanın içindən yenə su bitəcək.
Bir dəniz su içindən quru çıxan var,
Bu kasanın içində bir boğulan var.

30 dekabr, 2010.

***

Bir duyğu düşüb cücərir,
Böyüyüb özü olacaq.
Sonra yaddaşıma köçüb,
Ruhumun gözü olacaq.

Məni qucağına alıb,
Körpə kimi yırğalayır.
Qayğıdan azad eləyib,
Yaralarımı bağlayır.

Bu duyğunun səsi gəlir,
Necə gözəl avazı var.
Qanadları olmasa da,
Ürəyimdə pərvazı var.

Yeddi rəngi birləşdirən,
Duyğuları bölüşürəm.
Sevdiklərim yanımdadı,
Yeni illə görüşürəm.

1 yanvar, 2011.

***

Yenə həmin yük gəlir,
Çəkib aparmalıyam.
Tutmağa dəstəsi yox,
Açmağa da cəftəsi.
Bu da bir yük həftəsi.

Yükümə günlər uzunu
bağlı bir libas biçdim,
Geyindirdim, keçindirdim.
Gözəl görünsün deyə,
Qaldırdım yüksəkliyə.
Çəkisi ağır olsa da,
O da yüklükdən çıxsın.
Olsun böyük hədiyyə.

Yüküm həminki yükdü,
Çiynimə yüküm çökdü.
Mənim bu yük hədiyyəm,
Allah, necə böyükdü.

29 yanvar, 2011.

***

Qara buluddan asılıb qalmışam,
Guya ki, göylərdəyəm.
Yağmasını gözləyirəm ki, yerə düşəm,
Adamlarla ayaq üstə görüşəm.

29 yanvar, 2011.

***

Ələdilər, əl3dilər, əl4dilər,
Yenə qaldıq ələyin üst qatında.
Alt qatına düşənləri,
Götürüb apardılar.
Yeməklərə qatdılar.
Gözə böyük dəyənləri,
Bir kənara atdılar.

29 yanvar, 2011.

***

Sərsərilər, divanələr,
Daha nələr, daha nələr.
Hər tərəfdə meyxanələr,
Kor bədənlər, bağlı əllər.
Ağlı itirən dəlilər,
Onu tapan ağıllılar.
Ünvanı cəhənnəm olan,
Həm haqsızlar, həm haqlılar.
Hamının öz nəfəsi var.
Ölü, diri, ya yarımcan olsa da,
Yerə düşən hər nə varsa,
Ağrıyırsa,
Bu ağrının öz
səsi var.
Eşitsin doğulmayanlar.

29 yanvar, 2011.

***

Böyük, yağlı tikə kimi,
Sən ey boğazda qalan.
Udulmaq istəyirsənsə xırdalan.
Əzilən hər nə varsa,
Dişlərin arasında,
Odu rahat udulan.

29 yanvar, 2011.

***

Qara gözlər, qara gecə, qara libas,
Bir də sənə dost olacaq,
Adam ağacı.
Özünü as.
Qurtar qaranlığın dəlilik
havasından,
Asıl bu ağacın yaxasından.

29 yanvar, 2011.

***

Dərdim, çılpaq qollarıyla,
Qəfil boynuma sarıldı.
Nədənsə boynum sınmadı,
Amma ki, belim qırıldı.

Həmişə baxan gözlərim,
Səndən su içmək istədi.
Özündən sürgün edilib,
Bəxtindən köçmək istədi.

Boğazımdan çıxan səsim,
İlişib düyün bağladı.
Qapımı açıb gedirdim,
Yenə də Allah saxladı.

28 aprel, 2011.

***

Ürəyimə damıbdı,
Mənə düşmən kəsilən,
Bu xəncər sıyrılacaq,
Yeni bir iz salacaq.
Ürəyimə damıbdı,
Üstünə qum tökərək
yenicə basdırdığım
əcaib - diriləcək.
Ürəyimə damıbdı,
Yaxamdan əl çəkməyən
bəxtimin şikəst payı,
Ölüncə izləyəcək.
Ürəyimə damıbdı,

Göyə yıxılan dağdan,
Yenə yağış yağacaq,
Ürəyimə damacaq.
Ürəyimə damıbdı,
Bu dəfə də yıxılsam,
Allahın ətəyinə
əlim də çatmayacaq.
Ürəyimə damıbdı,
Nə qədər ki, oyağam,
Məndən də oyaq olan
damlalar yatmayacaq.
Ürəyimə dammışdı,
Ürəyimə damanlar…

7 iyun, 2011.

***

Sən mənə dəydin yenə,
Dəyən daş olaydı kaş.
Fikirlərdə boğulan,
Başımı yaraydı kaş.

Neçə illər udduğum,
Qanıma boyanım mən.
Azıb anamı tapım,
Qoynunda oyanım mən.

Yuvasından köç edən,
Uçan quş ola ruhum.
Öpərək əllərimdən,
İndi gözlərimi yum.

Ruhuma dar biçilən,
Əynim üstümdə gedim.
Mən də kor mələk kimi,
Çiynin üstündə gedim.

7 iyun, 2011.

***

Dostum Afaq Məsuda

Düz deyirsən.
Nə özümü dəyişməyə,
Nə də böyük bir əsərin,
Kiçik görüntüsü olan
bu üzümü dəyişməyə,
Gücüm çatmaz.
Düz deyirsən.
Heyf, bizdən doğulanlar,
Bədənimizdən qopsa da,
Qanımızı içsə belə,
Kökümüzdən keçsə belə,
Dostun olmaz.
Düz deyirsən.
Mən bu Ayın qohumuyam.
Hardasa cücərə bilən,
Bu torpağa az-az düşən,
Bir varlığın toxumuyam.
Düz deyirsən.
Göydən söz tutan adamın,
Əlləri havada olar.
Böyük məkanlardan qaçan
ruhumuz yuvada olar.
Düz deyirsən.
İçimdən sürətlə keçən
zaman yıxılsa da belə,
Dərdinə şərik olduğum,
Qurduğum kiçik qalanı,
Vurub dağıtsa da belə,
Ayaq üstə durmalıyam.
Düz deyirsən.
Hay-küydən tutulan qulaq,
Deyəsən səni eşidir.
Mənimçün dost doğulanım,
Yaxşı ki, məni eşidir.

23 iyul, 2011.

***

Görmək istəyirdim gözümə girəni.
Xırıltılı səsi,
Qan çəkmiş gözləri,
Əyilən qaməti,
Yorğun yerişini bu günə gətirib
çatdıran
o məsum körpəni gördüm.
Öz ömrünü yıxa-yıxa gələni,
Gözlərimə baxa-baxa öləni gördüm.
Çox sevərdim o körpəni,
O körpəni çox sevərdim.

4 sentyabr, 2011.

***

Gəl oturaq üz-üzə,
Etiraf edək.
Açaq boynumuzda sıxılan
düyünləri.
Soyunduraq ruhumuza əyri biçilən
geyimləri.
Azad olaq günahlardan.
İşıq tutaq gözlərimizə…
Allah kömək olar bizə…

4 sentyabr, 2011.

***

Bu həyəcandan sonra
yəqin sükut qopacaq.
O fırtınanın yaxasından
qopan bu sükutun
nə deyəcəyini gözlə.
O iztirabdan doğan bu sükut,
Hansı hissi doğacaq.
Sükutun əlində dirijorun
çubuqları,
Diqqətində saxlayıb
duyğuları.
Hərəkətə gələn kimi
çubuqlar,
Bir-birinə dəyəcəkdir
adamlar.
Bu sükutda doğulanlar,
Bu sükutu çığırtıyla pozanlardır,
Adamlar!

4 sentyabr, 2011.

***

Yenidən ana olmağa
gec qalmışam.
Deyəsən qocalmışam.
Beşik almağa pul yox,
Düzəltməyə də qul yox.
Necə doğa bilərəm?
Sadəcə bu arzumu,
Tutub, boğa bilərəm.

5 sentyabr, 2011.

***

Bir yumaq sürüşüb çıxdı əlimdən,
Saplar dolaşıq düşdü.
Bir ağrı yapışıb tutdu belimdən,
Hisslər qarışıq düşdü.

O yumağa illərim dolanmışdı,
Yenidən yığmalıyam?
Bu ağrı da bu günümə qalmışdı,
Sözünə baxmalıyam.

Pişik gəldi, oynadı bu yumaqla,
Onu dağıdıb qaçdı.
Hikkəsini dağıdaraq, caynaqla,
Yeni düyünlər açdı.

Bir əlim belimə sığal çəkərkən,
Gözlərimə yaş gəldi.
Bir əlimlə gözlərimi silərkən,
Pəncərəmdən daş gəldi.

5 sentyabr, 2011.

***

Mələyimi çiynimdə hiss elədim,
Ağrıları xəlbirimdə ələdim,
Öz əlimlə duyğuları bələdim,
Gələn yola bir addım atmaq üçün.

Bu körpüyə gəlməyə təkan oldu,
Öz-özümü tapmağa məkan oldu.
Ömrüm də arabamda sükan oldu,
Keçmişdən gələcəyə çatmaq üçün.

Kürəyim söykənib dağ kürəyinə,
Məni sakin edib öz ürəyinə.
Dönübdü bəxtimin ağ mələyinə,
Əbədi bir çevrəyə qatmaq üçün.

11 sentyabr, 2011.

***

Buludlara toz qonub,
Ürəyimə söz qonub,
Yaram üstə köz qonub,
Qopmağa bir an istər.

Çiynimin yükü ağır,
Bətnimdə çəki ağır,
Yükləyin nə ki, ağır,
Dartmağa insan istər.

Keçməyə yol verilib,
Tutmağa qol verilib,
Duyğular bol verilib,
Amma ki, qurban istər.

11 sentyabr, 2011.

***

Bu dağların üzündə mələkmi var?
Tikanlar arasında çiçəkmi var?
Yalanların içində gerçəkmi var?
Sağın, solun arasında durmuşam.

Səhranın qucağına sumu düşdü?
Gözlərimə havanın qumu düşdü?
Daşa dönən qəlbə duyğumu düşdü?
Oyaqların sırasında durmuşam.

Dəniz - bütün ağrıların duası,
Gecə - bütün doğmaların yuvası,
Həyat - sözsüz oxunan ruh havası,
Bu dünyanın harasında durmuşam?

11 sentyabr, 2011.

***

Sən dolanıb gəlirsən,
Bu bir addımlıq yolu.
Əllərin boş olsa da,
Gözlərin yaşla dolu.

Ürəkdən süzülən yaş,
Gözdə bulaşıb qalıb.
Burdasan, amma fikrin,
Yolda ilişib qalıb.

Sıx gözünü, süzülsün,
Yaşın yanağaşağı.
Böyüsən də, öldürmə,
İçindəki uşağı.

Sən dolanıb gəlmisən,
Bu dünyanın başına.
Görüb götürdüklərin,
Dəyərmi göz yaşına?

11 sentyabr, 2011.

***

Bir caynağa ilişib,
Ruhumun tül bədəni.
Dartınıb qaranlıqda,
Axtarıram itəni.

Hisslərin ucundadı,
Gözlərimin işığı.
Divardan tuta-tuta,
Düşüb getdim aşağı.

İtirdiyimi tapdım,
Söyə-söyə qaldırdım.
Yıxılsam da, özümü,
Döyə-döyə qaldırdım.

11 sentyabr, 2011.

***

Həyat günahlarla doludur axı,
Keçdiyim - səhvimin yoludur axı,
Bu bəndə, Allahın quludur axı,
Mənə döymək üçün bir qapı deyin.

Ürəyim sözümə baxa da bilmir,
Bu ruh, bu bədəndən çıxa da bilmir,
Doğrular əyrini yıxa da bilmir,
Mənə döymək üçün bir qapı deyin.

Gözümün altında qəmin kölgəsi,
Bətnimdə qurulub duyğu ölkəsi,
Səsimdə sarsılan yolun döngəsi,
Mənə döymək üçün bir qapı deyin.

Ağrının üzündə nisgil duası,
İçimdə bəxtimin küskün havası,
Etiraf - bir bağlı qapı yuvası,
Mənə döymək üçün bir qapı deyin.

Qapılar açılır mənim sözümə,
Qəlbinin qapısı dəyir gözümə,
Döysəm də, bağlıdır qapı üzümə,
Mənə əyilməkçün qapı deməyin,
Keçə bilmək üçün bir qapı deyin.

30 sentyabr, 2011.

***

Qaranlığa Ay nurunu qatacaq,
Kölgəmiz hansı tərəfə yatacaq,
Görən səhərə kim lap tez çatacaq,
Aymı, kölgəmi, yoxsa həyəcanmı?

Nəbzimizmi tez vurur, yoxsa saat?
Ürək getdiyi yerə özünü at,
Nədən daralır dünya, həm də həyat?
Ölümə gedən sonsuz qorxudanmı?

Buludlar - göyün yorğanı kimidir,
Qövsi-qüzeh - bir gəmi yelkənidir,
Günəş - kamanın sapsarı simidir,
İmtahan edir böyük sorğudanmı?

Gözəl fırça var rəssamın əlində,
Sehirli sözlər şairin dilində,
Fırtına qopur nəğmənin selində,
İlahi, sözün tükəndiyi anmı?

9 oktyabr, 2011.

***

Qaçdım, qaçdım.
Mən də bu gecədən qaçdım.
Çata bildim sübhə,
Səhərin qapısın açdım.
Xəyalımın səsindən tutub,
Uçdum, uça bildiyim qədər.
Yağış sırğasını taxdı,
Qulağıma, gözlərimə, tellərimə,
Kiminsə əli toxundu əllərimə.
Tutub onun əlindən
özümdən qaçdım,
Qaça bildiyim qədər.
Dünyama gözümü açdım,
Aça bildiyim qədər.

29 oktyabr, 2011.

***

Gəlin salam göndərək,
Göyün yeddi qatına,
Biz də minək dünyanın
Yüyənlənmiş atına.

Cavab gəlsin göylərdən,
Yağış kimi, qar kimi.
Bu möcüzə payına,
Sevinək quşlar kimi.

Küçənin ortasında,
Küləklə rəqs eləyək.
Özümüzü, ən gözəl
duyğuyla həbs eləyək.

29 oktyabr, 2011.

***

Bu gecəni gün yıxdı,
Kimsə əlimi sıxdı,
Batanlar üzə çıxdı,
Hisslərin dənizində.

Sahil yaxasın çəkdi,
Fırtına suya çökdü,
Həyat eşqi böyükdü,
Ruhumun gəmisində.

Təbiət sehir qurur,
Kədər boynunu burur,
Sevən ürəkdi vurur,
Bəndənin sinəsində.

Olanları, yadigar
Qoyacağam, al apar.
Ömrümün açarı var,
Bir anlıq nəfəsində.

5 noyabr, 2011.

***

Düşmənləri yora bilək,
Son zərbəni vura bilək,
Yürüşümüz hara, bilək,
Bilməsək, çətin olacaq.

Sabaha ümid gətirək,
Haqqımızı tez götürək,
Haqsızlığı öldürərək,
Gülməsək, çətin olacaq.

Dünya bilir savaşını,
Uca tut, əymə başını,
Anaların göz yaşını,
Silməsək, çətin olacaq.

Nifrət yarılır bağrında,
Gücün, silahın doğrunda,
Hər qarış torpaq uğrunda,
Ölməsək, çətin olacaq.

5 noyabr, 2011.

***

Qəribə yerə çatdım,
Bir addım göyə atdım,
Sözə üzümü tutdum,
Söz ilə yaralandım.

Nəfəsimdi çəkilən,
Ürəyimdi sökülən,
Xəncər kimi dikilən,
Göz ilə yaralandım.

Taleyimdi yazılan,
Hissim ipdən asılan,
Yaram üstə basılan,
Köz ilə yaralandım.

Bir ağrı var yüklənən,
Qəm ilə çiçəklənən,
Sarı simə köklənən,
Saz ilə yaralandım.

Allah, mən sənin kölən,
Dərdin üzünə gülən,
Üstümə qona bilən,
Toz ilə yaralandım.

7 noyabr, 2011.

***

Qəlbindəki yüz rəngə bax,
Nəbzindəki ahəngə bax,
Qoşa qanadlı quş olub,
Düşə bilərsən cəngə, bax.

Yol azdıran dumanı var,
Sərraf gözlü zamanı var.
Sınağa çəkəcək hər an,
Bir yanıqlı kamanı var.

Sözlər var ki, dilə gəlməz,
Ruhdu uçur, ələ gəlməz.
Qucağı geniş açılan,
Azadlığa, kölə gəlməz.

Ağacın budağı yoxsa,

Həyatın sınağı yoxsa,
Nəyə gərəkdi bu sevgi,
Əyər ki, qonağı yoxsa.

Sındırsa günahın səni,
İncitsə pənahın səni,
Bəndədən imdad diləmə,
Bağışlar Allahın səni.

13 noyabr, 2011.

***

Bu kəndir aşiq olaraq,
Bir boyunda çevrə qurur.
Bir bədən ipdən asılır,
Ruh, başında dövrə vurur.

Bu aşiqin məqsədi bu,
Bətndən can çıxarmaqdı.
Özündə qələbə çalıb,
Bir həyəcan yaratmaqdı.

Bir anlıq sevgiylə yanıb,
Sonra bədbəxt işıq olma.
Özünü zindana atıb,
Bir də heç vaxt aşiq olma.

13 dekabr, 2011.

***

Bədənimin sakiniyəm indi mən,
Vaxt gələcək, onu da atacağam.
Bu həyatdan möcüzələr qoparıb,
Daha güclü bir varlıq olacağam.

Günəş doğur gözlərimin içindən,
Böyüyürəm özümdən də yuxarı.
Görürəm, dünyanın divarlarına,
Diriykən hörülən daş adamları.

Bir çevrə qurmuşam işıq selindən,
Sən də qoşul bizlərin sırasına.
Bu dünyada mələk kimi doğulub,
Qarışmışam insanlar arasına.

17 dekabr, 2011.

# İlahi, məndən əsirgəmə payını...

***

İli çiynimdən atdım,
Bu sabaha əl qatdım,
Təzə bir günə çatdım,
Həyata üz göstərdim.

Sakitliyə səs düşdü,
Yeni bir nəfəs düşdü,
Könlümə həvəs düşdü,
Kağıza söz göstərdim.

Sönən bir ocaq vardı,
Boş qalan bucaq vardı,
Soyuyan qucaq vardı,
Yanmağa köz göstərdim.

Duyğu burulğanında,
Ürək durub yanımda,
Hissin, həyəcanın da,
Yolunu, düz göstərdim.

Günəş doğur ömrümə,
Nəğmə düşür qəlbimə,
Mənim qonaq evimə,
Keçməyə, göz göstərdim.

1 yanvar, 2012.

***

Qırılanı birləşdirmək istəyirsən?
Əlinin gücü çatmaz.
Sənin saldığın bu iz,
Olacaq ömürboyu
yaralı xatirəmiz.

1 yanvar, 2012.

***

Yuxu görür bu adam.
Üzünə yuxunun şəkli çıxıbdı.
Bu yuxuda bir imtahan var
deyəsən.
Dur yuxudan, yatan adam.
Bəlkə onda,
Bu yuxudan oyananda,
Həyatı çox sevəsən.

1 yanvar, 2012.

***

Qalxır kədərin buxarı,
Çəkib aparır yuxarı.
Budur həyatın axarı,
Ruh göyə, can yerə düşür.

Ömür dönür varaq-varaq,
Oxunur kitab olaraq.
Gecəni yola salaraq,
Dirilmək, səhərə düşür.

Görəndə öz Tanrısını,
Eşidəndə duasını,
Bu anda söz qapısını,
Açmaq, bir şairə düşür.

1 yanvar, 2012.

***

Yüz qapı var, seçməsi müşkül,
Su verilib, içməsi müşkül,
Yoldu gedir, keçməsi müşkül.

Sazdı çalır, yanğısı dahi,
Sevgi gəlib, ağrısı dahi,
Tanrı səsi, sorğusu dahi.

Yaşdı keçir, saymasan olmur,
Candı şirin, qıymasan olmur,
Üz qabığın soymasan olmur.

Həftə gəlir, ayda tamamdı,
Ağrı yükü, vayda tamamdı,
Yerdə keçid, göydə tamamdı.

1 yanvar, 2012.

***

Kimsə sənə həsrət qalıb,
Gözləyir qapı döyülsün.
Qorxur ki, görüşün ilə,
Qəfil ovqatı dəyişsin.

Baxışınla kükrəyirsən,
Sözünə ehtiyac qalmır.
Üzünü bağlı saxlasan,
Qaranlığa əlac qalmır.

Sənə üz tutub gələni,
Özünə məhrum eləmə.
Öz əlinlə ürəyini,
Cəzaya məhkum eləmə.

Üz döndərib həqiqətdən,
Bilmədən günah edirik.
Bağışlayır Tanrı özü,
Biz axı Allah deyilik.

1 yanvar, 2012.

***

Qaranlıqda dayanıb,
Sehirmi gözləyirsən?
O sehir sən özünsən.
İçinin zülmətiylə
bu qaranlıq toqquşub
qığılcım yaradacaq.
O da bu qaranlıqda
sənin ruhundan doğan
sehrin özü olacaq.

9 yanvar, 2012.

***

Göyə şehtək qonan bulud,
Gözün həsrətdən nəm çəkib.
Qəlbini aç bu torpağa,
Dayanma göydə qəm çəkib.

Sənin məkanın böyükdü,
Yağmağa bu yer üzü var.
Qəlbimə dolan buludun,
Bir üzü var, cüt gözü var.

Kaş sənintək göyə çıxıb,
Hər tərəfə yağa bilim.
Səpilən hər damlaların,
Bəhrəsini yığa bilim.

Ürəyimin yağışları,
Kağız üstə səpələnir.
Qəlbimin buludu yağır,
Yağış nəğməylə ələnir.

Ruhumdan doğan buluddan,
Cüt evlad gəldi dünyaya.
Biri şeir, biri nəğmə,
Uçub getdilər səmaya.

Məndən salam apardılar,
Buludlara, ulduzlara.
Bəlkə salamım onlarla,
Yetişəcək ünvanlara?

9 yanvar, 2012.

***

Qaranlıq - işıqsız yer.
İşıq - qaranlığı qovan.
Qorxu - qaranlıqdan doğulan
qorxulu bir an.
İşıq tut qaranlığa,
Qorxun yox olacaq.
O zaman,
Qorxusunu işıqla boğan,
Bir adam işığı doğulacaq.
Bu işığa milyonlar yığılacaq.

14 yanvar, 2012.

***

Küləyin söhbəti - meh.
Çiçəyin göz yaşı - şeh.
Ağacın balası - bar.
Göydən gələn sehr - qar.
Gecənin ürəyi - Ay.
Övladın bir adı - pay.
Hər şeyə ad verən - söz.
Duyğuların səsi - göz.
Dəniz qapısı - sahil.
Diriykən ölü - cahil.

14 yanvar, 2012.

***

Dünyaya doğulan gündən,
Hamı nə isə axtarır.
Kimsə öz itirdiyini,
İtən kimisə axtarır.

Ürək - sevməyin yolunu,
Yıxılan - insan qolunu,
Allah - sevdiyi qulunu,
Səni də kimsə axtarır.

Qəfil beli büküləni,
Vicdan evi söküləni,
Dizi üstə çöküləni,
Yenə də kimsə axtarır.

Kor kimi divardan tutan,
Günah dənizində batan,
Hər kəsin yanında yatan,
Qəmi də kimsə axtarır.

Gizlənməkçün bircə anı,
Ruhu yaşayan məkanı,
Gözü bağlayan dumanı,
Çəni də kimsə axtarır.

Körpə - ananın döşünü,
Fələk - qəfil görüşünü,
Ruhlar - geri dönüşünü,
Onu da kimsə axtarır.

Kimsə ölüm qapısını,
Kimsə isti yuvasını.
Bir yetim öz anasını,
Məni də kimsə axtarır.

17 yanvar, 2012.

***

Torpağa təpik atma,
Qopub üzünə dəyər.
Göyə tulladığın söz,
Dönüb özünə dəyər.

Yenə sarmaşıq kimi,
Harasa dırmaşırsan.
Yuxarıdan aşağı,
Baxmağa çalışırsan.

Ağacdan ibrət götür,
Bar gətirib baş əyir.
Sənin əlindən isə,
Hər yetənə daş dəyir.

Sən sərçələrdən soruş,
Göylərin havasını.
Qartala əl uzatma,
Göstərməz yuvasını.

Hər yerin öz sakini,
Sən də öz yerini tap.
Bu ölənlərdən əl çək,
İçində dirini tap.

Ağız, burun qanayır,
Üz üstə yıxılanda.
Sənin qanadın yoxmuş,
Dünyaya doğulanda.

Odur ki, torpaq üstə,
Möhkəm durmağı öyrən.
Daş üstə daş qoyaraq,
Mənzil qurmağı öyrən.

İlləri xırdalayıb,
Ay ilə oynama sən.
Allahın bəxş etdiyi,
Pay ilə oynama sən.

Torpaqdan doğulanlar,
Bu torpağa dönəcək.
Səni sevən onsuz da,
Torpaq üstə sevəcək.

23 yanvar, 2012.

***

Qar yağır, rəqs eləyir,
Göydən xəbər çiləyir.
Azadlığa çıxaraq,
Bizə nəğmə söyləyir.

Rəngləri pozub yağır,
Səmadan azıb yağır.
Hər kəsin niyyətini,
Yaxşıya yozub yağır.

Öpüşür ağaclarla,
Görüşür adamlarla.
Danışır öz dilində,
Cavabsız suallarla.

Ağ libasını geyir,
Yer üzünə baş əyir.
Hamı diqqət kəsilib,
Qar sözsüz şeir deyir.

24 yanvar, 2012.

***

Nəyəsə toxunub sınıb bu adam,
Üzdə cizgiləri dəyişilibdi.
İçindən ataraq köhnə adamı,
Yeni bir varlıqda zühur edibdi.

Kiməsə toxunub sınıb bu adam,
Sınığın bitişən çatı görünür.
Geyinib gəzsə də adam içində,
Həm alt qatı, həm üst qatı görünür.

Bir səsə toxunub, sınıb bu adam,
Ruhu bədənində axsayır indi.
Nə diri kimidir, nə ölü kimi,
Naməlum varlığa oxşayır indi.

Həvəsə toxunub, sınıb bu adam,
Əldədi qüruru oyuncaq kimi.
Özünü yandırıb yoxa çıxacaq,
Kimsəyə gərəksiz bir ocaq kimi.

Nəfəsə toxunub, sınıb bu adam,
Xəbəri naməlum ölümdən gəlir.
Çox şeyi bacara bilməyən adam,
İndi nə istəsən əlindən gəlir.

25 yanvar, 2012.

***

Balaca arzu içində,
Möhtəşəm istəklər yatır.
Kiçiklər əl-ələ verib,
Böyük arzunu oyadır.

Hər şey böyümək istəyir,
Həm canlısı, həm cansızı.
Böyüyərək yer tutacaq,
Vicdanlısı, vicdansızı.

Bir körpə də boy atdıqca,
Öz ömrünü böyüdəcək.
Milyonlara həyat verən,
Ölümünü böyüdəcək.

Yaş üstünə yaş gələcək,
Yaşın illərdən keçəcək.
Sənin bu böyümək yolun,
Tutan əllərdən keçəcək.

Böyüdükcə içindəki,
Kədərin də böyüyəcək.
Yol uzunu dönə-dönə,
Ürəyin də döyüləcək.

Böyüyürsən, üzündəki
qırışların da böyüyür.
Sevgi dolu, nifrət dolu,
Alqışların da böyüyür.

29 yanvar, 2012.

***

Ürəyə sevgi düşür,
Qəribə dövran gəlir.
Sevginin qucağından,
Dünyaya insan gəlir.

İnsanların əlləri,
Birləşib haqq yaradır.
Milyonların birliyi,
Yenilməz xalq yaradır.

Ruh adamları birgə,
Mədəniyyəti qurur.
Xalqlar torpaq üstündə,
Bəşəriyyəti qurur.

5 fevral, 2012.

***

Bərəkətsiz torpaqdısa,
Nəsə yetişdirmək olmaz.
Güzgüsü iki bölünüb,
Onu bitişdirmək olmaz.

Düşüncəsi toz içində,
Keçmişdə ilişib qalıb.
Bilə-bilə əyri gedir,
Ağıldan sürüşüb qalıb.

Boş yer gəzir oturmağa,
Özünün məkanı yoxdu.
Böyük bir arabası var,
Onun da sükanı yoxdu.

Hər addımı səhvlə dolu,
Həmişə haqqdan danışır.
Hamıya rişxənd edərək,
Elə nahaqdan danışır.

Mənfi enerji daşıyır,
Yükləməyə adam gəzir.
Falş bir notu bəyənərək,
Kökləməyə adam gəzir.

Nə kölgəsi, nə bəhrəsi,
Həyat üçün yararsızdı.
Onu bircə Allah bilər,
Günahlıdı, günahsızdı.

Amma bir məsələ var ki,
Bu adam darlıq gətirir.
Bədbəxt analar dünyaya,
Belə bir varlıq gətirir.

6 fevral, 2012.

***

Pəncərəm buz bağlayıb,
Küçəni görmək olmur.
Qış elə hücum çəkib,
Evinə girmək olmur.

Çovğunun gözlərində,
Aləmi qatmaq eşqi.
Qarı göydən sovurur,
Şəhərdə edir məşqi.

Şəhər susub, sakitcə,
Bu məşqə meydan açıb.
Küçədə adam yoxdu,
Hamı evinə qaçıb.

Nəhayət qış bu dəfə,
Sərt üzünü göstərdi.
Adına layiq oldu,
Qış, özünü göstərdi.

Pəncərədən baxsam da,
Qışın pərdəsin gördüm.
Göyün ruzu payını,
Qarın süfrəsin gördüm.

8 fevral, 2012.

***

Səhər tezdən itilənib
Küləyin sakit nəfəsi.
Dünyanın ağası kimi
Hökm eləyir indi səsi.

Kimsə sakit komasında
Bıçağını itiləyir.
Əlinə düşə biləcək
Ətin yolunu gözləyir.

Birisi ocaq yanında
Oturub kitab oxuyur.
Oxuduğunu udaraq
İti bir fikir toxuyur.

Bir qadın doğuş üstündə
Öz gücünü itiləyir.
Körpəsini azad edib
Öz bətnindən itələyir.

Qocanın beli bükülüb,
Əlində əsası iti.
İti addımlarla gəzdi,
Sonunda buymuş qisməti.

Bu dünyadan bezəni var,
Olsa da dövləti, varı.
İtiləyir öz ruhunu,
Artıq seçib intiharı.
İki sərçə qar üstündə
Dimdiyini itiləyir.
Qarın altında gizlənən
Qisməti tapmaq istəyir.

Bir qız pəncərə önündə
Sevgidən uçmağa hazır.
Bir oğlan iti addımla,
Özündən qaçmağa hazır.

Öz evində, yaşlı qadın
Qələmini itiləyir.
Əsə-əsə nəvəsinə,
Bir məktub yazmaq istəyir.

Qar küləyin əlindədi,
Çırpır onu göydən yerə.
Şaxta kəsir bıçaq kimi,
Vəlvələ düşüb şəhərə.

Qonaq kimi vidalaşır,
Can üstə, bir yorğun xəstə.
O dünyaya iti bir yol
Çəkilibdi son nəfəsdə.

Kimi yatıb, kimi oyaq,
Kim tapıb, kim itirəcək?
Bu çovğunlu qış səhəri,
Kimin bəxti gətirəcək?

8 fevral, 2012.

***

Hamıdan gizlənib evə sığındım,
Güzgülər üzümü göstərir mənim.
Duyğular görünür hissin ucunda,
Ağ vərəq sözümü göstərir mənim.

Yaddaş - olanların bağlı qapısı,
Onun da açarı dilimin üstə.
Ürəyim görünmür sinə altında,
Onu saxlamışam əlimin üstə.

Gəzib dolaşmıram əyri yollarda,
Ayaq gedən yolu başım çəkəcək.

Ağrımı hamıdan gizlətsəm belə,
İzini yanaqda yaşım çəkəcək.

Bu boyda vücudu gizlətsəm belə,
Amma bar gətirir toxum içimdə.
Bəhrəsi çırpınıb çıxacaq üzə,
Çünki, üsyan edir ruhum içimdə.

9 fevral, 2012.

***

Batan saman çöpü axtarar,
Əlinə nə düşsə buraxmaz.
Boğulanın yaşamaq eşqi,
Yırtıcıdır, heç nəyə baxmaz.

Həyat ilə ölüm körpüsü,
Çox uzundu, məsafəsi az.
Bura yolu düşən adamın,
Saatı bol, dəqiqəsi az.

Bəlkə də o anda bilinir,
Sevinc ilə kədərin fərqi.
Ömrü ipdən asılan bilər,
Ayaq ilə əllərin fərqin.

Allahını tanımayan da,
Dua edər azadlıq üçün.
Ölümünün üzünü görən,
Anlayacaq Tanrının gücün.

Bu həyat bir möcüzə imiş,
Sən, ölümü dadandan soruş.
Bir nəfəsin nə olduğunu,
Öz içində batandan soruş.

10 fevral, 2012.

***

Bu adam susub, danışmır,
İçində tufan gəzdirir.
Hamıya rahat görünür,
Qəribə üsyan gəzdirir.

Kimini boyu-buxunu,
Kimini ağlı çaşdırır.

Ruhunda var-gəl eləyən,
Kədərlə qəmi qoşdurur.

Əcaib görünür bəzən,
Axından kənar durmağı.
Susaraq sözünü deyib,
Alınmaz koma qurmağı.

Çiynindəki ağır yükü,
Çəkərək özü aparır.
Qonağı olmasan belə,
Qəlbinə, sözü aparır.

Dünyanın oyunlarından,
Yaxşı ki, üzüağ çıxıb.
Ölüm-dirim savaşından,
Zərbə alsa da, sağ çıxıb.

Allahın əli üstündə,
Sığallanır yaraları.
Yerdə insan, göydə Allah,
Təmizləyər buraları.

Heç kimə əli açılmaz,
Amma dost əlindən tutar.
Susan adam, zəncirləri
qırıb, bu zindandan qaçar.

18 fevral, 2012.

***

Ovuc qədər bir ürəyin,
Gör nə boyda kələyi var.
Dünyanın, yıxa biləcək,
Görünməyən fələyi var.

Hər adam özü sualdı,
Cavabı dilində gəzir.
Adam var ki, ayaqla yox,
Hamının əlində gəzir.

Yer üzünə doğulmağın,
Sən demə öz zamanı var.
Gələnlərin, gedənlərin,
Yaxşısı var, yamanı var.

Eləsi var, sinəsində,
Daşıyır bayquş ürəyi.
Kimisi də ömür boyu,
Ayıldır sərxoş ürəyi.

Bəlkə də elə ruh kimi,
Gəzib dolaşmaq yaxşıdır.
Fələyin milyon fəndinə,
Oynayıb çaşmaq yaxşıdır.

19 fevral, 2012.

***

Rəngləri qatdım bir-birinə,
Gətirdim gözlərimin önünə.
Qəribə mənzərə oyandı,
Maraqlı bir rəng yarandı.
Hisslərin bir-birinə dolaşan
haşiyəsi kimi,
Ölümlə dirim savaşında,
Bu dünyadan iki əllə yapışan
həvəsin nəfəsi kimi,
Fəsillərin üsyanı,
Gecənin gündüzə təslimi,
Sinənin altında gizlənən
ürəyin qəfəsi kimi,
Bu qarmaqarışıq rənglər,
Gözlərimi, hisslərimi oxşadı.
Bu rənglərin içində,
Biri deyəsən güldü,
O birisi ağladı.
Amma çox təəssüf ki,
Yaratdığım bu rəngin,
Hələ ki, yoxdur adı.

19 fevral, 2012.

***

Ruhum düşdü əlimdən,
Dağıldı künc-bucağa.
İçimdən sökülənlər,
Yığışmır ki, qucağa.

Nə sevinc var, nə kədər,
Nə qəribə haldı bu.
Məni görən deyəcək,
Bir gündə qocaldı bu.

Hamıdan gizlənməkçün,
Göyə qalxdım, quş oldum.
Yenə gözə göründüm,
Bir ovçuya tuş oldum.

Ruh xəstə, can yaralı,
Məndən söz istəyirlər.
Üstümə korlar gəlir,
Sağlam göz istəyirlər.

Öz dərdini yükləmə,
Səndən betər haldayam.
Səpələnən ruhumu,
Toplamaqçün yoldayam.

8 may, 2012.

***

Ölümün ətrini hiss etmisənmi?
Qəribə rəngdədir onun gözləri.
Arxasınca düşüb heç getmisənmi?
Doğma görünübmü onun izləri?

Dünyadan kimisə aparmaq üçün,
Yalançı dost kimi yanımızdadır.
Gah başda görünür, gah da yuxuda,
Onun pis nəfsi var, canımızdadır.

Nə yaşına baxar, nə əməlinə,
Adı ölümdüsə, sevgisi də var.
Sənə aşiq olub aparacaqsa,
Əlində sübutçun güzgüsü də var.

Xəbərin olmadan diqqəti səndə,
Hər an, hər dəqiqə səni izləyir.
Dəmir barmağıyla tutub yaxandan,
Özünə çəkməyə məqam gözləyir.

Həyat eşqi varsa, ölüm pusquda,
Hərdən nəfəsini göstərir bizə.
Bivaxt qonaq kimi döyüb qapını,
Təki, soxulmasın mənzilimizə.

12 may, 2012.

***

Bir balaca işıq düşsəydi,
Hər şey aydın olardı
mənim üçün.
Bir balaca sevgi olsaydı,
Heç olmasa haqsızlığın
yuvası daralardı

sənin üçün.
Bir balaca gözün görsəydi,
Ağı qaradan seçməyə
imkan tapılardı.
Bir balaca yaxına gəlsəydin,
Təkcə mənim üzümü yox,
Hisslərimin gözünü də
görə bilərdin.
Bir balaca adam olsaydın,
Nə isə edərdin
mənimçün.
Mən isə ölərdim
səninçün…

12 may, 2012.

***

Bir anda hər şeyə
son qoymaq üçün
nə böyük qüvvə gərək,
Selin qarşısını
saxlamaq kimi.
Buluda əl uzadıb
onu yerə bağlamaq kimi.
Bir anda hər şeyə
son vermək üçün,
Hər şeydən doymaq gərək.
Nöqtəni - qoymaq gərək…

19 may, 2012.

***

Səni qopardım öz içimdən…
Elə bilirsən mənimləsən?
Ruhumu çırpıb divarlara,
Yaman oynadın mənimlə sən.

19 may, 2012.

***

Ürəyim çilik-çilik.
Yenə sağam hələlik.
Heç nəyə çevrilmədim.
Nə arzuladığım quşa,
Nə də qorxunc bayquşa.
Nə sürünən, nə qaçan,
Nə üzən, nə də süzən
olmadım,
Adam qaldım.

19 may, 2012.

***

Heç bilirsən
bu bir addım
nə qədər vaxt aparıb?
Nə biləsən.
Mənim atdığım addımı,
Yuxunda da görməmisən.

19 may, 2012.

***

İllərlə yuxu içində,
Bir ömür yaşadım demə.
Bu yuxu bir xoş təsadüf
Olsa da, oxşadı qəmə.

Xatirəmin bir küncündə,
Həmişə yeri olacaq.
Ara-sıra həmin yuxum,
Yozulacaq, pozulacaq.

Təzədən başlayım bəlkə,
Yeni bir səhifə açım.
Dizimdə taqət var ikən,
Yuxudan gerçəyə qaçım.

8 iyun, 2012.

***

Dairə get-gedə daralır deyəsən,
Sıxıldıqca yenə bədənim nazilir.
Fırlanıb bir anda dəyirəm harasa,
Qanıma bələnib gedənim nazilir.

Nazilir gözümün parıltı bucağı,
Bu tozlu məkanda nəfəsim nazilir.
Hissimin ölüsü, dirisi yox kimi,
Yaxamı çəkməyə həvəsim nazilir.

Dilim də qurusa, səsim də pozulsa,
Hər şey öz yerində, mənim hay-küyüm var.
O boyda dairə boynuma keçibdi,
Nazilən boynumda balaca düyün var.

8 iyun, 2012.

***

Dəlilikdən o yanası varmı?
Bax mən o yerdə olmaq istərəm.
Ağılsız addımlarımla,
Havalı halımla danışaraq.
Mənə gözucu baxıb keçən
tanımadığım yaxınlarımla,
Uzaqlarımla vidalaşaraq.

Sərxoşluqdan o yanası varmı?
Bax mən o halda olmaq istərəm.
Heç nəyi düşünmədən,
Özüm özümü görmədən.
Üzsüz, adsız, ünvansızların
yanından keçib
üzümü göstərmədən,
Sevmədən, sevilmədən.

Dilənçilikdən o yanası varmı?
Bax mən o gündə olmaq istərəm.
Heç nə qazanmayan,
Heç nə itirməyən,
Varlığını, yoxluğunu bilməyən,
Gecəni evi, küləyi sevgilisi,
Dənizi dostu, yağışı anası bilən
bir insana sığınaraq,
Səfil kimi yaşamaq, yaşlanmaq,
Azadlığın dadını bilmək,
Sonra da ölmək istərəm.

12 iyun, 2012.

***

Son dəfə də cavab yazdım,
Bu mürəkkəb suallara.
Mən gedirəm, sən deyərsən
bu cavabı adamlara.

12 iyun, 2012.

***

Səhəngi çiynində daşıyan gözəl,
Bir çiyninin üstü boş qalıb hələ.
Qəminə köklənən yükün yoldadı,
Gəlib öz yerini tutacaq belə.

Həyəcan pusquda, kədər ovçudu,
Əlinə keçəni yaxalayacaq.
Sənin o boş qalan bir çiynin üstə,
Tale nə qədər yük qalaqlayacaq.

Zərif çiyinlərin itilənəcək,
Sındıra-sındıra oyna doyunca.
Sonra çiyinlərin yük sındıracaq,
Həyat oyununda ömür boyunca.

13 iyun, 2012.

***

Bədənimdə fəsillərin vulkanı oyanıbdı,
Məndən qorxma, püskürərək yorulana qədərdi.
Bir bulanıq dəryadayam, bədənim lillə dolu,
Bu dərya kimi üsyanım, durulana qədərdi.

Fələyin oyunlarına yüz cür çıxış tapsam da,
Göydən asılan tellərim qırılana qədərdi.
Ha kükrəyim, ha alışım, qəddarlıq donu geyim,
Ürəyim muma dönəcək, sarılana qədərdi.

Mənim də həyat borcum var, daş üstünə daş qoymaq,
Dağıdacaq kimsə yenə, qurulana qədərdi.
Qırılsa da, yorulsa da, hələ ki, vurur ürək,
Onun da vaxtı gələcək, vurulana qədərdi.

14 iyun, 2012.

***

Bu həyat möcüzədir,
Bizimlə üz-üzədir.
Dərəcə artıb gedir,
Ürək dolana qədər,
Sözsə dolandan sonra.

Hamı gəldi-gedərdi,
Maldı, mülkdü hədərdi,
Həyat işığı verdi,
Günəş batana qədər,
Aysa batandan sonra.

Danışacaq, susacaq
məqamımız olacaq.
Rahatlığı tapacaq,
Kimsə yatana qədər,
Kimsə yatandan sonra.

Sevgisini gəzəcək,
Hər əzaba dözəcək.
Dəli kimi sevəcək,
Kişi çatana qədər,
Qadın çatandan sonra.

Hisslərin sahilində,
Tək ruhu var əlində,
Fikri duyğu selində,
Şair yazana qədər,
Kimsə yazandan sonra.

Axtardım ömrüm boyu,
Çatdığım dərin quyu,
İndi bir içim suyu,
Yandım, tapana qədər,
Öldüm, tapandan sonra.

14 iyun, 2012.

***

Atılıb-düşməyə yerim yox artıq,
Dörd divarın arasında ilişdim.
Çəkildim özümə son nəfəs kimi,
Buza dönmüş bir ürəkdən sürüşdüm.

Səsim çıxmır, boğazım kilidlənib,
Açarını kədərimlə bölüşdüm.
Yuvarlanıb daş kimi dəydim bura,
Məni qoruyan mələkdən sürüşdüm.

Gözü açıq ölməyin fərmanı bu,
İtirdiyim kim vardısa, görüşdüm.
Tanrımın verdiyi ömür payımda,
Fələk gətirən kələkdən sürüşdüm.

Bax, bu zindan, bu qandallar, bu da mən,
Sevmədiyim Əzrayılla öpüşdüm.
Cəllad can almağa gəlmişdi yenə,
Ayaq büdrədi, ölümdən sürüşdüm.

19 iyun, 2012.

***

Ən yüksək bir not var, səsim yetmir ki,
Boynumda bir daş var, düşüb itmir ki,
Dərdə qapı açdım, çıxıb getmir ki,
Qonağın yolunu mənə bul, göstər.

Nə bilim haraya getməliyəm mən?
Hansı bir nəzərdən itməliyəm mən?
Yeni bir gülədən ötməliyəm mən?
Gəl uzat əlini, mənə yol göstər.

Sahil də görünür, mən boğuluram,
Dəniz ana bətni, mən doğuluram?
Məni görən varmı? Mən yox oluram,
Dost olub tutmağa mənə qol göstər.

19 iyun, 2012.

***

Əlində xəncərin hazır durmusan,
Mənmi yer göstərim bıçaqlamaqçün.
Köhnə yaralarım qan verir hələ,
Dərman da kar etmir yamaqlamaqçün.

Sən cəllad donunda, mənsə şikarın,
Hər dəfə ovuna mən tuş oluram.
Qanadlarım sınıb yanıma düşür,
Yenə də yaralı bir quş oluram.

Ağlın səfərdədi, özün yol üstə,
Məni də özümdən köçər etmisən.
Yenə zədələyib, qalib donunda,
Elə biləcəksən, hünər etmisən.

İçində bir şeytan, üstündə Allah,
Məni vurub öldür, xilas et barı.
Ruhum yetim qalsa, ona sahib çıx,
Bir də yaralama bu adamları.

Heç kim bilməyəcək dərdli sirrimi,
Hərə bir cür yozar yazdıqlarımı.
Bir Allahım bilir, bir də ki, sən bil,
Ölüb dirilərək duyduqlarımı.

27 iyun, 2012.

***

Bu gecə yağış çırpıldı
küçələrdə azıb qalan
duyğuların izlərinə.
Sevgi etirafı kimi,
Yağış dəydi gözlərimə.
Kimsə səsini göndərdi
küləyin nəfəsi ilə.
Atalandım, analandım,
Qucaqlandım, doğmalandım,
O nəfəsin rəngi ilə,
Bir körpə uşağa döndüm.
O səsin ahəngi ilə
yırğalandım, arxalandım.
Tapılan sahibim kimi
bu yağışın səsi altda
tumarlandım, sığallandım.
Yağış ilə gələn vardı…
Gözlərini görə bildim…
Sevilmək gözəl duyğudu,
Bir azca da lovğalandım.

10 iyul, 2012.

***

Hər şey olsun həyatımda,
Bir az sevinc, bir az kədər,
Yuxuları görə bilim,
Oyaq vaxtı gəlsin xəbər.

Hər şey olsun həyatımda,
Bir az gecə, bir az gündüz,
Səsi əynimə geyinim,
Görənlər anlasın sözsüz.

Hər şey olsun həyatımda,
Cavanlıq da, qocalıq da,
Yerin alt qatında olum,
Amma sonra ucalıqda.

Hər şey olsun həyatımda,
Bir az sevgi, bir az nifrət,
Əlim çatsın gözləyənə,
Sonra isə çəkim həsrət.

Hər şey olsun həyatımda,
Bir az eniş, bir az yoxuş,
Darısqal məkana düşüm,
Amma sonra tapım çıxış.

Hər şey olsun həyatımda,
Bir az olum, bir az ölüm,
Ağrıya hamilə qaldım,
İmkan olsun azad olum.

19 iyul, 2012.

***

Gecənin gözləri qara,
Həsrət qaldım yuxulara.
Kor kimi əlindən tutub,
Düşmüşəm qərib yollara.

Gecənin yaxası açıq,
Gecə ömrümə sarmaşıq.
Əlim-qolum bağlanıbdı,
Bu gecə ilə yoldaşıq.

Gecənin nəfəsi isti,
İsti nəfəsimi kəsdi.
Dönmüşəm gecə quşuna,
Bilmirəm bu nə həvəsdi.

Gecənin qolları uzun,
Göstərəcək hər bir üzün.
Mənim dadıma yetişin,
Gecəni bəxtimdən pozun.

Gecənin əzəməti var,
Bu boyda da qonaq olar?
Tutub yaxamdan, əl çəkmir,
Xilas edin, ay adamlar.

Gecənin qəlbi döyündü,
Vuran nəbziylə öyündü.
Canımı aldı apardı,
Ayıq ruhumu geyindi.

22 iyul, 2012.

***

Hardasa ruhların görüş yeri var,
Ölümlə də demə qovuşmaq olar.
Lap o dünyada da axtaran tapar,
Nə olsun ki, sən ordasan, mən burda.

Toxunmadan gözlər-gözə, əl-ələ,
Bilirəm ki, ürəyindəyəm hələ.
Bəlkə məni sevən olmayıb belə,
Nə olsun ki, sən ordasan, mən burda.

Arada bir körpü var ki, keçilməz,
Tanrının alın yazısı seçilməz.
Sevgi varsa, məsafələr ölçülməz,
Nə olsun ki, sən ordasan, mən burda.

Bambaşqa dünyada vurur qəlbimiz,
Az qalıb, çox çəkməz bu həsrətimiz.
Mən də yol üstəyəm, qovuşarıq biz,
Nə olsun ki, sən ordasan, mən burda.

10 avqust, 2012.

***

Böyüyən ruh kimi bədənə sığmasam,
Hissimdən daşanı içimə yığmasam,
Heç nə olan deyil özümdən çıxmasam,
Bir addım o yana, bir addım bu yana.

Həyatla ölümün arası bir qarış,
Ya bu dünyadan küs, ya həyatla barış,
Tarazlığı saxla, dayanmağa çalış,
Bir addım o yana, bir addım bu yana.

Bükülən qəlbimin içində bağlama,
Açma, sirrli qalsın, çalış ki, yoxlama,
Gedən hər bir anı özündə saxlama,
Bir addım o yana, bir addım bu yana.

Dualar nəfəsdi, həyata üz verər,
Qaranlıq içində Tanrımız göz verər,
Bir işıq seli var, yolunu düz verər,
Bir addım o yana, bir addım bu yana.

Bədənim bir dünya, gözlərim şəhərim,
Duyğular çılğın at, əlimdə yəhərim,
Ölsəm də, qalsam da, açılır səhərim,
Bir addım o yana, bir addım bu yana.

Bu dünya tərəzi, adamlar da yükdü,
Yükün də yükü var, kiminki böyükdü?
Ləngər vura-vura dünya bizi çəkdi,
Bir addım o yana, bir addım bu yana.

19 avqust, 2012.

***

Biri sevdiyini bəyan eyləyir,
Biri nifrətini əyan eyləyir,
Biri yerə-göyə üsyan eyləyir,
Hər görüşən bir pay gözləyir məndən.

Bir ağacın üstə neçə budaq var?
Bir evin içində neçə yataq var?
Bir ürəkdə axı neçə otaq var?
Hər kəs öz yerimi istəyir məndən.

Adamlar qaynaşıb gözümə dolur,
Mənə yad nəfəslər yaxama qonur,
Zor ilə sevgini qazanmaq olur?
Nə olar, ruhumu üzməyin məndən.

Kiçildib, böyümək istəyənlər çox,
Tərifi rüşvəttək gözləyənlər çox,
Boğazdan yuxarı söz deyənlər çox,
Aranızda yoxam, küsməyin məndən.

26 avqust, 2012.

***

Anamız azad oldu,
Biz dünyaya doğulduq.
Ağalıq sona yetdi,
Bir ömürə qul olduq.

Doqquz ayın ləzzəti,
Damağımızda qaldı.
Kiçik dünya böyüdü,
Böyüklər işə saldı.

O gündən bu günədək,
Cəzamızı çəkirik.
Ayaq üstə qalxmışıq,
Sökə-sökə tikirik.

Bu dünya bir zindandı,
Bizlərsə cəzalılar.
Həbs olunduq həyata,
Azadlığa hələ var.

Diş ilə, dırnağ ilə,
Qaza-qaza gedirik.
Sözün qulluğundayıq,
Yaza-yaza gedirik.

Bizlərə iş kəsilib,
Neçə ildi. Baxarıq.
Bəlkə öləndən sonra,
Azadlığa çıxarıq.

10 sentyabr, 2012.

***

Yalançı dostların maskasını cır,
Altında gizlənən üzü görərsən.
Əyrilər şax gəzib, haqdan dəm vurur,
Ən fağır bəndədə düzü görərsən.

24 sentyabr, 2012.

***

Bir səs kəsdi dilimi…
Sözlər qıfıllandı boğazımda.
Nəfəsim də burxuldu.
Bu səs möcüzənin üzü idi.
Nə gözəldi,
İlahi.
Yaxşı ki, səsin gəldi.

29 sentyabr, 2012.

***

Ruhun üstə sözdü yatıb,
Ocağına oddu qatıb,
Ağac kimi kök də atıb,
Qopmağı - müşkül məsələ.

Gözdən adam salmaq asan,
Gözdən iraq qalmaq asan.
İtirilən olmaq asan,
Tapmağı - müşkül məsələ.

Məqsəd ola, çatmaq olar,
Göz görəsi batmaq olar.
Hər nə desən satmaq olar,
Almağı - müşkül məsələ.

Başlanılır, bitmək üçün,
Arzu ki, var, yetmək üçün,
Hamı gəlir getmək üçün,
Qalmağı - müşkül məsələ.

29 sentyabr, 2012.

***

Şair - sözün qələmidi,
Həm də qələm tutan əlləri.
Söz - ulu babamızdı,
Şeir - sözün nəticələri.

29 sentyabr, 2012.

***

Üzünün işığını qapama.
Onsuz da görən yoxdu.
Bura korlar məclisidi,
Baxma ki, adam çoxdu.
Burdakılar yarasalardı.
İşıqdan qorxanlardı.

29 sentyabr, 2012.

***

Evim toz-torpaq içində,
Hamı yatıb, cibim boşdu.
Ağlım ruhumun cibində,
Canım xəstə.
İçimdəsə toy-bayramdı.
Yeni bir söz doğdum indi,
Qoydum onu kağız üstə.
Bu söz - ən əziz balamdı.

30 sentyabr, 2012.

***

Ayağımın altında əzilmək istəyir,
Mənim əllərimdə ölmək istəyir,
Mənə cəllad adı vermək istəyir.
Sən sevginin könüllü qurbanısan.
Nə edirsən et, bircə sınma.
Ayağımı günaha batırma.
Əllərimi qana bulama.
Toxun toxunulmazlığıma,
Amma,
Adıma toxunma.

30 sentyabr, 2012.

***

Dünyanı alt-üst edib,
Eşqə yol aldıq, tutduq üz,
Sən demə, eşq axtarır,
Qurbanını gecə-gündüz.

3 oktyabr, 2012.

***

Taleyin şilləsindən,
Üzümə qanım çıxıb.
Sözlə düyün açmaqdan,
İnan ki, canım çıxıb.

Axsayaraq gəzirəm,
Söz - əlimdə çomağım.
Bu laxlayan dünyamda,
Tarazlığım, dayağım.

Sözümə bükün məni,
Beşikdə yırğalayın.
Məni bir az öldürün,
Bir az sözə saxlayın.

13 oktyabr, 2012.

***

Üzükdü, taxılıb incə barmağa,
Adı qızıldısa, qarışığı var.
Rəngini dəyişib bozarsa belə,
Bir gözəl əlində yaraşığı var.

13 oktyabr, 2012.

***

Bəxtimin ağası cinayət edib,
Ömür oğurlayıb, çalıbdı məndən.
Yaşımın illəri xəlvətcə gəlib,
Gözəl nə vardısa, alıbdı məndən.

Bədənim əzilib, gözə görünmür,
Ürəyim yıxılıb, hələ sürünmür,
Ruhum da dağılıb, amma bölünmür,
Özündən keçənim qalıbdı məndən.

Ağaca köçmüşəm, budaqdayam mən,
Səhərin şehiyəm, yarpaqdayam mən,
Kökümlə əbədi torpaqdayam mən,
Tanrım duyğu yolu salıbdı məndən.

13 oktyabr, 2012.

***

Toyumuzun 35 illiyinə İndicə qapım döyüldü,
Bir dəstə gül gəldi mənə.
Öz həyat yoldaşım idi,
Çaşıb baxdım gözlərinə.

Səbəbini soruşmadan,
Gülləri aldım əlindən.
Nə bir təbrik, nə bir cavab,
Eşitmədim ki, dilindən.

Fikirləşdim, bəlkə yenə,
Gül satana rəhmi gəlib.
Xeyir verib bir adama,
Kiminsə işi düzəlib.

Birdən yadıma düşdü ki,
Bu gün ayın on beşidir.
Bu gül - otuz beş il öncə,
Qurulan toyun işidir.

İllər necə gəldi-keçdi,
Balaca qız nənə olub.
Otuz beş il döyüşmüşəm,
Nə olubsa, mənə olub.

Təbrik edin, qocalmışam,
Vaxt alnıma qırış taxıb.
Həyat elə toy tutub ki,
Evcik-evcik oynamaqdan,
Toy günüm yadımdan çıxıb.

15 oktyabr, 2012.

***

Əlim dəysə dağılacaq,
Nəfəsimi qısıb baxdım.
Gözlərimə gəlib çıxıb,
Sözü uddum, susub baxdım.

Gəncliyimdən qopan qonağ,
Üst qatımı soydu yenə.
Silkələndi, üzə çıxdı,
Duyğuları oydu yenə.

Qaldırdım göz qapağımı,
Çıxdım yuxu ocağından.
Bir az heyrət, bir az dəhşət,
Bir az nisgil otağından.

Durdum yenə ayaq üstə,
Hər tərəfi yığışdırdım.
Yerə düşən qabıqları,
Öz yerinə yapışdırdım.

20 oktyabr, 2012.

***

Gecənin yalanlarını,
Səhərin üzü açır.
Saxtakar donu geyinən
Nəfəslər qorxub qaçır.

Küləyə bürünür işıq,
Döyərək pəncərəni.
Yalanın ayaq açsa da,
Şüşəyə çırpır səni.

Qaranlıq bir gün yenə də,
Yalana can verəcək.
Gözlərin ağı qaradan,
Seçməyi öyrənəcək.

21 oktyabr, 2012.

***

Bir küçə, bir adam, bir də yalqızlıq.
Bir adam, bir ürək, bir də haqsızlıq.
Bir ürək, bir nifrət, bir də qansızlıq.
Bir nifrət, bir əzab, bir insafsızlıq.
Bir əzab, bir ölüm və vicdansızlıq.
Bir ölüm, bir küçə və Adamsızlıq…

24 oktyabr, 2012.

***

Qurban verən kama yetər,
Ağrı gələr, sonra gedər.
Allah özü qəbul edər,
Baxır hansı qurbanın var.

24 oktyabr, 2012.

***

Bütün hisslər öləndə,
Ağrımız kara gəlir.
Deyir ki, hələ sağsan,
Adam lap zinhara gəlir.

25 oktyabr, 2012.

***

Kimsə köçüb içimdən,
Ləpirləri görünür.
Yerinin boşluğunda,
Kimsəsizlik sürünür.

Hər tərəf xarabalıq,
Bayquşun səsi gəlir.
Yığıb-yığışdırmağa,
Kimin həvəsi gəlir?

Kimsəni gözləmirəm,
Qəlbimi sökən gəlsin.
Qurub, yıxıb, dağıdıb,
Evimi tikən gəlsin.

26 oktyabr, 2012.

***

Yaman üzümə baxırsan,
Axtardığını çətin tapasan.
Çünki, onu itirmişəm.
Ünvanını da bilmirəm.
Öyrənsən -
Bir gün mənə də deyərsən.

27 oktyabr, 2012.

***

Səssizlik, hayqırtı, gəliş,
Çabalama və yüksəliş.
Hayqırtı, səssizlik, gediş,
Adi, həyati bir vərdiş.

27 oktyabr, 2012.

***

Qadın sevgilisinə,
Qəmzə edər, naz edər.
Mən də dəlicəsinə,
Qurşanıb sevgisinə,
Gah səsə naz edirəm,
Gah sözə naz edirəm.
Atılıb qucağına,
Səslə nəfəs alıram,
Sözə təslim oluram.

27 oktyabr, 2012.

***

Al məni də içinə,
Yerini dar etdimsə.
Yaşamaq istəmirəm,
Nəzərindən itdimsə.

Tutuldum əllərinlə,
Tutdum səni gözümdə.
Adamlıqdan çıxardım,
Sığalındı üzümdə.

Hər şeyimi itirdim,
İtirmədiyim tək Sən.
Dağıldım, parçalandım,
Heç vaxt bölünməmisən.

İnandınmı sevgimə?
Yoxsa, yenə sınaq var?
Gördün, əyilməmişəm,
Qurtarsın bu sınaqlar.

Sən məni seçdin artıq,
Sevdiyini bilirəm.
Ağlım, ruhum, ürəyim,
Sənə doğru gəlirəm.

Gəlirəm, gələ-gələ,
Get-gedə ələnirəm.
Hisslərimlə soyulub,
Vücudumu soyunub,
Ruhuma bələnirəm.

27 oktyabr, 2012.

***

Nəfsinə güc gəl, itilən,
Həzm olunmur hər verilən.
Ey gözü ac varlı - dilən,
Hər gedən bir can aparır.

Bəxtini kor edənləri,
Özgəsini güdənləri,
Ağıldan kəm gedənləri,
Vaxt gəlir zindan aparır.

Dostlarına quyu qazan,
Haqq yolunu çaşıb azan,
Yazılanı özü pozan,
Əllərini qan aparır.

Hər yetənə bir badalaq
Vurdu yenə həzz alaraq.

Beləsi tor oynadaraq,
Şeytana mehman aparır.

Əlvida deyib qeyrətə,
Satılıbdı var-dövlətə,
Boyun əyib bir qismətə,
Özünü qurban aparır.

29 oktyabr, 2012.

***

Özümə söz verdim dünən,
Bir də qəmdən yazmayım heç.
Xatirələr yaxaladı,
Dedi - dostum, yuxarı keç.

Qəmin dili çox uzunmuş,
Söhbət edib yordu məni.
Vərəqləndi ömrün üzü,
İllərimə vurdu məni.

Cırdığım çox səhifənin,
İşarəsi pozulmayıb.
Yaşadığım əzabların,
Dərəcəsi azalmayıb.

Özümə söz verdim axır,
Kədəri bir yana atım.
Dostlarımın kefini də
pozmadan sevincə çatım.

Ən müqəddəs günlərim də,
Yada düşdü bir anlığa.
On illəri fırladaraq,
Gedib çıxdım cavanlığa.

Həyatımın sevincini,
Kədərimə bağışladım.
Yaşadılar sevdiklərim,
Onlara baxıb yaşadım.

Nə yazdımsa, sona çatsın,
Bədbinliyə qıfıllanım.
Özümə söz verdim axı,
Yavaş-yavaş ağıllanım.

Şair sözə baxan olmaz,
Hissimi faş etdim yenə.
Üzə çıxan ağrıları,
Bu gün təraş etdim yenə.

29 oktyabr, 2012.

***

Bir ovuca sığışmışdım,
Nəfəsində, səsindəydim.
İtirilmiş bir adamdım,
Gözlərinin içindəydim.

Sevginin də yuxusu var,
Bu yuxunu hamı görür.
Kimi hissini öldürür,
Kimi hissə-hissə ölür.

Ölən sevgilərin yeri,
Ürəklərdə qazılacaq.
Başdaşının üzərinə,
Görəsən nə yazılacaq?

31 oktyabr, 2012.

***

Nə çox səs var havada,
Havanın səsi batıb.
Boğazımdan keçməyə,
Qəfil həvəsi yatıb.

Qapımı, pəncərəmi,
Möhkəm-möhkəm bağladım.
Havasız otağımın,
Havasını yoxladım.

Hisslərim oynayırdı,
Ağlımın havasına.
Nəfəsim yavaş-yavaş,
Çəkildi yuvasına.

Cənnətmi, cəhənnəmmi,
Hər nə isə xoş gəldi.
Bilmirəm nə oldusa,
Əcəl də sərxoş gəldi.

Mənim havamı çaldı,
Oynatdı gözü üstə.
İçimdə rəqs elədi,
Yıxıldı üzü üstə.

Deyəsən bu havadan,
Yenə də qalib çıxdım.
Bu hay-küyün içindən,
Ölsəm də diri çıxdım.

1 noyabr, 2012.

***

Mərkəzdən kənara atırlar,
Olduğu yerdə mərkəz qurur.
Eyni əllə çəkilən sığal,
Şillə kimi ürəyi vurur.

1 noyabr, 2012.

***

Pianonun dillərindəyəm,
Gah minoram, gah majoram.
Qara dilin əllərindəyəm,
Qara əllərdə fors-majoram.

2 noyabr, 2012.

***

Bomboş dəyirman kimi,
Səsi başıma düşdü.
Kal fikirlər yeməkdən,
Dil-dodağım büzüşdü.

Sözləri qatar kimi,
Kənar relsin üstədi.
Elə sürət götürüb,
Canımıza qəsddədi.

Bu məkanı tərk etdik,
Cəzadan çıxdıq sanki.
Yaralandıq hamımız,
Qəzadan çıxdıq sanki.

2 noyabr, 2012.

***

Yer kürəsindən
kənara atılsam,
Böyük itki olmayacaq
yəqin ki…
Uzaqbaşı, dünyada
bir adamboyu
yer artacaq…

2 noyabr, 2012.

***

Bu yağışlı gecədə,
Bir duyğu axtarıram,
Büküb əzizləməyə.
Bu yağmurlu şəhərdə,
Bir yarpaq axtarıram,
Altında gizlənməyə.

2 noyabr, 2012.

***

Göyün ürəyinin sözüdü yağış,
Şeir kimi deyil, roman kimidir.
Hər damcı, bir vərəq çevirir sanki,
Sözləri - şəhərdə duman kimidir.

Bu yağışın altda dayanıb indi,
Neçə-neçə ömür vərəqlənirik.
Titrəyən bədənlər yağış geyinir,
Soyunan ağaca səpələnirik.

Yağış da çırpınır, küçədən keçir,
Ağlayır, sürünür, yıxılır indi.
Dənizin içində «Yağış» romanı,
Bir əsərə dönüb, doğulur indi.

2 noyabr, 2012.

***

Yuyundu deyəsən hər şey
bu yağışla.
Pəncərənin izləri də,
Küçələrin tozları da,
Göylərin ulduzları da…
Yağış yenə də islatdı
çiyinlərini qısaraq
başını götürüb qaçan
adamları.
Bir az da yuyub apardı
havadan asılı qalan
duaları!!!

2 noyabr, 2012.

***

Payız da can verir, çırpınır hələ,
Yağışı, küləyi çıxır boğazdan.
Titrədir, üşüdür, canı çıxarkən,
Ömrünü tapşırar qışa bir azdan.

3 noyabr, 2012.

***

Şəhərə ayrılıq havası qonub.
Şəhərin elə bil gözləri dolub.
Yaşamağa həvəsi ölüb.
Şəhər, üzünü gizlədib,
Başını qoyub ağlamağa
diz axtarır…
Hıçqırıqdan boğularaq,
İçində çatlayıb qalan
duyğuları
tapdalayan adamlara,
Söz axtarır…
Ağla, boşal,
Səsin gəlsin.
Ayrılığın havasını
qov yaxandan.
Çırp tozunu, çıx dumandan.
Bu gecədən, səhərə dön…
Yenə də sevib sevilən
şəhərim ol…
Şəhərə dön…

4 noyabr, 2012.

***

Gözlərində yaşın yükü,
Ruhun üstə ağır çəki,
Dünyada durub, çəpəki,
Hələ də gülməyin gəlir?

Ürəyindən yıxılmısan,
Yumruğuna sıxılmısan.
Boş havaya taxılmısan,
Hələ də sevməyin gəlir?

Sakitliyi pozaq yenə,
Yeni həvəs qataq günə.
Mən də qoşuluram sənə,
Yenə də ölməyin gəlir?

6 noyabr, 2012.

***

Yu…
Üzünü aparmaz Allahın
suyu…
Dərin ola bilər qazılan
quyu…
Həddindən uzundu kədərin
boyu…
Çalınıb qurtardı həyatın
toyu…
Toyu çalınan həyatın, uzun
boyu qədər qazılan kədərli
quyunun
suyu ilə üzünü
yu…
Uyu…

6 noyabr, 2012.

***

Sevgi - xəstəlikdi, adı da - Azar,
Qızdırıb, bədəndən ruhu qoparar.
Ürəyi, duyğunu, hissi yaxalar,
Sonra ya öldürər, ya da yaşadar.

7 noyabr, 2012.

***

Hansı günümdən danışaq,
Bir günüm olmayıb ki.
Yıxılanda əl tutacaq,
Sağ yerim qalmayıb ki.

Yandıran nə varsa yasaq,
Hamısı da oyuncaq.
Canımda qalan o uşaq,
Heç yaşa dolmayıb ki.

Yazılanlar qismət, baxtsa,
Körpəyə bir beşik yoxsa.
Məni öz anam, nə vaxtsa,
Əlindən salmayıb ki?

8 noyabr, 2012.

***

Beyninə elə bil sayğac qoşubdu,
Haqq-hesab etməkdən qanı coşubdu,
Ünvanı itirib, yəqin çaşıbdı,
Özgənin cibində əli tutulub.

Əyilib gəzməkdən olub ikiqat,
Zəhmətsiz, filansız yetişir sovqat,
Adamlıqdan çıxıb, vücudu bərbad,
Qaş-gözü oynayır, dili tutulub.

Ürəyində daş var, keçən deyil ki,
Həyata məhkumdu, köçən deyil ki,
Onsuz da sərxoşdu, içən deyil ki,
Diri bədəniylə, ölü tutulub.

8 noyabr, 2012.

***

Ümidə pəncərə açdım,
İşıq düşsün əllərinə.
Qəfildən qapım döyüldü.
Qapımı özüm açsam da,
Hücum edən külək, birdən,
Pəncərəni çırpıb getdi,
İşığın ümidlərinə…

10 noyabr, 2012.

***

Sən özündən keçəndə,
Özünü tapdaladın.
Çatdığın, varlıqdımı?
Özündən artıqdımı?

10 noyabr, 2012.

***

Qəribə bir xiyabandı,
Sanki ovsuna düşürsən.
Qara mərmərin üstündə,
Adamlarla görüşürsən.

Hər birinin tarixçəsi,
Hər kəsin öz taleyi var.
Bir ocağa yığışıblar,
Burda tükənib arzular.

Sakitliyin arasında,
Nəfəsləri də diridir.
Son sözləri bilinməyən,
Son duaların yeridir.

Əl-ələ verib yatanlar,
Gözlərdə dağ çəpəridir.
Bədənləri bu torpaqda,
Ruhların sağ çəpəridir.

Gülllədən keçib gəliblər,
Torpağa can tapşırıblar.
Gedərkən, əmanət kimi,
Bizlərə qan tapşırıblar.

Burdan ehtiyatla keçin,
Qurbanların yuvasıdır.
Şəhidləri sığallayan,
Cənnətin ruh havasıdır.

Nəfslər də təmizlənsin,
Havaya ləkə düşməsin.
Qara mərmər, qırmızı gül,
Bir də heç vaxt görüşməsin.

10 noyabr, 2012.

***

Günəş - gün ortasında,
Günün qəm yanğısında.
Hamı bir günə çıxdı,
Mən - günün ağrısında.

12 noyabr, 2012.

***

Üzümə Allahın nəfəsi dəydi,
Yenidən yaşatmaq həvəsi dəydi.

12 noyabr, 2012.

***

Yük altda ayaqlar düz yola həsrət,
Yuxuma xoşbəxtlik döngəsi düşər.
Sərinlik axtaran yüz ağac tapar,
Mənə də buludun kölgəsi düşər.

12 noyabr, 2012.

***

Kədəri qucaqla, bağrına da bas,
Çünki hər qaçdığın səni təqibdə.
Yaxanda kədərin üstünü basdır,
Üzə çıxacaqdır nə varsa dibdə.

12 noyabr, 2012.

***

Dünyanın sürəti artıb deyəsən,
Hamı ləngər vurur, tarazlıq itib.
Sən demə, olum da həvəsə gəlir,
Ölüm qapısının yanından ötüb.

İlləri, ayları dəfn eləyərək,
Qaranlıq səhərdən aşmaq havası.
Elə bil, gecəni görən olmayıb,
Hər yanda zülmətdən daşmaq havası.

Bir toxum verilib, cücərdəni var,
Bəsləyib, yoxluğu yetişdirirlər.
Kimlərsə, dünyanın çatı üstündən,
O tayla, bu tayı bitişdirirlər.

Dünyanın sonuna gəlmişik guya?
Əvvəli haraydı? Onu görən var?
Onsuz da hər səhər, hər gecə, hər gün,
Dünyanın sonuna salam verən var.

Evini, alınmaz qala sayaraq,
Hamı, hər gün, nəsə daşıyır hələ.
Ölüm meydanından çox-çox yuxarı,
Bizi sevən Allah yaşayır hələ.

12 noyabr, 2012.

***

Dedilər ki, sevinc - kədəri boğar,
Sevinmişdim. Boğmadı.
Dedilər ki, sabah - bu günü yıxar.
İnanmışdım. Yıxmadı.
Dedilər ki, Allah üzünə baxar.
Görən, baxdı, baxmadı?

12 noyabr, 2012.

***

Həyat - bir öpüş qədərdi,
Toxunub, aparır.
Sevgi - bir şeir qədərdi,
Oxunub, aparır.
Ölüm - bir yuxu qədərdi,
Pozulub, aparır.
Dünya - sonuna qədərdi,
Yazılıb, aparır.

13 noyabr, 2012.

***

Qapılarım örtülüb,
Külək hələ də əsir.
Pəncərəmi titrədir,
Səsi evimdə gəzir.

Çöldə külək, evdə mən,
Yorğunuq hər ikimiz.
Divarlardan tutmuşuq,
Ağırlaşıb çəkimiz.

O, küçədə darıxır,
Mən ruhun yaxasında.
Hər ikimiz qalmışıq,
Qapılar arxasında.

16 noyabr, 2012.

***

Yavaş-yavaş azalıram,
Düşürəm közün üstünə.
Sən də gəlib çıxdın indi,
Nəfəsin, sözün üstünə.

16 noyabr, 2012.

***

Qıfıllanıb duyğularım,
Ürəkdən nə isə sızır.
Halsız düşən bu əllərim,
Sızanı yazmağa hazır.

Barmaqlarım, ürəyimdən
Etibarlı çıxdı yenə.
Sinəmi sıxan ürəyi,
Verdi qələmin əlinə.

Yazdığımın havasına,
Üstümdə başım tərpəndi.
Qıfıllar da sınıb düşdü,
Sinəmdən daşım tərpəndi.

16 noyabr, 2012.

***

Sözünə yazığın gəlsin,
Səpələmə…
Dinlənilməyən bir yerdə,
Dilinə də gətirmə,
Dəyərini itirmə…

Özünə yazığın gəlsin,
Baxışlarla qoparılıb,
Paylanaraq parça-parça,
Rəssamlar əlində fırça
olaraq,
Haraya gəldi
çəkilmə…

Özgürlüyü itirmə,
Özgəlikləri götürmə.
Özündə ol…
Sözündə ol…

18 noyabr, 2012.

***

Gözəllik - Bir qarının
üzünə sığal çəkən qırışlarıdı,
Nurlu baxışlarıdı.
Gözəllik - Bir qocanın,
Ağac kötüyünə dönən barmağının
qabarlarıdı.
Gözəllik - Bir körpənin
tam açılmayan dilidi,
Ananın döşündən tutan
dodaqlarıdı, əlidi.
Gözəllik - Tək-tənhalıqda
öz libasını soyunub,
Budağı göyə dartınan
bir ağacdı.
Gözəllik - Göy sinəsini
yırtan Ayın, yuxarıdan aşağıya
boylanmasıdı.
Günəşin - özü görünmədən
işığının rənglənməsidi.
Gözəllik - Ən çirkin bir adamın
dünyaya, həyata gülümsəməsidi,
Ruhunun nəfəsidi.
Gözəllik - Dənizin yatması,
Oyanması, gecənin laylası,
Çırpınması, səhərin gözünü
açıb oyanmasıdı.
Gözəllik - Fəsillərin gəlməsi,
Təbiəti geyindirib,
Soyundurmasıdı.
Gözəllik - Buludun ağlaması,
Qarın süfrə salması,
Küləyin oynaması,
Şimşəyin çatlaması,
Baharın naz atmasıdı.
Gözəllik - Bu gözəllikləri
görən, duyan bir insanın,
Bir insanı sevməsidi.
Gözəllik - Bir bəndənin
Allaha sığınmasıdı,
Tanrısını görməsidi.
Öz içində İlahini
tapmasıdı…
Gözəllik - Bir insanın
doğulması,
Torpaqdan yaranıb,
Torpağa qurban
getməsidi…
Gözəllik - Adam kimi
yaşayan bir Adamın,
Adam kimi ölməsidi.

18 noyabr, 2012.

***

Bataqlıqdan yan keç, düşmə,
Öz ürəyindən sürüşmə,
Yarımcan ilə bölüşmə,
Göydən yerə satılarsan.

Nəfəsinə ləkə salma,
Heç nədən asılıb qalma,
Fırtınada qayıq olma,
Dənizlərdə batılarsan.

Varlığının qədrini bil,
Onsuz da yaş qoparır il,
Nankorları ömürdən sil,
Dəyərsizə qatılarsan.

Seçilmisən, seçilən ol,
Sınıq, sökük olsa da yol.
Sağ ilə get, haramdı sol,
Solaxayla atılarsan.

19 noyabr, 2012.

***

Böyüdükcə böyüdüm.
Yumruğumun düyünləri bərkidi.
Ayağımın addımları atıldı,
Gözlərim bu genişliyə qatıldı.
İçinə dünya sığışdı bəbəklərimin,
Dizlərimin taqəti artdı.
Gücü artdı biləklərimin,
Bir az boyum ucaldı,
Bir az gözüm açıldı.
Həyatımın nöqtələri,
Dairəyə çevrilərək, aldı məni
əhatəsinə.
Duyğularım, hisslərimin
səsinə qulaq kəsildi.
Ürəyim böyüyə-böyüyə,
Böyüklüklə əzildi.
Böyüdükcə, bu genişlik,
Dar gəldi,
Ruhumun havasına.
Açılan bu böyüklük,
Cırılaraq çevrildi,
Hisslərimin, ruhumun,
Bir nimdaş
çuxasına…

21 noyabr, 2012.

***

Kimlərisə boğa-boğa böyüyənlər,
Ətrafında boğulanlar
ordusu yaratdılar…
İçlərində - o balaca,
Doğulmayan, sakit, məsum
körpələri,
Bətnlərdən qopartdılar…
Kimsəsizliyə atdılar…
Boğulanın nəbzi vurur,
Bilirsizmi?..
Yetimlərin səsi gəlir,
Eşidirsizmi?..

22 noyabr, 2012.

***

İllərim gəzib gedir,
İzini düzüb gedir.
Cavanlıq - il altından,
Əlini üzüb gedir.

Hisslərim itilənir,
Ətrafım ütülənir.
Ağacımdan düşənlər,
Gözlərimdən ələnir.

İlin təhvilindəyəm,
Sözümün əlindəyəm.
Hələ ki, çapa bilən,
Həyatın belindəyəm.

22 noyabr, 2012.

***

Doluydum, bomboş kimiyəm,
İçimdə sərxoş kimiyəm,
Deyəsən naxoş kimiyəm,
Qəbul edərsənmi məni?

Üzümdə ağrılar qat-qat,
Bir dərd gətirirəm sovqat.
İstəyirsən, sən də aldat,
Qəbul edərsənmi məni?

Başım bəlalı gəlirəm,
Dilim dualı gəlirəm,
Ruhum havalı gəlirəm,
Qəbul edərsənmi məni?

Qələm verdin pozam, yazam,
Dünya verdin orda azam,
Allah, günahkar yalqızam,
Qəbul edərsənmi məni?

Ətəyinə sürünürəm,
Yox deyiləm, görünürəm,
Ölməyə də ərinirəm,
Qəbul edərsənmi məni?

Qapını aç, mən də gəlim,
Eşitmirəm, laldı dilim.
Bir işarə et ki, bilim,
Qəbul edərsənmi məni?

22 noyabr, 2012.

***

İki ayaq, iki əl birgə,
Bir ürəyə dərd olmayacaq.
İki göz üstə, iki göz,
Cavab - birdi, dörd olmayacaq.

23 noyabr, 2012.

***

İli çiynimdən atdım,
Bu sabaha əl qatdım,
Təzə bir günə çatdım,
Həyata üz göstərdim.

Sakitliyə səs düşdü,
Yeni bir nəfəs düşdü,
Könlümə həvəs düşdü,
Kağıza söz göstərdim.

Sönən bir ocaq vardı,
Boş qalan bucaq vardı,
Soyuyan qucaq vardı,
Yanmağa köz göstərdim.

Duyğu burulğanında,
Ürək durub yanımda,
Hissin, həyəcanın da,
Yolunu, düz göstərdim.

Günəş doğur ömrümə,
Nəğmə düşür qəlbimə,
Mənim qonaq evimə,
Keçməyə, göz göstərdim.

1 yanvar, 2012.

***

Qırılanı birləşdirmək istəyirsən?
Əlinin gücü çatmaz.
Sənin saldığın bu iz,
Olacaq ömürboyu
yaralı xatirəmiz.

1 yanvar, 2012.

***

Yuxu görür bu adam.
Üzünə yuxunun şəkli çıxıbdı.
Bu yuxuda bir imtahan var
deyəsən.
Dur yuxudan, yatan adam.
Bəlkə onda,
Bu yuxudan oyananda,
Həyatı çox sevəsən.

1 yanvar, 2012.

***

Qalxır kədərin buxarı,
Çəkib aparır yuxarı.
Budur həyatın axarı,
Ruh göyə, can yerə düşür.

Ömür dönür varaq-varaq,
Oxunur kitab olaraq.
Gecəni yola salaraq,
Dirilmək, səhərə düşür.

Görəndə öz Tanrısını,
Eşidəndə duasını,
Bu anda söz qapısını,
Açmaq, bir şairə düşür.

1 yanvar, 2012.

***

Yüz qapı var, seçməsi müşkül,
Su verilib, içməsi müşkül,
Yoldu gedir, keçməsi müşkül.

Sazdı çalır, yanğısı dahi,
Sevgi gəlib, ağrısı dahi,
Tanrı səsi, sorğusu dahi.

Yaşdı keçir, saymasan olmur,
Candı şirin, qıymasan olmur,
Üz qabığın soymasan olmur.

Həftə gəlir, ayda tamamdı,
Ağrı yükü, vayda tamamdı,
Yerdə keçid, göydə tamamdı.

1 yanvar, 2012.

***

Kimsə sənə həsrət qalıb,
Gözləyir qapı döyülsün.
Qorxur ki, görüşün ilə,
Qəfil ovqatı dəyişsin.

Baxışınla kükrəyirsən,
Sözünə ehtiyac qalmır.
Üzünü bağlı saxlasan,
Qaranlığa əlac qalmır.

Sənə üz tutub gələni,
Özünə məhrum eləmə.
Öz əlinlə ürəyini,
Cəzaya məhkum eləmə.

Üz döndərib həqiqətdən,
Bilmədən günah edirik.
Bağışlayır Tanrı özü,
Biz axı Allah deyilik.

1 yanvar, 2012.

***

Qaranlıqda dayanıb,
Sehirmi gözləyirsən?
O sehir sən özünsən.
İçinin zülmətiylə
bu qaranlıq toqquşub
qığılcım yaradacaq.
O da bu qaranlıqda
sənin ruhundan doğan
sehrin özü olacaq.

9 yanvar, 2012.

***

Göyə şehtək qonan bulud,
Gözün həsrətdən nəm çəkib.
Qəlbini aç bu torpağa,
Dayanma göydə qəm çəkib.

Sənin məkanın böyükdü,
Yağmağa bu yer üzü var.
Qəlbimə dolan buludun,
Bir üzü var, cüt gözü var.

Kaş sənintək göyə çıxıb,
Hər tərəfə yağa bilim.
Səpilən hər damlaların,
Bəhrəsini yığa bilim.

Ürəyimin yağışları,
Kağız üstə səpələnir.
Qəlbimin buludu yağır,
Yağış nəğməylə ələnir.

Ruhumdan doğan buluddan,
Cüt evlad gəldi dünyaya.
Biri şeir, biri nəğmə,
Uçub getdilər səmaya.

Məndən salam apardılar,
Buludlara, ulduzlara.
Bəlkə salamım onlarla,
Yetişəcək ünvanlara?

9 yanvar, 2012.

***

Qaranlıq - işıqsız yer.
İşıq - qaranlığı qovan.
Qorxu - qaranlıqdan doğulan
qorxulu bir an.
İşıq tut qaranlığa,
Qorxun yox olacaq.
O zaman,
Qorxusunu işıqla boğan,
Bir adam işığı doğulacaq.
Bu işığa milyonlar yığılacaq.

14 yanvar, 2012.

***

Küləyin söhbəti - meh.
Çiçəyin göz yaşı - şeh.
Ağacın balası - bar.
Göydən gələn sehr - qar.
Gecənin ürəyi - Ay.
Övladın bir adı - pay.
Hər şeyə ad verən - söz.
Duyğuların səsi - göz.
Dəniz qapısı - sahil.
Diriykən ölü - cahil.

14 yanvar, 2012.

***

Dünyaya doğulan gündən,
Hamı nə isə axtarır.
Kimsə öz itirdiyini,
İtən kimisə axtarır.

Ürək - sevməyin yolunu,
Yıxılan - insan qolunu,
Allah - sevdiyi qulunu,
Səni də kimsə axtarır.

Qəfil beli büküləni,
Vicdan evi söküləni,
Dizi üstə çöküləni,
Yenə də kimsə axtarır.

Kor kimi divardan tutan,
Günah dənizində batan,
Hər kəsin yanında yatan,
Qəmi də kimsə axtarır.

Gizlənməkçün bircə anı,
Ruhu yaşayan məkanı,
Gözü bağlayan dumanı,
Çəni də kimsə axtarır.

Körpə - ananın döşünü,
Fələk - qəfil görüşünü,
Ruhlar - geri dönüşünü,
Onu da kimsə axtarır.

Kimsə ölüm qapısını,
Kimsə isti yuvasını.
Bir yetim öz anasını,
Məni də kimsə axtarır.

17 yanvar, 2012.

***

Torpağa təpik atma,
Qopub üzünə dəyər.
Göyə tulladığın söz,
Dönüb özünə dəyər.

Yenə sarmaşıq kimi,
Harasa dırmaşırsan.
Yuxarıdan aşağı,
Baxmağa çalışırsan.

Ağacdan ibrət götür,
Bar gətirib baş əyir.
Sənin əlindən isə,
Hər yetənə daş dəyir.

Sən sərçələrdən soruş,
Göylərin havasını.
Qartala əl uzatma,
Göstərməz yuvasını.

Hər yerin öz sakini,
Sən də öz yerini tap.
Bu ölənlərdən əl çək,
İçində dirini tap.

Ağız, burun qanayır,
Üz üstə yıxılanda.
Sənin qanadın yoxmuş,
Dünyaya doğulanda.

Odur ki, torpaq üstə,
Möhkəm durmağı öyrən.
Daş üstə daş qoyaraq,
Mənzil qurmağı öyrən.

İlləri xırdalayıb,
Ay ilə oynama sən.
Allahın bəxş etdiyi,
Pay ilə oynama sən.

Torpaqdan doğulanlar,
Bu torpağa dönəcək.
Səni sevən onsuz da,
Torpaq üstə sevəcək.

23 yanvar, 2012.

***

Qar yağır, rəqs eləyir,
Göydən xəbər çiləyir.
Azadlığa çıxaraq,
Bizə nəğmə söyləyir.

Rəngləri pozub yağır,
Səmadan azıb yağır.
Hər kəsin niyyətini,
Yaxşıya yozub yağır.

Öpüşür ağaclarla,
Görüşür adamlarla.
Danışır öz dilində,
Cavabsız suallarla.

Ağ libasını geyir,
Yer üzünə baş əyir.
Hamı diqqət kəsilib,
Qar sözsüz şeir deyir.

24 yanvar, 2012.

***

Nəyəsə toxunub sınıb bu adam,
Üzdə cizgiləri dəyişilibdi.
İçindən ataraq köhnə adamı,
Yeni bir varlıqda zühur edibdi.

Kiməsə toxunub sınıb bu adam,
Sınığın bitişən çatı görünür.
Geyinib gəzsə də adam içində,
Həm alt qatı, həm üst qatı görünür.

Bir səsə toxunub, sınıb bu adam,
Ruhu bədənində axsayır indi.
Nə diri kimidir, nə ölü kimi,
Naməlum varlığa oxşayır indi.

Həvəsə toxunub, sınıb bu adam,
Əldədi qüruru oyuncaq kimi.
Özünü yandırıb yoxa çıxacaq,
Kimsəyə gərəksiz bir ocaq kimi.

Nəfəsə toxunub, sınıb bu adam,
Xəbəri naməlum ölümdən gəlir.
Çox şeyi bacara bilməyən adam,
İndi nə istəsən əlindən gəlir.

25 yanvar, 2012.

***

Balaca arzu içində,
Möhtəşəm istəklər yatır.
Kiçiklər əl-ələ verib,
Böyük arzunu oyadır.

Hər şey böyümək istəyir,
Həm canlısı, həm cansızı.
Böyüyərək yer tutacaq,
Vicdanlısı, vicdansızı.

Bir körpə də boy atdıqca,
Öz ömrünü böyüdəcək.
Milyonlara həyat verən,
Ölümünü böyüdəcək.

Yaş üstünə yaş gələcək,
Yaşın illərdən keçəcək.
Sənin bu böyümək yolun,
Tutan əllərdən keçəcək.

Böyüdükcə içindəki,
Kədərin də böyüyəcək.
Yol uzunu dönə-dönə,
Ürəyin də döyüləcək.

Böyüyürsən, üzündəki
qırışların da böyüyür.
Sevgi dolu, nifrət dolu,
Alqışların da böyüyür.

29 yanvar, 2012.

***

Ürəyə sevgi düşür,
Qəribə dövran gəlir.
Sevginin qucağından,
Dünyaya insan gəlir.

İnsanların əlləri,
Birləşib haqq yaradır.
Milyonların birliyi,
Yenilməz xalq yaradır.

Ruh adamları birgə,
Mədəniyyəti qurur.
Xalqlar torpaq üstündə,
Bəşəriyyəti qurur.

5 fevral, 2012.

***

Bərəkətsiz torpaqdısa,
Nəsə yetişdirmək olmaz.
Güzgüsü iki bölünüb,
Onu bitişdirmək olmaz.

Düşüncəsi toz içində,
Keçmişdə ilişib qalıb.
Bilə-bilə əyri gedir,
Ağıldan sürüşüb qalıb.

Boş yer gəzir oturmağa,
Özünün məkanı yoxdu.
Böyük bir arabası var,
Onun da sükanı yoxdu.

Hər addımı səhvlə dolu,
Həmişə haqqdan danışır.
Hamıya rişxənd edərək,
Elə nahaqdan danışır.

Mənfi enerji daşıyır,
Yükləməyə adam gəzir.
Falş bir notu bəyənərək,
Kökləməyə adam gəzir.

Nə kölgəsi, nə bəhrəsi,
Həyat üçün yararsızdı.
Onu bircə Allah bilər,
Günahlıdı, günahsızdı.

Amma bir məsələ var ki,
Bu adam darlıq gətirir.
Bədbəxt analar dünyaya,
Belə bir varlıq gətirir.

6 fevral, 2012.

***

Pəncərəm buz bağlayıb,
Küçəni görmək olmur.
Qış elə hücum çəkib,
Evinə girmək olmur.

Çovğunun gözlərində,
Aləmi qatmaq eşqi.
Qarı göydən sovurur,
Şəhərdə edir məşqi.

Şəhər susub, sakitcə,
Bu məşqə meydan açıb.
Küçədə adam yoxdu,
Hamı evinə qaçıb.

Nəhayət qış bu dəfə,
Sərt üzünü göstərdi.
Adına layiq oldu,
Qış, özünü göstərdi.

Pəncərədən baxsam da,
Qışın pərdəsin gördüm.
Göyün ruzu payını,
Qarın süfrəsin gördüm.

8 fevral, 2012.

***

Səhər tezdən itilənib
Küləyin sakit nəfəsi.
Dünyanın ağası kimi
Hökm eləyir indi səsi.

Kimsə sakit komasında
Bıçağını itiləyir.
Əlinə düşə biləcək
Ətin yolunu gözləyir.

Birisi ocaq yanında
Oturub kitab oxuyur.
Oxuduğunu udaraq
İti bir fikir toxuyur.

Bir qadın doğuş üstündə
Öz gücünü itiləyir.
Körpəsini azad edib
Öz bətnindən itələyir.

Qocanın beli bükülüb,
Əlində əsası iti.
İti addımlarla gəzdi,
Sonunda buymuş qisməti.

Bu dünyadan bezəni var,
Olsa da dövləti, varı.
İtiləyir öz ruhunu,
Artıq seçib intiharı.
İki sərçə qar üstündə
Dimdiyini itiləyir.
Qarın altında gizlənən
Qisməti tapmaq istəyir.

Bir qız pəncərə önündə
Sevgidən uçmağa hazır.
Bir oğlan iti addımla,
Özündən qaçmağa hazır.

Öz evində, yaşlı qadın
Qələmini itiləyir.
Əsə-əsə nəvəsinə,
Bir məktub yazmaq istəyir.

Qar küləyin əlindədi,
Çırpır onu göydən yerə.
Şaxta kəsir bıçaq kimi,
Vəlvələ düşüb şəhərə.

Qonaq kimi vidalaşır,
Can üstə, bir yorğun xəstə.
O dünyaya iti bir yol
Çəkilibdi son nəfəsdə.

Kimi yatıb, kimi oyaq,
Kim tapıb, kim itirəcək?
Bu çovğunlu qış səhəri,
Kimin bəxti gətirəcək?

8 fevral, 2012.

***

Hamıdan gizlənib evə sığındım,
Güzgülər üzümü göstərir mənim.
Duyğular görünür hissin ucunda,
Ağ vərəq sözümü göstərir mənim.

Yaddaş - olanların bağlı qapısı,
Onun da açarı dilimin üstə.
Ürəyim görünmür sinə altında,
Onu saxlamışam əlimin üstə.

Gəzib dolaşmıram əyri yollarda,
Ayaq gedən yolu başım çəkəcək.
Ağrımı hamıdan gizlətsəm belə,
İzini yanaqda yaşım çəkəcək.

Bu boyda vücudu gizlətsəm belə,
Amma bar gətirir toxum içimdə.
Bəhrəsi çırpınıb çıxacaq üzə,
Çünki, üsyan edir ruhum içimdə.

9 fevral, 2012.

***

Batan saman çöpü axtarar,
Əlinə nə düşsə buraxmaz.
Boğulanın yaşamaq eşqi,
Yırtıcıdır, heç nəyə baxmaz.

Həyat ilə ölüm körpüsü,
Çox uzundu, məsafəsi az.
Bura yolu düşən adamın,
Saatı bol, dəqiqəsi az.

Bəlkə də o anda bilinir,
Sevinc ilə kədərin fərqi.
Ömrü ipdən asılan bilər,
Ayaq ilə əllərin fərqin.

Allahını tanımayan da,
Dua edər azadlıq üçün.
Ölümünün üzünü görən,
Anlayacaq Tanrının gücün.

Bu həyat bir möcüzə imiş,
Sən, ölümü dadandan soruş.
Bir nəfəsin nə olduğunu,
Öz içində batandan soruş.

10 fevral, 2012.

***

Bu adam susub, danışmır,
İçində tufan gəzdirir.
Hamıya rahat görünür,
Qəribə üsyan gəzdirir.

Kimini boyu-buxunu,
Kimini ağlı çaşdırır.
Ruhunda var-gəl eləyən,
Kədərlə qəmi qoşdurur.

Əcaib görünür bəzən,
Axından kənar durmağı.
Susaraq sözünü deyib,
Alınmaz koma qurmağı.

Çiynindəki ağır yükü,
Çəkərək özü aparır.
Qonağı olmasan belə,
Qəlbinə, sözü aparır.

Dünyanın oyunlarından,
Yaxşı ki, üzüağ çıxıb.
Ölüm-dirim savaşından,
Zərbə alsa da, sağ çıxıb.

Allahın əli üstündə,
Sığallanır yaraları.
Yerdə insan, göydə Allah,
Təmizləyər buraları.

Heç kimə əli açılmaz,
Amma dost əlindən tutar.
Susan adam, zəncirləri
qırıb, bu zindandan qaçar.

18 fevral, 2012.

***

Ovuc qədər bir ürəyin,
Gör nə boyda kələyi var.
Dünyanın, yıxa biləcək,
Görünməyən fələyi var.

Hər adam özü sualdı,
Cavabı dilində gəzir.
Adam var ki, ayaqla yox,
Hamının əlində gəzir.

Yer üzünə doğulmağın,
Sən demə öz zamanı var.
Gələnlərin, gedənlərin,
Yaxşısı var, yamanı var.

Eləsi var, sinəsində,
Daşıyır bayquş ürəyi.
Kimisi də ömür boyu,
Ayıldır sərxoş ürəyi.

Bəlkə də elə ruh kimi,
Gəzib dolaşmaq yaxşıdır.
Fələyin milyon fəndinə,
Oynayıb çaşmaq yaxşıdır.

19 fevral, 2012.

***

Rəngləri qatdım bir-birinə,
Gətirdim gözlərimin önünə.
Qəribə mənzərə oyandı,
Maraqlı bir rəng yarandı.
Hisslərin bir-birinə dolaşan
haşiyəsi kimi,
Ölümlə dirim savaşında,
Bu dünyadan iki əllə yapışan
həvəsin nəfəsi kimi,
Fəsillərin üsyanı,
Gecənin gündüzə təslimi,
Sinənin altında gizlənən
ürəyin qəfəsi kimi,
Bu qarmaqarışıq rənglər,
Gözlərimi, hisslərimi oxşadı.
Bu rənglərin içində,
Biri deyəsən güldü,
O birisi ağladı.
Amma çox təəssüf ki,
Yaratdığım bu rəngin,
Hələ ki, yoxdur adı.

19 fevral, 2012.

***

Ruhum düşdü əlimdən,
Dağıldı künc-bucağa.
İçimdən sökülənlər,
Yığışmır ki, qucağa.

Nə sevinc var, nə kədər,
Nə qəribə haldı bu.
Məni görən deyəcək,
Bir gündə qocaldı bu.

Hamıdan gizlənməkçün,
Göyə qalxdım, quş oldum.
Yenə gözə göründüm,
Bir ovçuya tuş oldum.

Ruh xəstə, can yaralı,
Məndən söz istəyirlər.
Üstümə korlar gəlir,
Sağlam göz istəyirlər.

Öz dərdini yükləmə,
Səndən betər haldayam.
Səpələnən ruhumu,
Toplamaqçün yoldayam.

8 may, 2012.

***

Ölümün ətrini hiss etmisənmi?
Qəribə rəngdədir onun gözləri.
Arxasınca düşüb heç getmisənmi?
Doğma görünübmü onun izləri?

Dünyadan kimisə aparmaq üçün,
Yalançı dost kimi yanımızdadır.
Gah başda görünür, gah da yuxuda,
Onun pis nəfsi var, canımızdadır.

Nə yaşına baxar, nə əməlinə,
Adı ölümdüsə, sevgisi də var.
Sənə aşiq olub aparacaqsa,
Əlində sübutçun güzgüsü də var.

Xəbərin olmadan diqqəti səndə,
Hər an, hər dəqiqə səni izləyir.
Dəmir barmağıyla tutub yaxandan,
Özünə çəkməyə məqam gözləyir.

Həyat eşqi varsa, ölüm pusquda,
Hərdən nəfəsini göstərir bizə.
Bivaxt qonaq kimi döyüb qapını,
Təki, soxulmasın mənzilimizə.

12 may, 2012.

***

Bir balaca işıq düşsəydi,
Hər şey aydın olardı
mənim üçün.
Bir balaca sevgi olsaydı,
Heç olmasa haqsızlığın
yuvası daralardı
sənin üçün.
Bir balaca gözün görsəydi,
Ağı qaradan seçməyə
imkan tapılardı.
Bir balaca yaxına gəlsəydin,
Təkcə mənim üzümü yox,
Hisslərimin gözünü də
görə bilərdin.
Bir balaca adam olsaydın,
Nə isə edərdin
mənimçün.
Mən isə ölərdim
səninçün…

12 may, 2012.

***

Bir anda hər şeyə
son qoymaq üçün
nə böyük qüvvə gərək,
Selin qarşısını
saxlamaq kimi.
Buluda əl uzadıb
onu yerə bağlamaq kimi.
Bir anda hər şeyə
son vermək üçün,
Hər şeydən doymaq gərək.
Nöqtəni - qoymaq gərək…

19 may, 2012.

***

Səni qopardım öz içimdən…
Elə bilirsən mənimləsən?
Ruhumu çırpıb divarlara,
Yaman oynadın mənimlə sən.

19 may, 2012.

***

Ürəyim çilik-çilik.
Yenə sağam hələlik.
Heç nəyə çevrilmədim.
Nə arzuladığım quşa,
Nə də qorxunc bayquşa.
Nə sürünən, nə qaçan,
Nə üzən, nə də süzən
olmadım,
Adam qaldım.

19 may, 2012.

***

Heç bilirsən
bu bir addım
nə qədər vaxt aparıb?
Nə biləsən.
Mənim atdığım addımı,
Yuxunda da görməmisən.

19 may, 2012.

***

İllərlə yuxu içində,
Bir ömür yaşadım demə.
Bu yuxu bir xoş təsadüf
Olsa da, oxşadı qəmə.

Xatirəmin bir küncündə,
Həmişə yeri olacaq.
Ara-sıra həmin yuxum,
Yozulacaq, pozulacaq.

Təzədən başlayım bəlkə,
Yeni bir səhifə açım.
Dizimdə taqət var ikən,
Yuxudan gerçəyə qaçım.

8 iyun, 2012.

***

Dairə get-gedə daralır deyəsən,
Sıxıldıqca yenə bədənim nazilir.
Fırlanıb bir anda dəyirəm harasa,
Qanıma bələnib gedənim nazilir.

Nazilir gözümün parıltı bucağı,
Bu tozlu məkanda nəfəsim nazilir.
Hissimin ölüsü, dirisi yox kimi,
Yaxamı çəkməyə həvəsim nazilir.

Dilim də qurusa, səsim də pozulsa,
Hər şey öz yerində, mənim hay-küyüm var.
O boyda dairə boynuma keçibdi,
Nazilən boynumda balaca düyün var.

8 iyun, 2012.

***

Dəlilikdən o yanası varmı?
Bax mən o yerdə olmaq istərəm.
Ağılsız addımlarımla,
Havalı halımla danışaraq.
Mənə gözucu baxıb keçən
tanımadığım yaxınlarımla,
Uzaqlarımla vidalaşaraq.

Sərxoşluqdan o yanası varmı?
Bax mən o halda olmaq istərəm.

Heç nəyi düşünmədən,
Özüm özümü görmədən.
Üzsüz, adsız, ünvansızların
yanından keçib
üzümü göstərmədən,
Sevmədən, sevilmədən.

Dilənçilikdən o yanası varmı?
Bax mən o gündə olmaq istərəm.
Heç nə qazanmayan,
Heç nə itirməyən,
Varlığını, yoxluğunu bilməyən,
Gecəni evi, küləyi sevgilisi,
Dənizi dostu, yağışı anası bilən
bir insana sığınaraq,
Səfil kimi yaşamaq, yaşlanmaq,
Azadlığın dadını bilmək,
Sonra da ölmək istərəm.

12 iyun, 2012.

***

Son dəfə də cavab yazdım,
Bu mürəkkəb suallara.
Mən gedirəm, sən deyərsən
bu cavabı adamlara.

12 iyun, 2012.

***

Səhəngi çiyində daşıyan gözəl,
Bir çiyninin üstü boş qalıb hələ.
Qəminə köklənən yükün yoldadı,
Gəlib öz yerini tutacaq belə.

Həyəcan pusquda, kədər ovçudu,
Əlinə keçəni yaxalayacaq.
Sənin o boş qalan bir çiynin üstə,
Tale nə qədər yük qalaqlayacaq.

Zərif çiyinlərin itilənəcək,
Sındıra-sındıra oyna doyunca.
Sonra çiyinlərin yük sındıracaq,
Həyat oyununda ömür boyunca.

13 iyun, 2012.

***

Bədənimdə fəsillərin vulkanı oyanıbdı,
Məndən qorxma, püskürərək yorulana qədərdi.
Bir bulanıq dəryadayam, bədənim lillə dolu,
Bu dərya kimi üsyanım, durulana qədərdi.

Fələyin oyunlarına yüz cür çıxış tapsam da,
Göydən asılan tellərim qırılana qədərdi.
Ha kükrəyim, ha alışım, qəddarlıq donu geyim,
Ürəyim muma dönəcək, sarılana qədərdi.

Mənim də həyat borcum var, daş üstünə daş qoymaq,
Dağıdacaq kimsə yenə, qurulana qədərdi.
Qırılsa da, yorulsa da, hələ ki, vurur ürək,
Onun da vaxtı gələcək, vurulana qədərdi.

14 iyun, 2012.

***

Bu həyat möcüzədir,
Bizimlə üz-üzədir.
Dərəcə artıb gedir,
Ürək dolana qədər,
Sözsə dolandan sonra.

Hamı gəldi-gedərdi,
Maldı, mülkdü hədərdi,
Həyat işığı verdi,
Günəş batana qədər,
Aysa batandan sonra.

Danışacaq, susacaq
məqamımız olacaq.
Rahatlığı tapacaq,
Kimsə yatana qədər,
Kimsə yatandan sonra.

Sevgisini gəzəcək,
Hər əzaba dözəcək.
Dəli kimi sevəcək,
Kişi çatana qədər,
Qadın çatandan sonra.

Hisslərin sahilində,
Tək ruhu var əlində,
Fikri duyğu selində,
Şair yazana qədər,
Kimsə yazandan sonra.

Axtardım ömrüm boyu,
Çatdığım dərin quyu,
İndi bir içim suyu,
Yandım, tapana qədər,
Öldüm, tapandan sonra.

14 iyun, 2012.

***

Atılıb-düşməyə yerim yox artıq,
Dörd divarın arasında ilişdim.
Çəkildim özümə son nəfəs kimi,
Buza dönmüş bir ürəkdən sürüşdüm.

Səsim çıxmır, boğazım kilidlənib,
Açarını kədərimlə bölüşdüm.
Yuvarlanıb daş kimi dəydim bura,
Məni qoruyan mələkdən sürüşdüm.

Gözü açıq ölməyin fərmanı bu,
İtirdiyim kim vardısa, görüşdüm.
Tanrımın verdiyi ömür payımda,
Fələk gətirən kələkdən sürüşdüm.

Bax, bu zindan, bu qandallar, bu da mən,
Sevmədiyim Əzrayılla öpüşdüm.
Cəllad can almağa gəlmişdi yenə,
Ayaq büdrədi, ölümdən sürüşdüm.

19 iyun, 2012.

***

Ən yüksək bir not var, səsim yetmir ki,
Boynumda bir daş var, düşüb itmir ki,
Dərdə qapı açdım, çıxıb getmir ki,
Qonağın yolunu mənə bul, göstər.

Nə bilim haraya getməliyəm mən?
Hansı bir nəzərdən itməliyəm mən?
Yeni bir güllədən ötməliyəm mən?
Gəl uzat əlini, mənə yol göstər.

Sahil də görünür, mən boğuluram,
Dəniz ana bətni, mən doğuluram?
Məni görən varmı? Mən yox oluram,
Dost olub tutmağa mənə qol göstər.

19 iyun, 2012.

***

Əlində xəncərin hazır durmusan,
Mənmi yer göstərim bıçaqlamaqçün.
Köhnə yaralarım qan verir hələ,
Dərman da kar etmir yamaqlamaqçün.

Sən cəllad donunda, mənsə şikarın,
Hər dəfə ovuna mən tuş oluram.
Qanadlarım sınıb yanıma düşür,
Yenə də yaralı bir quş oluram.

Ağlın səfərdədi, özün yol üstə,
Məni də özümdən köçər etmisən.
Yenə zədələyib, qalib donunda,
Elə biləcəksən, hünər etmisən.

İçində bir şeytan, üstündə Allah,
Məni vurub öldür, xilas et barı.
Ruhum yetim qalsa, ona sahib çıx,
Bir də yaralama bu adamları.

Heç kim bilməyəcək dərdli sirrimi,
Hərə bir cür yozar yazdıqlarımı.
Bir Allahım bilir, bir də ki, sən bil,
Ölüb dirilərək duyduqlarımı.

27 iyun, 2012.

***

Bu gecə yağış çırpıldı
küçələrdə azıb qalan
duyğuların izlərinə.
Sevgi etirafı kimi,
Yağış dəydi gözlərimə.
Kimsə səsini göndərdi
küləyin nəfəsi ilə.
Atalandım, analandım,
Qucaqlandım, doğmalandım,
O nəfəsin rəngi ilə,
Bir körpə uşağa döndüm.

O səsin ahəngi ilə
yırğalandım, arxalandım.
Tapılan sahibim kimi
bu yağışın səsi altda
tumarlandım, sığallandım.
Yağış ilə gələn vardı…
Gözlərini görə bildim…
Sevilmək gözəl duyğudu,
Bir azca da lovğalandım.

10 iyul, 2012.

***

Hər şey olsun həyatımda,
Bir az sevinc, bir az kədər,
Yuxuları görə bilim,
Oyaq vaxtı gəlsin xəbər.

Hər şey olsun həyatımda,
Bir az gecə, bir az gündüz,
Səsi əynimə geyinim,
Görənlər anlasın sözsüz.

Hər şey olsun həyatımda,
Cavanlıq da, qocalıq da,
Yerin alt qatında olum,
Amma sonra ucalıqda.

Hər şey olsun həyatımda,
Bir az sevgi, bir az nifrət,
Əlim çatsın gözləyənə,
Sonra isə çəkim həsrət.

Hər şey olsun həyatımda,
Bir az eniş, bir az yoxuş,
Darısqal məkana düşüm,
Amma sonra tapım çıxış.

Hər şey olsun həyatımda,
Bir az olum, bir az ölüm,
Ağrıya hamilə qaldım,
İmkan olsun azad olum.

19 iyul, 2012.

***

Gecənin gözləri qara,
Həsrət qaldım yuxulara.
Kor kimi əlindən tutub,
Düşmüşəm qərib yollara.

Gecənin yaxası açıq,
Gecə ömrümə sarmaşıq.
Əlim-qolum bağlanıbdı,
Bu gecə ilə yoldaşıq.

Gecənin nəfəsi isti,
İsti nəfəsimi kəsdi.
Dönmüşəm gecə quşuna,
Bilmirəm bu nə həvəsdi.

Gecənin qolları uzun,
Göstərəcək hər bir üzün.
Mənim dadıma yetişin,
Gecəni bəxtimdən pozun.

Gecənin əzəməti var,
Bu boyda da qonaq olar?
Tutub yaxamdan, əl çəkmir,
Xilas edin, ay adamlar.

Gecənin qəlbi döyündü,
Vuran nəbziylə öyündü.
Canımı aldı apardı,
Ayıq ruhumu geyindi.

22 iyul, 2012.

***

Hardasa ruhların görüş yeri var,
Ölümlə də demə qovuşmaq olar.
Lap o dünyada da axtaran tapar,
Nə olsun ki, sən ordasan, mən burda.

Toxunmadan gözlər-gözə, əl-ələ,
Bilirəm ki, ürəyindəyəm hələ.
Bəlkə məni sevən olmayıb belə,
Nə olsun ki, sən ordasan, mən burda.

Arada bir körpü var ki, keçilməz,
Tanrının alın yazısı seçilməz.
Sevgi varsa, məsafələr ölçülməz,
Nə olsun ki, sən ordasan, mən burda.

Bambaşqa dünyada vurur qəlbimiz,
Az qalıb, çox çəkməz bu həsrətimiz.
Mən də yol üstəyəm, qovuşarıq biz,
Nə olsun ki, sən ordasan, mən burda.

10 avqust, 2012.

***

Böyüyən ruh kimi bədənə sığmasam,
Hissimdən daşanı içimə yığmasam,
Heç nə olan deyil özümdən çıxmasam,
Bir addım o yana, bir addım bu yana.

Həyatla ölümün arası bir qarış,
Ya bu dünyadan küs, ya həyatla barış,
Tarazlığı saxla, dayanmağa çalış,
Bir addım o yana, bir addım bu yana.

Bükülən qəlbimin içində bağlama,
Açma, sirrli qalsın, çalış ki, yoxlama,
Gedən hər bir anı özündə saxlama,
Bir addım o yana, bir addım bu yana.

Dualar nəfəsdi, həyata üz verər,
Qaranlıq içində Tanrımız göz verər,
Bir işıq seli var, yolunu düz verər,
Bir addım o yana, bir addım bu yana.

Bədənim bir dünya, gözlərim şəhərim,
Duyğular çılğın at, əlimdə yəhərim,
Ölsəm də, qalsam da, açılır səhərim,
Bir addım o yana, bir addım bu yana.

Bu dünya tərəzi, adamlar da yükdü,
Yükün də yükü var, kiminki böyükdü?
Ləngər vura-vura dünya bizi çəkdi,
Bir addım o yana, bir addım bu yana.

19 avqust, 2012.

***

Biri sevdiyini bəyan eyləyir,
Biri nifrətini əyan eyləyir,
Biri yerə-göyə üsyan eyləyir,
Hər görüşən bir pay gözləyir məndən.

Bir ağacın üstə neçə budaq var?
Bir evin içində neçə yataq var?
Bir ürəkdə axı neçə otaq var?
Hər kəs öz yerimi istəyir məndən.

Adamlar qaynaşıb gözümə dolur,
Mənə yad nəfəslər yaxama qonur,
Zor ilə sevgini qazanmaq olur?
Nə olar, ruhumu üzməyin məndən.

Kiçildib, böyümək istəyənlər çox,
Tərifi rüşvəttək gözləyənlər çox,
Boğazdan yuxarı söz deyənlər çox,
Aranızda yoxam, küsməyin məndən.

26 avqust, 2012.

***

Anamız azad oldu,
Biz dünyaya doğulduq.
Ağalıq sona yetdi,
Bir ömürə qul olduq.

Doqquz ayın ləzzəti,
Damağımızda qaldı.
Kiçik dünya böyüdü,
Böyüklər işə saldı.

O gündən bu günədək,
Cəzamızı çəkirik.
Ayaq üstə qalxmışıq,
Sökə-sökə tikirik.

Bu dünya bir zindandı,
Bizlərsə cəzalılar.
Həbs olunduq həyata,
Azadlığa hələ var.

Diş ilə, dırnağ ilə,
Qaza-qaza gedirik.
Sözün qulluğundayıq,
Yaza-yaza gedirik.

Bizlərə iş kəsilib,
Neçə ildi. Baxarıq.
Bəlkə öləndən sonra,
Azadlığa çıxarıq.

10 sentyabr, 2012.

***

Yalançı dostların maskasını cır,
Altında gizlənən üzü görərsən.
Əyrilər şax gəzib, haqdan dəm vurur,
Ən fağır bəndədə düzü görərsən.

24 sentyabr, 2012.

***

Bir səs kəsdi dilimi…
Sözlər qıfıllandı boğazımda.
Nəfəsim də burxuldu.
Bu səs möcüzənin üzü idi.
Nə gözəldi,
İlahi.
Yaxşı ki, səsin gəldi.

29 sentyabr, 2012.

***

Ruhun üstə sözdü yatıb,
Ocağına oddu qatıb,
Ağac kimi kök də atıb,
Qopmağı - müşkül məsələ.

Gözdən adam salmaq asan,
Gözdən iraq qalmaq asan.
İtirilən olmaq asan,
Tapmağı - müşkül məsələ.

Məqsəd ola, çatmaq olar,
Göz görəsi batmaq olar.
Hər nə desən satmaq olar,
Almağı - müşkül məsələ.

Başlanılır, bitmək üçün,
Arzu ki, var, yetmək üçün,
Hamı gəlir getmək üçün,
Qalmağı - müşkül məsələ.

29 sentyabr, 2012.

***

Şair - sözün qələmidi,
Həm də qələm tutan əlləri.
Söz - ulu babamızdı,
Şeir - sözün nəticələri.

29 sentyabr, 2012.

***

Üzünün işığını qapama.
Onsuz da görən yoxdu.
Bura korlar məclisidi,
Baxma ki, adam çoxdu.
Burdakılar yarasalardı.
İşıqdan qorxanlardı.

29 sentyabr, 2012.

***

Evim toz-torpaq içində,
Hamı yatıb, cibim boşdu.
Ağlım ruhumun cibində,
Canım xəstə.
İçimdəsə toy-bayramdı.
Yeni bir söz doğdum indi,
Qoydum onu kağız üstə.
Bu söz - ən əziz balamdı.

30 sentyabr, 2012.

***

Ayağımın altında əzilmək istəyir,
Mənim əllərimdə ölmək istəyir,
Mənə cəllad adı vermək istəyir.
Sən sevginin könüllü qurbanısan.
Nə edirsən et, bircə sınma.
Ayağımı günaha batırma.
Əllərimi qana bulama.
Toxun toxunulmazlığıma,
Amma,
Adıma toxunma.

30 sentyabr, 2012.

***

Dünyanı alt-üst edib,
Eşqə yol aldıq, tutduq üz,
Sən demə, eşq axtarır,
Qurbanını gecə-gündüz.

3 oktyabr, 2012.

***

Taleyin şilləsindən,
Üzümə qanım çıxıb.
Sözlə düyün açmaqdan,
İnan ki, canım çıxıb.

Axsayaraq gəzirəm,
Söz - əlimdə çomağım.
Bu laxlayan dünyamda,
Tarazlığım, dayağım.

Sözümə bükün məni,
Beşikdə yırğalayın.
Məni bir az öldürün,
Bir az sözə saxlayın.

13 oktyabr, 2012.

***

Üzükdü, taxılıb incə barmağa,
Adı qızıldısa, qarışığı var.
Rəngini dəyişib bozarsa belə,
Bir gözəl əlində yaraşığı var.

13 oktyabr, 2012.

***

Bəxtimin ağası cinayət edib,
Ömür oğurlayıb, çalıbdı məndən.
Yaşımın illəri xəlvətcə gəlib,
Gözəl nə vardısa, alıbdı məndən.

Bədənim əzilib, gözə görünmür,
Ürəyim yıxılıb, hələ sürünmür,
Ruhum da dağılıb, amma bölünmür,
Özündən keçənim qalıbdı məndən.

Ağaca köçmüşəm, budaqdayam mən,
Səhərin şehiyəm, yarpaqdayam mən,
Kökümlə əbədi torpaqdayam mən,
Tanrım duyğu yolu salıbdı məndən.

13 oktyabr, 2012.

***

Toyumuzun 35 illiyinə İndicə qapım döyüldü,
Bir dəstə gül gəldi mənə.
Öz həyat yoldaşım idi,
Çaşıb baxdım gözlərinə.

Səbəbini soruşmadan,
Gülləri aldım əlindən.
Nə bir təbrik, nə bir cavab,
Eşitmədim ki, dilindən.

Fikirləşdim, bəlkə yenə,
Gül satana rəhmi gəlib.
Xeyir verib bir adama,
Kiminsə işi düzəlib.

Birdən yadıma düşdü ki,
Bu gün ayın on beşidir.
Bu gül - otuz beş il öncə,
Qurulan toyun işidir.

İllər necə gəldi-keçdi,
Balaca qız nənə olub.
Otuz beş il döyüşmüşəm,
Nə olubsa, mənə olub.

Təbrik edin, qocalmışam,
Vaxt alnıma qırış taxıb.
Həyat elə toy tutub ki,
Evcik-evcik oynamaqdan,
Toy günüm yadımdan çıxıb.

15 oktyabr, 2012.

***

Əlim dəysə dağılacaq,
Nəfəsimi qısıb baxdım.
Gözlərimə gəlib çıxıb,
Sözü uddum, susub baxdım.

Gəncliyimdən qopan qonağ,
Üst qatımı soydu yenə.
Silkələndi, üzə çıxdı,
Duyğuları oydu yenə.

Qaldırdım göz qapağımı,
Çıxdım yuxu ocağından.
Bir az heyrət, bir az dəhşət,
Bir az nisgil otağından.

Durdum yenə ayaq üstə,
Hər tərəfi yığışdırdım.
Yerə düşən qabıqları,
Öz yerinə yapışdırdım.

20 oktyabr, 2012.

***

Gecənin yalanlarını,
Səhərin üzü açır.
Saxtakar donu geyinən
Nəfəslər qorxub qaçır.

Küləyə bürünür işıq,
Döyərək pəncərəni.
Yalanın ayaq açsa da,
Şüşəyə çırpır səni.

Qaranlıq bir gün yenə də,
Yalana can verəcək.
Gözlərin ağı qaradan,
Seçməyi öyrənəcək.

21 oktyabr, 2012.

***

Bir küçə, bir adam, bir də yalqızlıq.
Bir adam, bir ürək, bir də haqsızlıq.
Bir ürək, bir nifrət, bir də qansızlıq.
Bir nifrət, bir əzab, bir insafsızlıq.
Bir əzab, bir ölüm və vicdansızlıq.
Bir ölüm, bir küçə və Adamsızlıq…

24 oktyabr, 2012.

***

Qurban verən kama yetər,
Ağrı gələr, sonra gedər.
Allah özü qəbul edər,
Baxır hansı qurbanın var.

24 oktyabr, 2012.

***

Bütün hisslər öləndə,
Ağrımız kara gəlir.
Deyir ki, hələ sağsan,
Adam lap zinhara gəlir.

25 oktyabr, 2012.

***

Kimsə köçüb içimdən,
Ləpirləri görünür.
Yerinin boşluğunda,
Kimsəsizlik sürünür.

Hər tərəf xarabalıq,
Bayquşun səsi gəlir.
Yığıb-yığışdırmağa,
Kimin həvəsi gəlir?

Kimsəni gözləmirəm,
Qəlbimi sökən gəlsin.
Qurub, yıxıb, dağıdıb,
Evimi tikən gəlsin.

26 oktyabr, 2012.

***

Yaman üzümə baxırsan,
Axtardığını çətin tapasan.
Çünki, onu itirmişəm.
Ünvanını da bilmirəm.
Öyrənsən -
Bir gün mənə də deyərsən.

27 oktyabr, 2012.

***

Səssizlik, hayqırtı, gəliş,
Çabalama və yüksəliş.
Hayqırtı, səssizlik, gediş,
Adi, həyati bir vərdiş.

27 oktyabr, 2012.

***

Qadın sevgilisinə,
Qəmzə edər, naz edər.
Mən də dəlicəsinə,
Qurşanıb sevgisinə,
Gah səsə naz edirəm,
Gah sözə naz edirəm.
Atılıb qucağına,
Səslə nəfəs alıram,
Sözə təslim oluram.

27 oktyabr, 2012.

***

Al məni də içinə,
Yerini dar etdimsə.
Yaşamaq istəmirəm,
Nəzərindən itdimsə.

Tutuldum əllərinlə,
Tutdum səni gözümdə.
Adamlıqdan çıxardım,
Sığalındı üzümdə.

Hər şeyimi itirdim,
İtirmədiyim tək Sən.
Dağıldım, parçalandım,
Heç vaxt bölünməmisən.

İnandınmı sevgimə?
Yoxsa, yenə sınaq var?
Gördün, əyilməmişəm,
Qurtarsın bu sınaqlar.

Sən məni seçdin artıq,
Sevdiyini bilirəm.
Ağlım, ruhum, ürəyim,
Sənə doğru gəlirəm.

Gəlirəm, gələ-gələ,
Get-gedə ələnirəm.
Hisslərimlə soyulub,
Vücudumu soyunub,
Ruhuma bələnirəm.

27 oktyabr, 2012.

***

Nəfsinə güc gəl, itilən,
Həzm olunmur hər verilən.
Ey gözü ac varlı - dilən,
Hər gedən bir can aparır.

Bəxtini kor edənləri,
Özgəsini güdənləri,
Ağıldan kəm gedənləri,
Vaxt gəlir zindan aparır.

Dostlarına quyu qazan,
Haqq yolunu çaşıb azan,
Yazılanı özü pozan,
Əllərini qan aparır.

Hər yetənə bir badalaq
Vurdu yenə həzz alaraq.
Beləsi tor oynadaraq,
Şeytana mehman aparır.

Əlvida deyib qeyrətə,
Satılıbdı var-dövlətə,
Boyun əyib bir qismətə,
Özünü qurban aparır.

29 oktyabr, 2012.

***

Özümə söz verdim dünən,
Bir də qəmdən yazmayım heç.
Xatirələr yaxaladı,
Dedi - dostum, yuxarı keç.

Qəmin dili çox uzunmuş,
Söhbət edib yordu məni.
Vərəqləndi ömrün üzü,
İllərimə vurdu məni.

Cırdığım çox səhifənin,
İşarəsi pozulmayıb.
Yaşadığım əzabların,
Dərəcəsi azalmayıb.

Özümə söz verdim axır,
Kədəri bir yana atım.
Dostlarımın kefini də
pozmadan sevincə çatım.

Ən müqəddəs günlərim də,
Yada düşdü bir anlığa.
On illəri fırladaraq,
Gedib çıxdım cavanlığa.

Həyatımın sevincini,
Kədərimə bağışladım.
Yaşadılar sevdiklərim,
Onlara baxıb yaşadım.

Nə yazdımsa, sona çatsın,
Bədbinliyə qıfıllanım.
Özümə söz verdim axı,
Yavaş-yavaş ağıllanım.

Şair sözə baxan olmaz,
Hissimi faş etdim yenə.
Üzə çıxan ağrıları,
Bu gün təraş etdim yenə.

29 oktyabr, 2012.

***

Bir ovuca sığışmışdım,
Nəfəsində, səsindəydim.
İtirilmiş bir adamdım,
Gözlərinin içindəydim.

Sevginin də yuxusu var,
Bu yuxunu hamı görür.
Kimi hissini öldürür,
Kimi hissə-hissə ölür.

Ölən sevgilərin yeri,
Ürəklərdə qazılacaq.
Başdaşının üzərinə,
Görəsən nə yazılacaq?

31 oktyabr, 2012.

***

Nə çox səs var havada,
Havanın səsi batıb.
Boğazımdan keçməyə,
Qəfil həvəsi yatıb.

Qapımı, pəncərəmi,
Möhkəm-möhkəm bağladım.
Havasız otağımın,
Havasını yoxladım.

Hisslərim oynayırdı,
Ağlımın havasına.
Nəfəsim yavaş-yavaş,
Çəkildi yuvasına.

Cənnətmi, cəhənnəmmi,
Hər nə isə xoş gəldi.
Bilmirəm nə oldusa,
Əcəl də sərxoş gəldi.

Mənim havamı çaldı,
Oynatdı gözü üstə.
İçimdə rəqs elədi,
Yıxıldı üzü üstə.

Deyəsən bu havadan,
Yenə də qalib çıxdım.
Bu hay-küyün içindən,
Ölsəm də diri çıxdım.

1 noyabr, 2012.

***

Mərkəzdən kənara atırlar,
Olduğu yerdə mərkəz qurur.
Eyni əllə çəkilən sığal,
Şillə kimi ürəyi vurur.

1 noyabr, 2012.

***

Pianonun dillərindəyəm,
Gah minoram, gah majoram.
Qara dilin əllərindəyəm,
Qara əllərdə fors-majoram.

2 noyabr, 2012.

***

Bomboş dəyirman kimi,
Səsi başıma düşdü.
Kal fikirlər yeməkdən,
Dil-dodağım büzüşdü.

Sözləri qatar kimi,
Kənar relsin üstədi.
Elə sürət götürüb,
Canımıza qəsddədi.

Bu məkanı tərk etdik,
Cəzadan çıxdıq sanki.
Yaralandıq hamımız,
Qəzadan çıxdıq sanki.

2 noyabr, 2012.

***

Yer kürəsindən
kənara atılsam,
Böyük itki olmayacaq
yəqin ki…
Uzaqbaşı, dünyada
bir adamboyu
yer artacaq…

2 noyabr, 2012.

***

Bu yağışlı gecədə,
Bir duyğu axtarıram,
Büküb əzizləməyə.
Bu yağmurlu şəhərdə,
Bir yarpaq axtarıram,
Altında gizlənməyə.

2 noyabr, 2012.

***

Göyün ürəyinin sözüdü yağış,
Şeir kimi deyil, roman kimidir.
Hər damcı, bir vərəq çevirir sanki,
Sözləri - şəhərdə duman kimidir.

Bu yağışın altda dayanıb indi,
Neçə-neçə ömür vərəqlənirik.
Titrəyən bədənlər yağış geyinir,
Soyunan ağaca səpələnirik.

Yağış da çırpınır, küçədən keçir,
Ağlayır, sürünür, yıxılır indi.
Dənizin içində «Yağış» romanı,
Bir əsərə dönüb, doğulur indi.

2 noyabr, 2012.

***

Yuyundu deyəsən hər şey
bu yağışla.
Pəncərənin izləri də,
Küçələrin tozları da,
Göylərin ulduzları da…
Yağış yenə də islatdı
çiyinlərini qısaraq
başını götürüb qaçan
adamları.
Bir az da yuyub apardı
havadan asılı qalan
duaları!!!

2 noyabr, 2012.

***

Payız da can verir, çırpınır hələ,
Yağışı, küləyi çıxır boğazdan.
Titrədir, üşüdür, canı çıxarkən,
Ömrünü tapşırar qışa bir azdan.

3 noyabr, 2012.

***

Şəhərə ayrılıq havası qonub.
Şəhərin elə bil gözləri dolub.
Yaşamağa həvəsi ölüb.
Şəhər, üzünü gizlədib,
Başını qoyub ağlamağa
diz axtarır…
Hıçqırıqdan boğularaq,
İçində çatlayıb qalan
duyğuları
tapdalayan adamlara,
Söz axtarır…
Ağla, boşal,
Səsin gəlsin.
Ayrılığın havasını
qov yaxandan.
Çırp tozunu, çıx dumandan.
Bu gecədən, səhərə dön…
Yenə də sevib sevilən
şəhərim ol…
Şəhərə dön…

4 noyabr, 2012.

***

Gözlərində yaşın yükü,
Ruhun üstə ağır çəki,
Dünyada durub, çəpəki,
Hələ də gülməyin gəlir?

Ürəyindən yıxılmısan,
Yumruğuna sıxılmısan.
Boş havaya taxılmısan,
Hələ də sevməyin gəlir?

Sakitliyi pozaq yenə,
Yeni həvəs qataq günə.
Mən də qoşuluram sənə,
Yenə də ölməyin gəlir?

6 noyabr, 2012.

***

Yu…
Üzünü aparmaz Allahın
suyu…
Dərin ola bilər qazılan
quyu…
Həddindən uzundu kədərin
boyu…
Çalınıb qurtardı həyatın
toyu…
Toyu çalınan həyatın, uzun
boyu qədər qazılan kədərli
quyunun
suyu ilə üzünü
yu…
Uyu…

6 noyabr, 2012.

***

Sevgi - xəstəlikdi, adı da - Azar,
Qızdırıb, bədəndən ruhu qoparar.
Ürəyi, duyğunu, hissi yaxalar,
Sonra ya öldürər, ya da yaşadar.

7 noyabr, 2012.

***

Hansı günümdən danışaq,
Bir günüm olmayıb ki.
Yıxılanda əl tutacaq,
Sağ yerim qalmayıb ki.

Yandıran nə varsa yasaq,
Hamısı da oyuncaq.
Canımda qalan o uşaq,
Heç yaşa dolmayıb ki.

Yazılanlar qismət, baxtsa,
Körpəyə bir beşik yoxsa.
Məni öz anam, nə vaxtsa,
Əlindən salmayıb ki?

8 noyabr, 2012.

***

Beyninə elə bil sayğac qoşubdu,
Haqq-hesab etməkdən qanı coşubdu,
Ünvanı itirib, yəqin çaşıbdı,
Özgənin cibində əli tutulub.

Əyilib gəzməkdən olub ikiqat,
Zəhmətsiz, filansız yetişir sovqat,
Adamlıqdan çıxıb, vücudu bərbad,
Qaş-gözü oynayır, dili tutulub.

Ürəyində daş var, keçən deyil ki,
Həyata məhkumdu, köçən deyil ki,
Onsuz da sərxoşdu, içən deyil ki,
Diri bədəniylə, ölü tutulub.

8 noyabr, 2012.

***

Ümidə pəncərə açdım,
İşıq düşsün əllərinə.
Qəfildən qapım döyüldü.
Qapımı özüm açsam da,
Hücum edən külək, birdən,
Pəncərəni çırpıb getdi,
İşığın ümidlərinə…

10 noyabr, 2012.

***

Sən özündən keçəndə,
Özünü tapdaladın.
Çatdığın, varlıqdımı?
Özündən artıqdımı?

10 noyabr, 2012.

***

Qəribə bir xiyabandı,
Sanki ovsuna düşürsən.
Qara mərmərin üstündə,
Adamlarla görüşürsən.

Hər birinin tarixçəsi,
Hər kəsin öz taleyi var.
Bir ocağa yığışıblar,
Burda tükənib arzular.

Sakitliyin arasında,
Nəfəsləri də diridir.
Son sözləri bilinməyən,
Son duaların yeridir.

Əl-ələ verib yatanlar,
Gözlərdə dağ çəpəridir.
Bədənləri bu torpaqda,
Ruhların sağ çəpəridir.

Güllədən keçib gəliblər,
Torpağa can tapşırıblar.
Gedərkən, əmanət kimi,
Bizlərə qan tapşırıblar.

Burdan ehtiyatla keçin,
Qurbanların yuvasıdır.
Şəhidləri sığallayan,
Cənnətin ruh havasıdır.

Nəfslər də təmizlənsin,
Havaya ləkə düşməsin.
Qara mərmər, qırmızı gül,
Bir də heç vaxt görüşməsin.

10 noyabr, 2012.

***

Günəş - gün ortasında,
Günün qəm yanğısında.
Hamı bir günə çıxdı,
Mən - günün ağrısında.

12 noyabr, 2012.

***

Üzümə Allahın nəfəsi dəydi,
Yenidən yaşatmaq həvəsi dəydi.

12 noyabr, 2012.

***

Yük altda ayaqlar düz yola həsrət,
Yuxuma xoşbəxtlik döngəsi düşər.
Sərinlik axtaran yüz ağac tapar,
Mənə də buludun kölgəsi düşər.

12 noyabr, 2012.

***

Kədəri qucaqla, bağrına da bas,
Çünki hər qaçdığın səni təqibdə.
Yaxanda kədərin üstünü basdır,
Üzə çıxacaqdır nə varsa dibdə.

12 noyabr, 2012.

***

Dünyanın sürəti artıb deyəsən,
Hamı ləngər vurur, tarazlıq itib.
Sən demə, olum da həvəsə gəlir,
Ölüm qapısının yanından ötüb.

İlləri, ayları dəfn eləyərək,
Qaranlıq səhərdən aşmaq havası.
Elə bil, gecəni görən olmayıb,
Hər yanda zülmətdən daşmaq havası.

Bir toxum verilib, cücərdəni var,
Bəsləyib, yoxluğu yetişdirirlər.
Kimlərsə, dünyanın çatı üstündən,
O tayla, bu tayı bitişdirirlər.

Dünyanın sonuna gəlmişik guya?
Əvvəli haraydı? Onu görən var?
Onsuz da hər səhər, hər gecə, hər gün,
Dünyanın sonuna salam verən var.

Evini, alınmaz qala sayaraq,
Hamı, hər gün, nəsə daşıyır hələ.
Ölüm meydanından çox-çox yuxarı,
Bizi sevən Allah yaşayır hələ.

12 noyabr, 2012.

***

Dedilər ki, sevinc - kədəri boğar,
Sevinmişdim. Boğmadı.
Dedilər ki, sabah - bu günü yıxar.
İnanmışdım. Yıxmadı.
Dedilər ki, Allah üzünə baxar.
Görən, baxdı, baxmadı?

12 noyabr, 2012.

***

Həyat - bir öpüş qədərdi,
Toxunub, aparır.
Sevgi - bir şeir qədərdi,
Oxunub, aparır.
Ölüm - bir yuxu qədərdi,
Pozulub, aparır.
Dünya - sonuna qədərdi,
Yazılıb, aparır.

13 noyabr, 2012.

***

Qapılarım örtülüb,
Külək hələ də əsir.
Pəncərəmi titrədir,
Səsi evimdə gəzir.

Çöldə külək, evdə mən,
Yorğunuq hər ikimiz.
Divarlardan tutmuşuq,
Ağırlaşıb çəkimiz.

O, küçədə darıxır,
Mən ruhun yaxasında.
Hər ikimiz qalmışıq,
Qapılar arxasında.

16 noyabr, 2012.

***

Yavaş-yavaş azalıram,
Düşürəm közün üstünə.
Sən də gəlib çıxdın indi,
Nəfəsin, sözün üstünə.

16 noyabr, 2012.

***

Qıfıllanıb duyğularım,
Ürəkdən nə isə sızır.
Halsız düşən bu əllərim,
Sızanı yazmağa hazır.

Barmaqlarım, ürəyimdən
Etibarlı çıxdı yenə.
Sinəmi sıxan ürəyi,
Verdi qələmin əlinə.

Yazdığımın havasına,
Üstümdə başım tərpəndi.
Qıfıllar da sınıb düşdü,
Sinəmdən daşım tərpəndi.

16 noyabr, 2012.

***

Sözünə yazığın gəlsin,
Səpələmə…
Dinlənilməyən bir yerdə,
Dilinə də gətirmə,
Dəyərini itirmə…

Özünə yazığın gəlsin,
Baxışlarla qoparılıb,
Paylanaraq parça-parça,
Rəssamlar əlində fırça

olaraq,
Haraya gəldi
çəkilmə…

Özgürlüyü itirmə,
Özgəlikləri götürmə.
Özündə ol…
Sözündə ol…

18 noyabr, 2012.

***

Gözəllik - Bir qarının
üzünə sığal çəkən qırışlarıdı,
Nurlu baxışlarıdı.
Gözəllik - Bir qocanın,
Ağac kötüyünə dönən barmağının
qabarlarıdı.
Gözəllik - Bir körpənin
tam açılmayan dilidi,
Ananın döşündən tutan
dodaqlarıdı, əlidi.
Gözəllik - Tək-tənhalıqda
öz libasını soyunub,
Budağı göyə dartınan
bir ağacdı.
Gözəllik - Göy sinəsini
yırtan Ayın, yuxarıdan aşağıya
boylanmasıdı.
Günəşin - özü görünmədən
işığının rənglənməsidi.
Gözəllik - Ən çirkin bir adamın
dünyaya, həyata gülümsəməsidi,
Ruhunun nəfəsidi.
Gözəllik - Dənizin yatması,
Oyanması, gecənin laylası,
Çırpınması, səhərin gözünü
açıb oyanmasıdı.
Gözəllik - Fəsillərin gəlməsi,
Təbiəti geyindirib,
Soyundurmasıdı.
Gözəllik - Buludun ağlaması,
Qarın süfrə salması,
Küləyin oynaması,
Şimşəyin çatlaması,
Baharın naz atmasıdı.
Gözəllik - Bu gözəllikləri
görən, duyan bir insanın,
Bir insanı sevməsidi.
Gözəllik - Bir bəndənin
Allaha sığınmasıdı,
Tanrısını görməsidi.
Öz içində İlahini
tapmasıdı…

Gözəllik - Bir insanın
doğulması,
Torpaqdan yaranıb,
Torpağa qurban
getməsidi…
Gözəllik - Adam kimi
yaşayan bir Adamın,
Adam kimi ölməsidi.

18 noyabr, 2012.

***

Bataqlıqdan yan keç, düşmə,
Öz ürəyindən sürüşmə,
Yarımcan ilə bölüşmə,
Göydən yerə satılarsan.

Nəfəsinə ləkə salma,
Heç nədən asılıb qalma,
Fırtınada qayıq olma,
Dənizlərdə batılarsan.

Varlığının qədrini bil,
Onsuz da yaş qoparır il,
Nankorları ömürdən sil,
Dəyərsizə qatılarsan.

Seçilmisən, seçilən ol,
Sınıq, sökük olsa da yol.
Sağ ilə get, haramdı sol,
Solaxayla atılarsan.

19 noyabr, 2012.

***

Böyüdükcə böyüdüm.
Yumruğumun düyünləri bərkidi.
Ayağımın addımları atıldı,
Gözlərim bu genişliyə qatıldı.
İçinə dünya sığışdı bəbəklərimin,
Dizlərimin taqəti artdı.
Gücü artdı biləklərimin,
Bir az boyum ucaldı,
Bir az gözüm açıldı.
Həyatımın nöqtələri,

Dairəyə çevrilərək, aldı məni
əhatəsinə.
Duyğularım, hisslərimin
səsinə qulaq kəsildi.
Ürəyim böyüyə-böyüyə,
Böyüklüklə əzildi.
Böyüdükcə, bu genişlik,
Dar gəldi,
Ruhumun havasına.
Açılan bu böyüklük,
Cırılaraq çevrildi,
Hisslərimin, ruhumun,
Bir nimdaş
çuxasına…

21 noyabr, 2012.

***

Kimlərisə boğa-boğa böyüyənlər,
Ətrafında boğulanlar
ordusu yaratdılar…
İçlərində - o balaca,
Doğulmayan, sakit, məsum
körpələri,
Bətnlərdən qopartdılar…
Kimsəsizliyə atdılar…
Boğulanın nəbzi vurur,
Bilirsizmi?..
Yetimlərin səsi gəlir,
Eşidirsizmi?..

22 noyabr, 2012.

***

İllərim gəzib gedir,
İzini düzüb gedir.
Cavanlıq - il altından,
Əlini üzüb gedir.

Hisslərim itilənir,
Ətrafım ütülənir.
Ağacımdan düşənlər,
Gözlərimdən ələnir.

İlin təhvilindəyəm,
Sözümün əlindəyəm.
Hələ ki, çapa bilən,
Həyatın belindəyəm.

22 noyabr, 2012.

***

Doluydum, bomboş kimiyəm,
İçimdə sərxoş kimiyəm,
Deyəsən naxoş kimiyəm,
Qəbul edərsənmi məni?

Üzümdə ağrılar qat-qat,
Bir dərd gətirirəm sovqat.
İstəyirsən, sən də aldat,
Qəbul edərsənmi məni?

Başım bəlalı gəlirəm,
Dilim dualı gəlirəm,
Ruhum havalı gəlirəm,
Qəbul edərsənmi məni?

Qələm verdin pozam, yazam,
Dünya verdin orda azam,
Allah, günahkar yalqızam,
Qəbul edərsənmi məni?

Ətəyinə sürünürəm,
Yox deyiləm, görünürəm,
Ölməyə də ərinirəm,
Qəbul edərsənmi məni?

Qapını aç, mən də gəlim,
Eşitmirəm, laldı dilim.
Bir işarə et ki, bilim,
Qəbul edərsənmi məni?

22 noyabr, 2012.

***

İki ayaq, iki əl birgə,
Bir ürəyə dərd olmayacaq.
İki göz üstə, iki göz,
Cavab - birdi, dörd olmayacaq.

23 noyabr, 2012.

# M əni də l

***

Şair - sözünə köçür,
Tənha izinə köçür.
Düyünləyib boğçasın,
Qəfil özünə köçür.

Hissini çözə bilir,
Sözünü düzə bilir.
Duyğuların selində,
Batsa da, üzə bilir.

Kimliyi yada gəlməz,
Tüstüsü oda gəlməz.
Əritdiyi sözlərin,
Acısı dada gəlməz.

Hətta adam içində,
Duyğu - onu seçimdə.
Sözünə tay olacaq,
Tapılmır, boy-biçimdə.

Sözünün körpüsü var,
Hisslərin hörgüsü var.
Özünü görmək üçün,
Gözünün güzgüsü var.

Gözlərindən keç - yaşat,
Bu şairi seç - yaşat.
Gözü önündə olma,
Ürəyinə köç - yaşat.

23 noyabr, 2012.

***

Güllə açıldı, qurşun uçmaqda,
Dəyməsi bir anı gözləyir.
Ruh bədəndədi, gözlər təlaşda,
Dağılacaq canı gözləyir.
Nəfəs düyünlü, vücud donubdu,
Çırpılacaq qanı gözləyir.
Qurşun saplandı, nəfəs toplandı,
Can torpaqda sonu gözləyir.
Ruhu havada… Doğmaları da,
Yuxarıda onu gözləyir…

24 noyabr, 2012.

***

Ürəkdə baharı əridə bildik,
Payızı yaşatdıq. Qışa çıxmadıq.
İkiyə böləndük. Həyat yoluna,
Birlikdə baş vurduq. Qoşa çıxmadıq.

Hissimiz - payızın son buluduydu,
Yağışla göylərdən silinib getdi.
Bütöv bir gün idik. Duyğularımız,
Gecəyə, gündüzə bölünüb getdi.

Danışmağa söz də tapmırıq indi,
Ürəyimiz dolu idi nə vaxtsa.
Sındırmışıq bircə addım körpünü,
Sevgimizin yolu idi nə vaxtsa.

Qaranlıq otaqda, şam işığını,
Mənimlə bölüşən sənsən. Heyf ki,
Yanağımdan axıb üzüaşağı,
Gözlərimdən düşən sənsən. Heyf ki…

25 noyabr, 2012.

***

Acı tamlı doğrunu sevdim,
Üzümə tərs şillə kimi
dəyməsinə diksinsəm də.
Hakim olan ağrını sevdim,
Yaxa qurtarmağa
özümə çəkilsəm də.
Doğrunun acısını,
Acının ağrısını gördüm
və sevdim.
Həzm etməyə çalışdım.
Doğru adlı ağrıya qovuşdum.
Ağrıyla yalanı boğdum.
Doğrunu doğdum.
Adam sifətində…
Adam içində…
Acı dadan doğrunun
ağrısından keçəndə…
Yenidən doğuldum…

26 noyabr, 2012.

***

Qollarını aç,
Bir adam gəlir,
Səndə ölən, səndə qalan,
Səndə yox olan.
Gözlərini aç.
Son nəfəsini
səndə bitirmək istəyən
Adam,
Gözlərində özünü görsün,
Və bir daha
Ölsün…

26 noyabr, 2012.

***

Sürükləndik - şirin vədlərin
ətəyində.
Kök atdıq - üstü torpaq,
Altı - bataqlığın
kötüyündə.

26 noyabr, 2012.

***

Hər kəs özü boyda bir kitabdı,
Kiminin kitabı
şəkillidi, rənglidi.
Kimininki sözləri yorur,
Bəzi kitablarsa boğulur.
Qaranlıqdan qaranlığa,
İşıq kimi
doğulur…

27 noyabr, 2012.

***

Nərd oynamaq istəyirsən?
Sən zərləri tut, qoşa at.
Bir az gərək fikirləşim,
Sən düşünmə, birbaşa at.

Mənim zərim - ağıl istər,
O, çətin ki, qoşa düşər.
Xoşbəxtlik - atılan zaman,
Zərə deyil, başa düşər.

Adamınkı gətirəndə,
Zərlər taxta qoşa dəyər.
Gətirmirsə, nə etsən də,
Zər, tullanıb başa dəyər.

Mənə deyən gərək axı,
Ağıllı iş başdan çıxar.
Zərin işi əl ilədi,
Sənin işin daşdan çıxar.

28 noyabr, 2012.

***

Yerdən göyə dəy.
Göyü yerə əy.
Bəlkə yerini dəyişdi
içindəki.
Bəlkə boğuldu səsi.
Və… bəlkə də ölə bildi
səni öldürmək həvəsi.

29 noyabr, 2012.

***

Qapıları döyən əlin sahibi,
Bizim küçəmizdən keçəndə yatıb.
Gözlərdən o qədər yük asılıb ki,
Yaxşını yamandan seçən də yatıb.

Xoşbəxtlik - namnazik corab kimidi,
Ehtiyatsız oldun, ilişib qaçar.
Rahatlıq - əlinə atılan balıq,
Saxlaya bilmədin, sürüşüb qaçar.

Gəzən fırtınayam, uyuyan vulkan,
Coşsam da, daşsam da səsə köçürəm.
Hamıya bəxtəvər görünə bilib,
Hissimə bürünüb, sözə köçürəm,
Xəlvətcə özümdən sizə köçürəm.

2 dekabr, 2012.

***

Ürəyim nazikdi, ətdən də olsa,
Bu üzdən baxanda, o üz görünür.
Döyünür, çırpınır, laxlayır hərdən,
Özünə sıxılıb, səssiz görünür!

3 dekabr, 2012.

***

Yaman kövrək notlardayam,
Bəmdə gəzişir barmaqlar.
Kor kimi hissimdən tutub,
Qəmdə gəzişir barmaqlar.

3 dekabr, 2012.

***

Qopanlar yapışmaz ki,
Susanlar danışmaz ki,
Yanaraq közdən keçib,
Kül olub, alışmaz ki…

Yıxılıb sözə dəyir,
Şillələr üzə dəyir.
Yarımcan olan kimi,
Deyəsən, gözə dəyir.

Verilən il kimidi,
Oxşayan dil kimidi.
Damladan dolub daşır,
Yanaqda sel kimidi…

3 dekabr, 2012.

***

Yavaş-yavaş gülməyi də
öyrənirəm…
Güləndə, üzdən qırışlar,
Həm alt qatlar, həm üst qatlar
açılır.
Bir şey tapıb
geyinirəm.
Hüceyrələrə enirəm.
Güzgüdə
məşq edirəm…
Alınır deyəsən,
Sevinirəm…

3 dekabr, 2012.

***

Açıldım asta-asta,
Gözlərimə açıldım.
Sığal çəkib oyadan,
Sözlərimə açıldım.

Qaranlıq yaxa çəkdi,
Yuxumu yoxa çəkdi,
Xatirəmi yelləyib,
Üstünə çuxa çəkdi.

İkidən biri oldum,
Hələlik diri oldum,
Gözümə baxmaq üçün,
Baxışın yeri oldum.

Ruhum günə açıldı,
Səhər mənə açıldı,
Səhəri salamladım,
Yenə sinə açıldı.

Toxuna bildim Aya,
Sığallandı yuxuya,
Şahid oldum günəşin
Üzündəki qorxuya.

Bu günə addım atdım,
Qaçıb özümə çatdım,
Bu nəfəssiz şəhəri,
Nəfəsimlə oyatdım.

5 dekabr, 2012.

***

Kipriyimə üz ilişib,
Gözlərimdən keçib gedir.
Saxlamağa taqətim yox,
Ürəyimdən içib gedir.

Əzizlənən yuva idi,
Qələbəsiz dava idi,
Çox sevdiyim hava idi,
Mənzilini seçib gedir.

Qopa bilir bədənimdən,
Əl üzülür gedənimdən,
Yaratdığım vətənimdən,
Bir didərgin köçüb gedir.

9 dekabr, 2012.

***

Yazıb göndərilən bir məktub kimi,
Atıldım, qutunun açıq gözündən.
Qaranlıq dünyadan işığı çəkib,
Bir gün oxudular məni üzümdən.

Oxuyan gözlərin körpüsü oldum,
Bir az yuxuluyam, bir az diriyəm.
Kitab arasında aylarla yatan,
Hərdən də oxunan məktub kimiyəm.

Bir gün bu məktubu sonuncu dəfə,
Oxuyub qutudan keçirəcəklər.
Üzünü görmədən köhnə məktubu,
Vərəqdən vərəqə köçürəcəklər.

16 dekabr, 2012.

***

Ruhumu soyunub əlimə geyindim,
Yağıştək səpildim sözlərin üstünə.
Bədənim üşüdü, ürəyim titrədi,
Çəkmişəm yenə də, izləri üstümə.

18 dekabr, 2012.

***

Kiridən yoxdu ki, göyün üzünü,
Bu qədər hıçqırıb ağlamaq olar?
Atılmış, yiyəsiz uşaq kimidi,
Göyü evimizdə saxlamaq olar?

18 dekabr, 2012.

***

Ağacam, yarpaq deyiləm,
Çılpağam, qorxaq deyiləm,
Hələ ki, torpaq deyiləm,
Ayaq üstə qazma məni.

Komamın damı uçuqdu,
Bir bəxtim var ki, qaçaqdı,
Qapım, pəncərəm açıqdı,
Divarlara yazma məni.

Ruh adamı bitirmisən,
Qucağına götürmüsən,
Allah, seçib gətirmisən,
Yaddaşından pozma məni.

18 dekabr, 2012.

***

Saralmış dəftər,
Barmaqlarımın toxunuşundadı.
Saralmış
pərdələri araladım.
İllərin altına düşdüm,
Ayların üstünə çıxdım.
Ayağım da büdrədi.
İçimdə buz bağlayan
ürəyim də titrədi.
Ölümünü gözləyən insanın,
Ölüm qapısında
hazır dayanışını gördüm.
Üzündə vida nəğməsi oxunan,
Gözlərimə toxunan doğmanın,
Belini kəsən yatağını,
Bütün həyatını boğçaya almış
otağını,
Qorxusuzluğun içində, həm də
titrəyən, qıfıllı
dodağını gördüm.
Ruhların çağırışına
əl uzadan,
O dünyadan gələnləri
salamlayan,
İçindən keçirib, göz önündə
saxlayan qadının,

Bətnindən doğulanlardan
utandığını,
Üzünün saraldığını,

Gözünün ağardığını,
Ağlamadan ağladığını gördüm.
Cümlələrin, işarələrin arasında,
Bir az da özümü gördüm.
Bu qadının həsrətini,
Ağrını doğan bətnini,
Bətnindən doğulan əllərini,
Dualarını, vidalarını,
İçindən köçən balalarını,
Doğmalarını gördüm.
Saralmış vərəqlər
saralan xatirə kimi aralandıqca,
Qat-qat yığılan,
Doğulan, boğulan nə vardısa,
Alt qatına doğru getdim.
Heyrətləndim…
İtdim - ağdan sarıya kimi
illəri yatıran bu dəftərin
həyat otağının
sarı pərdələri arxasında,
Səhifələr arasında…
Qatlardan çıxdım,
Qatlandım…
O qadının
bu saralmış dəftərdəki
son cümləsi yıxdı məni…
Yazıların, vərəqlərin,
Sarısını üzümə,
Ağrısını gözümə,
Tozunu nəfəsimə,
Xatirəsini sözümə,
Hıcqırığını səsimə,
Anamı içimə çəkdim…
Balam kimi…

17 dekabr, 2012.

***

Şücaət gözləmə ağlı qısadan,
Səbir damlası da daşır kasadan,
Bir kef məclisində, dolu masadan,
Çörəyi yarıya bölməyə nə var.

Torpağın yanğısı ürəkdə yoxsa,
Verdiyi vədləri, əməldən çoxsa,
Canını götürüb evinə yıxsa,
İsti bir yataqda ölməyə nə var.

Ölkəsindən köçüb, elindən keçib,
Qürbəti özünə təsəlli seçib,
Yurdun sağlığına şərabdan içib,
Vətəni sevirəm - deməyə nə var.

21 dekabr, 2012.

***

Soyuqdan ölərdin bəlkə,
Ürəyimi geyməsəydin.
Yenə burxuldun içimdə,
Öləcəkdin, sevməsəydim.

22 dekabr, 2012.

***

Nəvəm Nərminəyə

Bir körpə gəldi dünyaya,
Tərtəmiz bir nəfəs kimi.
Ağrıdan düşdü sevincə,
Yaşamağa həvəs kimi.

23 dekabr, 2012.

***

Nəvəm Nərminəyə

Xoşbəxtlik necə olur?
Bir anı qopararaq
özününkü edirsən.

Xoşbəxtlik necə olur?
Sevincin əlləriylə
harayasa gedirsən.

Xoşbəxtlik necə olur?
Silərək yaddaşını
bir sən olursan, bir O.

Xoşbəxtlik necə olur?
Dünyanı unutdurub,
Ürəyindən öpərək,
Sözəgəlməz hissləri
Sığallayıb deyir O,
Mənim bu körpəm kimi.

23 dekabr, 2012.

***

Uçurumu Allah yox,
İnsan özü yaradır.
Yıxılanda, əlçatmaz
Yerin rəngi - qaradır.

Özünə gəl, yaxınlaş,
Qaçıb, özündən çıxma.
Allahın verdiyini,
Göz qırpımında yıxma.

Yolun düzü, əyrisi,
Gedənin ayağı var.
Hər bir kəsin içində,
Tutacaq dayağı var.

Göz önündə olsan da,
Varlığın çıxılacaq.
Sənin «möhtəşəmliyin»
Gözlərdən yıxılacaq.

Odur ki, asta davran,
Uçurumu oyatma.
Bədənindən ziyan yox,
Ruhunu çölə atma.

26 dekabr, 2012.

***

Dilimi qurudub lal-dinməz edib,
Qəlbimdən yük asıb, bölünməz edib,
Burula-burula çəkilməz edib,
Nəfəsim sözümün üstə qıvrılır.

Başımı fırladır öz oxu üstə,
Ömrümü yazıbdı tərs yuxu üstə,
Ölümə çatmayan bir qorxu üstə,
Həyatım dözümün üstə qıvrılır.

Əynimdə illərin köhnə libası,
Ürəkdə yol qazan bəxtin duası,
Gözümdə ruhumun yorğun havası,
Ağrılar dizimin üstə qıvrılır.

Sürünüb, yanımdan sürüşüb gedən,
Torpağa, yarpağa ilişib gedən,
Zəhəri mənimlə bölüşüb gedən,
Bir ilan izimin üstə qıvrılır.

Əlində oynadıb bu havaları,
Yağdırıb ömrümə yağışı, qarı,
Göyləri çəkərək üzümə sarı,
Son yuxu gözümün üstə qıvrılır.

27 dekabr, 2012.

***

Dənizdə üzmək eşqi,
Artırmış ildən-ilə.
Dalğalar atdı məni,
Yenə də bu sahilə.

Kimsə ayağı altda,
Görməyib əzər məni.
Kimisi odun bilib,
Ocağa düzər məni.

Bir addımlıq arzunun,
Yolu qısa olaydı.
Kimsə yenidən məni,
Dənizə tullayaydı.

Bəlkə, gözəl bir quşun,
Baxışlarına dəydim.
Dimdiyində, göylərdən,
Düz dənizə düşəydim.

29 dekabr, 2012.

***

Bir ili də yaşayıb,
Qalanlara - salamlar.
Sevginin qucağında,
Olanlara - salamlar.

Həyatın bir anını,
Yalanların sonunu,
İtirdiyi canını,
Bulanlara - salamlar.

Gücünü, qüvvətini,
Taleyin qismətini,
Üzündən həsrətini,
Yonanlara - salamlar.

Dünyadan gedənlərə,
Ömürdən itənlərə,
Bu ruhsuz bədənlərdə,
Donanlara - salamlar.

İtirilmiş torpağa,
O budaqsız yarpağa,
Yaş göndərib yanağa,
Yananlara - salamlar.

Dirilərək, ölərək,
Dərdimizi bölərək,
Üzümüzə gülərək,
Ananlara - salamlar.

Edilən günahlara,
İçdən qopan ahlara,
Qaranlıq sabahlara
Çatanlara - salamlar.

Hər ötən ildə qalan,
İçimizdə boğulan,
Arxamızda yıxılan,
Qurbanlara - salamlar.

Çiynimizdə mələyə,
Hələ sevən ürəyə,
Allah, səninəm - deyən,
Adamlara - salamlar.

30 dekabr, 2012.

***

Özünə yer edib, üz göstərəcək,
Baxarıq qədəmi, ədəbi nədi.
Biz də yuxuluyuq, il də yuxulu,
Oyanıb görərik il nə gündədi.

1 yanvar, 2013.

***

Bölündüm, çıxıldım, bərabərləşdim,
Vuruldum, toplandım, payım qaldı ki?
İsmimin felinə əvəzlik oldum,
Sifətlər sayında tayım qaldı ki?

Suallar, nidalar, nöqtə üstündə,
Vergülün sonunda hərif çözümü.
Dırnaq arasında işarə kimi,
Uzun bir xətt üstə yıxdım özümü.

6 yanvar, 2013.

***

Küsdüm yenə…
Ağırlığı yaxamı çəkən
şübhələrimdən,
Yuxusunu gözləməkdən
titrəyərək
yorulub bədənimi geyən
gözlərimdən,
Ürəyimi qoparmağa
gücü çatmayan
əllərimdən,
Boğazımda kilidlənib
toruma ilişən
səsimdən,
Məni əlində oynada-oynada
ciyərimdə rəqs eləyən
nəfəsimdən,
Yükümə atalıq edən
ürəyimdən,
Özümdən, üzümdən
küsdüm yenə…

Küsdüm yenə…
Məni dünyaya gətirib,
Gedə bilən
anamdan,
Həyatına yol çəkdiyim,

Ölümümə qol çəkməyən
balamdan,
Ahımdan, günahımdan,
Hərflərin, notların
sığalından…
Yerini rahatlayan
ruhumdan,
Məni qoruyan Allahımdan,
Küsdüm yenə…
Nə deyim sənə…

5 yanvar, 2013.

***

Ağaclar da soyundu,
Buludlar da…
Sahil də dənizi geyindi
əlinə,
Adamlardan soyundu.
Mən də soyundum…
Neçə qatımdan
sevgimi, ağrımı, həsrətimi
soyundurdum…
Gözlərimlə,
Soyunmuş, soyulmuş, oyulmuş
şəhərin çılpaq adamlarının,
Küçələrinin,
Gecələrinin,
Mənim kimi
dənizsiz, sevgisiz, səhərsiz
qalanlarının
hissini, ağrısını geyindim
ürəyimə…
Dar gəlsə də
əynimə…

8 yanvar, 2013.

***

Lap çoxdan olub…
Niyə düşdü yadıma?
Bir qapı açılmışdı
qaranlıq həyatıma.

Lap çoxdan olub…
Qışın üzü əyilmişdi.
Xoşbəxtliyimin əlləri,
Kədərin üzü keyimişdi.

Lap çoxdan olub…
Bələyini kəfən edib,
Basdırmışdım gözdən uzaq,
Zənn etmişdim, ölüb gedib…

Lap çoxdan olub…
O zaman da qar yağırdı.
Pəncərənin o üzündən,
Bir adam mənə baxırdı…

9 yanvar, 2013.

***

Bu uzun ömürü qısalda bilib,
Eninə keçməyi çiynimə aldım.
Üç fəsil içində nəfəs almadan,
Fəsilsiz dünyanı əynimə aldım.

Dünən bir ağacdan asılan idim,
Torpağa qarışıb gülmək istəyən.
Keçən il birini dəfn eləmişdim,
Güzgüdə biri var, ölmək istəyən.

Yerdən göyə qalxan nərdivandayam,
İşıq çəkir məni, pillələr qırıq.
Axsaya-axsaya yırğalanıram,
Üstümə yağılan güllələr qırıq.

Bu, tunelə bənzər ömür - keçiddi,
Divarı yoxdu ki, tutub keçərdim.
Ölümdən yıxılıb, doğulub gəlib,
Ruhuma yeni bir bədən seçərdim.

10 yanvar, 2013.

***

Yağış kimi, qar kimi,
Göydən yerə doğulur.
Azadlığa çıxsa da,
Ayaq altda boğulur.

10 yanvar, 2013.

***

Yaşın üstə yaş gəlir,
Demə ki, qocalırsan,
İllərin sığalından,
Bir addım ucalırsan.

10 yanvar, 2013.

***

Qorxmuram ki…
Ləpirlərin tozunu silə-silə,
Çəkilirəm
kimsəsizliyə…

Qorxuram ki,
Kimsə ünvanımı bilə,
Toxuna səsilə
səssizliyə…

13 yanvar, 2013.

***

Hamıda uçmaq həvəsi var…
Təki, ayaqlar üzülsün yerdən…
Neyləyirik?
Sadəcə çiynimizdən çıxa biləcək
qanadların
yerini itiləyirik…

15 yanvar, 2013.

***

Saxladım ki, qaçmasın…
Sürüşdü əlimdən.
Ayaqları sözümə baxmadı…

15 yanvar, 2013.

***

Yatan şəhər
necə də gözəl görünür
oyaq adamın gözündə…
Yatan adam,
Oyaq şəhərdə əcaib…
Və qəraib…

15 yanvar, 2013.

***

Şair də Adamdı…
Nə olsun sözü çılpaqdı…
Özü geyinməlidi…
…Gülməlidi…

15 yanvar, 2013.

***

Küncə qoyduğum…
Unutduğum…
Amma əlimdən tutduğum
Adamam…

Qırışlarımda,
Ağrılarımda,
Həm də nəfəsimi çəkdiyim
dualarımda olan
Adamsan…

İzini seçən…
Özündən keçən…
Amma sənin ömrünə köçən
Adamam…

Çəkisizlikdə,
Kimsəsizlikdə,
Əslində, mənsizlikdə qalan
Adamsan…
Adamdasan…

21 yanvar, 2013.

***

Qızılgülün tikanı var,
Aldatmasın ətri səni.
Göz oxşayır, ağrıdacaq,
İstəsə də xətri səni.

23 yanvar, 2013.

***

Sıyrılıb keçdi qalmadı,
Toxunduğu yer, qan verdi.
Zəhəri qol-budaq atdı,
Sağlam bədənlər can verdi.

23 yanvar, 2013.

***

Axtaranda ünvansızdı,
Gözlənilməz təb kimidi.
Ağrıları kəsə bilən,
Bir atımlıq həb kimidi.

23 yanvar, 2013.

***

Mirasımız parasızdı,
Ələgəlməz incimiz var.
Ürəklərdə qazanc olan,
Sözdolu sevincimiz var.

29 yanvar, 2013.

***

Dağıtmağın aşiqləri,
Qurulanı dağıdacaq.
Qurulmağın aşiqləri,
Hər addım aşiq olacaq…

29 yanvar, 2013.

***

Çiçək olmaq istərdinmi?
Əllərdə olan,
Qoxusu içə çəkilən,
Ətri alınan,
Təəssüf ki, tez solan.

Hava olmaq istərdinmi?
Sevənlərin başında
fırlanan,
Kipriklərdən sivrilib,
Ürəklərdən keçən,
Yaşadan,
Təəssüf ki, hərdən çatmayan.

Ay olmaq istərdinmi?
Qaranlıqda
əlçatmazlığa qaldıran,
Zülmətə işıq payı yollayan,
Təəssüf ki, parasında qalan.

Günəş olmaq istərdinmi?
Yolu hər səhər gözlənən,
Üzünə gözlər açılan,
Gəlişi, gedişi arzulanan,
Təəssüf ki, hər gün batan.

Çiçəktək ətri alınan,
Havatək başda fırlanan,
Aytək parasında qalan,
Günəştək, hər gün ölərək,
Hər gün yenidən doğulan
Adam olmaq istərdinmi?

29 yanvar, 2013.

***

Küncümüz var…
Hamıdan üz döndərib,
Üzümüzü tutmağa
Küncümüz var…
Uçurumda olsa da.

Küncümüz var…
Ruhumuz əsir olan,
Havalardan havalanan…
Ağrılarla dolsa da.

Küncümüz var…
Bizə cəzalar verən,
Hisslərimizi kəndirləyən
Küncümüz var…

İki tərəfi hamar,
Bir tərəfi adamlar,
Üst qatı fırtınalar,
Alt qatı yox olanlar,
Qapısı açıq
Küncümüz alaçıq…

1 fevral, 2013.

***

Dairə cəhdindədi…
Kiminsə məhvindədi…
Yerdən göyə qalxsa da,
İşarədən çıxsa da,
Yenə öz kefindədi…
Birinci olduğuyçun,
Gözü «A» hərfindədi…

1 fevral, 2013.

***

Ürəyimdə xarabalıq,
Yer də yoxdu bir adamlıq,
Mənim üçün bir salamlıq,
Gəlməyinin faydası yox.

Özülündən sökülən - mən,
Öz içinə bükülən - mən,
Bu dünyadan çəkilən - mən,
Sevməyinin faydası yox.

Yer üzündən dərilmişəm,
Göy üzünə sərilmişəm,
Onsuz da gedib gəlmişəm,
Ölməyimin faydası yox.

10 fevral, 2013.

***

Əynimə dar gəlsə belə,
Etibarı itsə belə,
Gecəylə gündüz arası,
Yüz xəyanət etsə belə,
Həyatdan boşanmaq olmur.

Məni doğan anamdımı?
Məndən qopan balamdımı?
Xeyirindən şərinədək,
Doğrusu da yalandımı?
Dünyadan daşınmaq olmur.

Güzgüsündə üzlər gördüm,
Göy üzündə gözlər gördüm.
Musiqidən havalandım,
Bələyində, sözlər gördüm,
Belə də yaşamaq olmur.

11 fevral, 2013.

***

Günəş bathabatda belə
Buludlara ahəng qatdı.
Fırçasını uzadaraq,
Göyə çəhrayı rəng atdı.

İşığından nur paylayan
Adama bənzəyib getdi.
Gəlişiylə, gedişiylə,
Dünyanı bəzəyib getdi.

Bir az Anama oxşadı,
Hərarətli izi qaldı.
Hələ də əlimdən tutan,
Bir ömürlük sözü qaldı.

Günəşə öpüş göndərdim,
Çıxıb batdığı tərəfə.
Şüası sevgimlə düşsün,
Anam yatdığı tərəfə…
Atam çatdığı tərəfə…

11 fevral, 2013.

***

Sən heç nə soruşmurdun ki…
Mən cavab verirdim…
Ömrümüz bir okean…
Sən, yenə də üzündəsən…
Özündəsən…
Mən, hələ də dərinliyə
baş vuran…
Verilməyən sualları
cavablandıran…
Müəmmalı üst qata
atılan…
Və boğulan…
Sən…
Məni görürsən?..

17 fevral, 2013.

***

Bütün yollar düz deyil ki,
Hər gördüyün üz deyil ki,
Bir nəfərdir, yüz deyil ki,
Tək deyiləm, bir orduyam.

Çoxum yoxdu, azım ki, var,
Odum sönüb, közüm ki, var.
Görünmürəm, yazım ki, var,
Mən də ruhumun yurduyam.

Torpağım var söz əkməyə,
Gücüm də var bel bükməyə,
Yenə çarmıxa çəkməyə,
Sına gəlsin, mən burdayam.

17 fevral, 2013.

***

Ruhunu xərcləmə, satışda yox ki,
Alıb, bədəninə qazanc qatasan.
Özünü xərcləmə, alıcısı çox,
Çətin ki, hardansa ömür tapasan.

18 fevral, 2013.

***

Ayağım da yatır, əlim də yatır,
Bu ruhla bu ürək yatmaq istəmir.
Nə səhər açılır, nə göz yumulur,
Ay da üzə durub, batmaq istəmir.

22 fevral, 2013.

***

Köhnəni dağıdıb, yenə tikirik,
Torpağı öldürüb nəsə əkirik,
Görünən tərəfə hasar çəkirik,
İtirilən nədi, qazanılan nə?

Göy yerə dartılır, yer göyə qalxır,
Qızıl dediyimiz çamura axır,
Hər yetən, sinəyə bir ulduz taxır,
İtirilən nədi, qazanılan nə?

Bir yerdə durmuşuq, seçənlər gəlir,
Özündən yuxarı köçənlər gəlir,
Bizim üstümüzdən keçənlər gəlir,
İtirilən nədi, qazanılan nə?

Addımlar böyüyür, əzilənlər çox,
Sevinənlər varsa, üzülənlər çox,
Güllə qabağına düzülənlər çox,
İtirilən nədi, qazanılan nə?

Zaman öz oxunda fırladır bizi,
Dünya havalıdı, əyilib üzü,
Dillərdən asılıb ürəyin sözü,
İtirilən nədi, qazanılan nə?

Hamı Vətən deyir, sayaq - üstəyik,
Allah yaratdığı dayaq üstəyik,
Elə bilirik ki, ayaq üstəyik,
İtirilən nədi, qazanılan nə?

22 fevral, 2013.

***

Sükutu eşitmək,
Üzünü görə bilmək.
Cavabsızlığın rəsmində,
Kor baxışında azmaq…
Bu sükutdan səsini pozmaq…
Qulaqlarım batdı
sükutun bağırtısından…
Sükut - qorxulu imiş
dil açmadan ağrı çəkən
körpə çığırtısından…
Sükut - ağlından qaçan
dəli kimiydi həm də…
Sükut - yaşananları
özündə basdıran
ölü kimiydi həm də…
Sükut idim mən də…
Sükutda itdim mən də.

27 fevral, 2013.

***

Yaşın üstə yaş gəlirsə çıxılmaz,
Bölüb, vurub, saxlasan da fərqi yox.
Sevgi, sancaq kimi qəlbə taxılmaz,
Yazıb, pozub, yoxlasan da fərqi yox,
Qapıları bağlasan da fərqi yox.

3 mart, 2013.

***

Bir tonqal axtarırdım ki,
Gedib üstündən tullanam.
Yox idi bizim tərəfdə
möcüzələrə aldanan…

5 mart, 2013.

***

Səkkizi mart bizim bayramımızdı,
Bəzənək, düzənək, süfrə də açaq.
İlin bircə günü hədiyyəmiz var,
Tərifdən nazlanıb mətbəxə qaçaq.

Qulluğunda duraq evdəkilərin,
Nə desələr onu bişirək gərək.
Bir xoş sözü belə, gözəl pay kimi,
Alaraq, hamıya üz də göstərək.

Kişilər sağlığa badə qaldırır,
Uzun ömür belə diləyir bizə.
Bir ömür onlara dözdüyümüzçün,
Heyran da qalırlar hövsələmizə.

Səhərdən axşama qaçhaqaçdayıq,
Başımız da durur boyun üstündə.
Bu günü kim icad edib, bilmirəm,
Bizi də oynadıb oyun üstündə.

Onsuz da qadınıq, buna şübhə yox,
Heç olmaya bir gün Xanım olaydıq.
İlin hər günündə kişilər, sizdən,
Diqqət və məhəbbət payı alaydıq.

7 mart, 2013.

***

Ürəyimdən nəsə keçir…
Sıyrılır divarlarından,
Üşüyür havalarından.
Cırmaqlayır hisslərimi,
Çabalayır,
Sürüklənib kəsə keçir…

Boğur ürəyin içini,
Sıxır dəmir barmaqlarla,
Ağrıların da ovcundan
qanımla süzülüb keçir…

Bir az da əzilib keçir,
Əzdiyinə əzilənim…
Üzülənim…

Pıçıltısı səsə keçir,
Tövşüyür, yıxılır, durur,
Ləngər vurur…

Ürəyimdən nəsə keçir…
Kəsə keçir…
Səsə keçir…
Üzə keçir…
Nəfəsimi kəsə-kəsə,
Sözə keçir…
Allah…
Birnəfəsə keçir…

9 mart, 2013.

***

Gözüm yaxını görmür,
Hər şey duman içində.
Yaş öz sözünü deyir,
Həyat güman içində.

Fikirlər üzə çıxıb,
Üzümə cırmağ atır.
Göydən uzanan tilov,
Ömrümə qırmağ atır.

Söykənmişəm, özülün
Əllidən çox daşına.
Bundan sonra neçə daş
Düzüləcək başına?

11 mart, 2013.

***

Həyatın əlində oyuncaqlarıq,
İpinə bağlayıb sallayır bizi.
İllərə toxunub əzilən kimi,
Gözündən qırağa tullayır bizi.

13 mart, 2013.

***

Gizlənib gecənin sakitliyində,
Yıxıldım ulduzun axdığı yerə.
Məndən qopan adam yolu itirdi,
Yenə döndük Ayın baxdığı yerə…

14 mart, 2013.

***

Neçə ildi böyüyürsən
ürəyimdə…
Bütöv ürəyim boydasan…
Kim bilir indi hardasan…

14 mart, 2013.

***

Uçurum, yolumun gözünə çıxır,
Buludlar, dərdini ovcuma sıxır,
Gecə də, özünü üstümə yıxır,
Neyləyim, əlimə çətirmi alım?

Ruhumun yeni bir qəfəsi gəlir,
Ürəyin oynamaq həvəsi gəlir,
Üzümə ölümün nəfəsi dəyir,
Neyləyim, əlimə ətirmi alım?

Bu həyat yenə də qəsdimdə qalıb,
Başımdan qopanlar tüstümdə qalıb,
Şeirim, vərəqin üstündə qalıb,
Neyləyim, əlimə sətirmi alım?

17 mart, 2013.

***

İstəyirəm dəli külək,
Öz evinə tələsməsin.
Yeri-göyü əsdirərək,
Bir az da bizi gözləsin.
Gəl bu küləyə qoşulaq…
Qəfil ruhumuzu seçən,
İçimizdən əsib keçən
sevgimizi,
Özümüzə qonaq edək…
Küləyin evinə gedək…

22 mart, 2013.

***

Az qalıram ki, götürüb
özümü dünyadan soyum,
Canımı bir yerə qoyum.
Əlim də çatmasın ora.
Unudulmuş əşya kimi,
Tək hörümçək məni görsün,
Haşiyəli duvaq hörsün.
Mən öz vaxtımı gözləyim,
Özümü vaxtdan gözləyim…

1 aprel, 2013.

***

Balaca çaydaşı oldun,
Su dibində hamarlandın.
Çınqıllara toxunaraq,
Daşdan-daşa tumarlandın.

Kələkötür daşlar belə,
Bir divara hörüldülər.
Ağırlığı çəkilməyən
daşlar, yola sərildilər.

Biri - başdaşına döndü.
Biri - hasar oldu belə.
Biri - usta əlləriylə,
Döndü uca bir heykələ.

Binalara ucaldılar,
Pillələrdən keçildilər.
Əzizlənə-əzizlənə,
Hətta özül seçildilər.

Körpüləri bəzəyən kim,
Sütunlarda dayanan var.
Hər gün möhür daşı kimi,
Üstünə baş qoyulan var.

Sən hələ də özün kimi,
Daşlar ilə su dibində.
Üstündə ağalıq edən,
Çaya səs vermək təbində.

Birdən səni gördü naşı,
Ovcuna alıb oynatdı.
Əsəbinə yükləyərək,
Yenə də çaya fırlatdı.

Gözdən uzaq qaldın hələ,
Kimsə axtarıb tapacaq.
Ən qiymətli bir daş kimi,
Adam boynuna taxacaq.

4 aprel, 2013.

***

Yer üzünə enəndən,
Sən yaxşısan, mənsə pis.
Beləcə ləngər vurub,
Dayanmır tərəzimiz.

Sənin çəkin ağırdı,
Mən isə quş evladı.
Beləcə dartınaraq,
Dünya bizi saxladı.

Mən yuxular adamı,
Sənsə gerçəyin üzü.
Beləcə toqquşaraq,
Aldadaq ömrümüzü.

8 aprel, 2013.

***

Doğum günümə

Əlli yeddi il öncə,
Dünyaya gəlmək varmış.
Gəlib, görüb, yaşayıb,
Ağlayıb gülmək varmış.

Yarım əsr arxada,
Yeddi il çiynimdədi.
Duyğularım hələ ki,
Ruhumun əynindədi.

Qazancım sevginizdi,
Allah sizə yar olsun.
Bütün təbrik edənlər,
Varlığınız var olsun.

10 aprel, 2013.

***

Rəngdən rənglərə düşdüm…
Bir az qaradan ağa.
Ağdan sarıya düşdüm.
Adımın ahənginə,
Bir sevginin rənginə,
Bir az bozun cənginə,
Düşdüm,
Yaşımdan düşdüm…

Uşaqlığım, gəncliyim,
İlk sevgimlə görüşdüm.
Yaşıllığın kölgəsinə,
cəhrayının döngəsinə,
Qırmızının ölkəsinə,
Düşdüm,
Keçmişlə öpüşdüm…

Sevib-sevilən illə,
Ana olduğum günlə,
Qopan itirdiyimlə,
Düşdüm,
Özümdən düşdüm…

Qəhvəyinin tonuna,
Bir az göyün yanına,
Birləşərək qarışan
rəngin hava donuna,
Düşdüm,
Yenə ötüşdüm…

Səsin, sözün rənginə,
Doğma gözün rənginə,
Əsas, düzün rənginə,
Adını bilmədiyim,
Amma özüm rəngində,
Qəfil izimə
düşdüm…
Nəfəsimdən yıxılan
rəngə -
Özümə düşdüm…

12 aprel, 2013.

***

Dəqiqənin çəkisini hiss etdim…
O qədər ağır idi ki…
Çiyinə gəlməz qədər…
Ürəyimin döyüntüsünü hiss etdim…
O qədər fağır idi ki…
Beyinə gəlməz qədər…

14 aprel, 2013.

***

Günün günorta vaxtı,
Şəhərdə gecə gəzir.
Ayağı göylərdədi,
Baş üstə necə gəzir?

Ayı, günü gizlədib,
Ulduzları xəstədi.
Boz pərdəsi nəm çəkib,
Əhvalımız üstədi.

Gecə ilə gündüzün,
Bədənində köynəyik.
Ağırlaşan havanın,
Yaxasında düyməyik.

Buludlar göy üzündə,
Gözlərini bağladı.
Ayrılıqdan doğranıb,
Bizə bir gün ağladı.

22 aprel, 2013.

***

Xatirədən qovulmaq,
Xatirəni qovmaq var.
Qovhaqovun içində,
Yaddaşdan ovulmaq var.

27 aprel, 2013.

***

Ağa çox da güvənmə...
Rənglərin rəngsiz sözü,
Həyatın qorxunc üzü...
Damarına kök salan,
Ağ qan zərrəciyi də,
Ölümünə işləyər.
Ağ rəng də ləkə salar...
Gözə düşər, bağlayar...
Ağlardan qurtar...
Şəkəri, duzu,
Gərəksiz tozu,
Ağ geyinən düşməndi...
Ağ - çox təhlükələnib...
Ağ - özü də ləkələnib...

6 may, 2013.

***

Hissim yıxılan yerlərin
uçurumu başlayır...
Onsuz da titrəyə-titrəyə,
Ömür keçir
üst mərtəbədən
alt mərtəbəyə...

Ağıldan yuxarı çıxan,
Qələbəni alqışlayır...
Hissim yıxılan yerlərin,
Uçurumu başlayır...

9 may, 2013.

***

Sevgidə qalib yoxdu,
Sevgi - məğlubiyyətdi.
Sevgisinə baş əymək,
Ən böyük cəsarətdi.

10 may, 2013.

***

Duyğulardan yol salan
sevgi - hissin ülvisi.
Azadlığa can atan
ruhun - könüllü həbsi.

10 may, 2013.

***

Bir Adam var...
Bədəni ruhuna qəbir,
Ruhu bədənə başdaşı,
Üstündə yazıları,
Ətrafında oxucuları...

Bir Adam var...
Tənhalığa çəkilən,
Ağac kimi yarpağıyla
tökülən,
Özülünə çökülən,
Öz içinə çəkilən...

Bir Adam var...
Öz üstünə yıxılan,
Nəfəsiylə boğulan,
Cəngəllikdə doğulan,
Adamlardan qovulan,
Adam kimi
Adam var...

Bir Adam var...
Dörd divar arasında,
Üstü açıq qəbirdə.
Sözlərin sırasında,
Bir Adamda
EDAM var...

10 may, 2013.

***

Ağ vərəqə o qədər
söz yazmışam,
Vərəq -
Üzüqaradı...
Qələm -
Ağ günə çıxıb...
Mən -
Arada azmışam...

12 may, 2013.

***

Salxım kimi ovcundadı üzüm...
Torpaqdan şirə alan,
Torpaqdan aralanan.
Əlimin içi boyda,
Gilə-gilə yığılmışam dözümə...
Bir az ölü gözümə,
Bir az diri üzümə...

Torpağımın məhsuluyam...
Ağlım ilə hisslərimin
özümdən keçən yoluyam...

Bu üzüm salxımı da
bərbəzəkli bir qabda
qoyulubdu qarşına,
İstəsən - dadına bax.
Dişlərin arasında
əzilən ağrıların
indi fəryadına bax...

Yedirtməkçün doğulan,
Yeyilərək boğulan
bircə salxım üzüm - dən...
Durum, qaçım özümdən,
Yeyiləcək üzümdən...

13 may, 2013.

***

Bu gün mənim ölçümdə deyil,
Zor ilə oturub çiynimə.
Yaxası bol, ətəyi uzun,
Gün, özünü yıxıb əynimə.

16 may, 2013.

***

Göy - üzünü əlləriylə örtübdü,
Bədəni görünsə də...
Göy - sıxılıb sevgisinin ovcuna,
Ağrısı sürünsə də...

27 may, 2013.

***

Gözlərimin giləsi - Yer kürəsi.
Gözlərimin ağı - Kainat.
Kirpiklərim - gözlərimin pərdəsi.
Gözlərim - Həyat...

27 may, 2013.

***

Üzünü görməsəm də,
Ürəyin mənə tanışdı.
Ürəyindən keçmişəm...

30 may, 2013.

***

Əllərini qoru.
Kəraməti, fərasəti,
Cəsarəti böyükdü...
Hər şey
ələ gəlir, əldən gedir,
Ələ düşür, əldən sürüşür...
Əl tutursan,
Əl uzadırsan.
Əllər bağlanır,
Əllər yoxlanır,
Əl - qandallanır...
Qazancın da -
Əlinin zəhməti adlanır...
Fərdiliyin
əllərinin izindədi.
Çalış ki,
Ələ baxma.
Əlinlə
evlər yıxma.
Əlin - başını əyməsin,
Dizlərinə döyməsin...
Əl - ovucun hasarı...
Əli - qana bulama,
Barmağına dolama...

1 iyun, 2013.

***

İçimizdə bir cocuq yaşayır hələ,
Bətnimizdə onu gizlətsək də belə...

1 iyun, 2013.

***

Söykənmişəm
qaranlığın taqətsiz halına,
Gecənin əhvalına,
Ayaqları yalına...
Özümdən geri qalmışam...
Kölgəmin yeri olmuşam...

6 iyun, 2013.

***

Burulğan...
Adət etdiyim məkan...
Yenə çəkir özünə,
Varlığımı, gözünə...
Dolanıram, fırlanıram,
Buruluram, duruluram,
Qovruluram, yoğruluram,
Yoruluram...

Həyatımın yelləncəyi,
Elə bilir qucağında
Bihuş edib sevincəyi...
Hisslərim dibimə çökür,
Ağlımsa ağlımı sökür...

Qoşulmuşam burulğana,
Boğa-boğa MƏN doğana.
Səsim də sıxılıb qalıb,
Cavab vermir salamına.
Həsrət qoydum burulğanı,
Allahın bir kəlamına...

10 iyun, 2013.

***

Bir körpə yaşayır...
Xatirəsi böyüməyib,
Hələ heç kimi sevməyib,
Ürəyindən yıxılmayıb,
Öz içinə sıxılmayıb...

Bir körpə yaşayır...
Xoşbəxt bir ağacın
Budağında bar kimidi,
Dərilməyib,
Heç kimə pay verilməyib...

Bir körpə yaşayır...
Gecə ilə gündüzü
Səhv sala bilir,
Yuxusunda qala bilir...

Bir körpə yaşayır...
Hələ nə günü öldürüb,
Nə öz şəklini sildirib,
Nə kimliyini bildirib...

Bir körpə yaşayır...
Dünyasına doğulmayıb,
Hıcqırıqda boğulmayıb,
Varlığından yox olmayıb...

Bir körpə yaşayır...
İstəyini bilən yoxdu,
Adamların arasından,
Səhifəsini çevirib,
Yazısını silən yoxdu...

Bir körpə yaşayır...
Nə adı var, nə sözü var,
Nə üzünə tutulacaq
bərbəzəkli güzgüsü var.
Həyata çırpına bilən,
Tək ürək döyüntüsü var...

Bir körpə yaşayır...
Bu körpənin yuxusu var...
Yuxusunun yaxasında,
Təkcə ölüm qorxusu var...

21 iyun, 2013.

***

Bu da səhər,,,
Yenə eyni işarələr!!!
Cavab axtaran suallar???
Və fikir çəkən nöqtələr...

28 iyun, 2013.

***

Ürəyindən keçsəm əyər,
Gözlərini çıraq elə.
Mən özümü itirmişəm,
Tapsan, bizə qonaq elə.

5 iyul, 2013.

***

Dərdini hördün mənə,
Dərdimi çəkərsənmi?
Dərdin son mənziliyçün,
Evimi tikərsənmi?

Adımın torpağı var,
Üstündə durmaq olar.
Mənim üçün son bahar
ağacı əkərsənmi?

Ağacın kölgəsinə,
Ruhumun nəfəsinə,
Ovuc qədər səsinə,
Duyğunu bükərsənmi?

8 iyul, 2013.

***

Səpələnib yer üzünə,
Millətlərə bölünmüşük.
Dilimiz, dinimiz ayrı,
Sərhəddimizi hörmüşük.

Aşağıdan yuxarıya
baxıb, göyə atılırıq.
Yenə də yerə düşürük,
Yenə göyə satılırıq.

Müharibələr, üsyanlar,
Savaşlar - Mənəmliyimiz.
Vicdanı da itiririk,
Unudulur kimliyimiz.

Yerdən göyə, göydən yerə
güllə yağır, od püskürür.
Torpağın üzünü belə,
Bu amansızlıq küsdürür.

Bütlərə sitayiş edib,
Kəm baxırıq bəndələrə.
Tapdalayıb bərəkəti,
Dırmaşırıq zirvələrə.

Körpələrin, qocaların,
Üzündə yetim havası.
Kişilərin, qadınların,
Tükənmir sərvət davası.

Təbiət də dilə gəlir,
Haqsızlığa üsyan edir.
Qasırğalar, zəlzələlər,
Fırtınalar dövran edir.

Yuxarıdan, dünya özü,
Ovucun içinə sığır.
Qarışqa kimi qaynaşan
adamlar dünyanı sıxır.

Ayaq altdan yer də qaçır,
Hamımızın günahı var.
Yerdə Allahlıq edənlər,
Dünyanın Tək Allahı var.

9 iyul, 2013.

***

Çapığın ürəyimdədi,
Nəfəsin içimə köçüb.
Gözlərim dolubdu artıq,
Sənin gözündən su içib.

Özündən getmə... Bir anlıq,
Kirpiyimdən al bu yaşı.
Əllərini azad burax,
Ətəyindən tök bu daşı...

19 iyul, 2013.

***

Sözdən sap əyir indi,
Keçir iynə gözündən.
Tik açıq yaraları,
Naxış da vur üzündən.

20 iyul, 2013.

***

Kəlməni kəsib doğradım,
Ötənlərimə pay düşdü.
Acından ölən anların,
Bəzisinə saray düşdü.

Bir ayağımı götürdüm,
O birisinə toy tutdum.
Qaçıb getdim mənsiz yerə,
Var-yoxumu da unutdum.

Zənbilə yığdım ömrümü,
Yola saldım qürbət elə.
Səpələdim hisslərimi
küçələrə elə-belə.

10 avqust, 2013.
Barselona.

***

Venesiya…
Suyun içində şəhər…
Şəhərin içində su…
Möcüzəvi bir yuxu…

Sularından keçənlər,
Şəkil də çəkdirdilər
faciə üzərində.

Ağlayıbmı daşmısan?
Sərhəddimi aşmısan?
Nə qədər ayaqlandın?
Kiçik dalanlarında
qayıqla gəzişənlər
sevincək,
Sən isə tək.

Fəryadına bulaşdım,
Ölüm ayağındakı
bu şəhəri dolaşdım.
Səsli-küylü döngələrin
lal sükutlu
divarlarına toxundum.
Fəlakətindən keçib
qatına düşdüm mən də,
Çatından qan sızan
damarına ayaq basdım.
Pəncərələrdən
ölü nəfəsi yağan yollarının
suyu da ölümcül idi.

Venesiya…
Can üstə can verən şəhər…
Ağrına düşdüm.
Ağlamağa da qorxdum…
Gözümdə saxladım
göz yaşlarımı,
Damladan daşarsan deyə…

Haqqını gördüm.
Nahaqqını gördüm göy üzünün də…
O da sənə yağdı.
Dənizə xoş gələn şəhər.
Yavaş-yavaş ölən şəhər.

Venesiya…
Hamı sənə can atarkən,
Məndə doğan bu hisslərin
iç üzünü çırpdım yerə.

Dənizin dibinə çökən gəmisən…
Ağlayan gəlin kimisən,
Zor ilə sevilməlisən…

Səninlə şəkil çəkdirdim,
Məni özündə saxladın.
O qorxulu üzünü,
Mən də özümdə saxladım.
Venesiya…
Bütün dünya
sənin qucağına axıb,
Sularından keçib-gedir.

Venesiya…
Suların içində şəhər.
Kimsənin xəbəri yox ki,
Şəhər, suyuna bürünüb,
Özülünə köçüb gedir.

Bu qədər adam içində,
Doğulduğunu hiss etdim.
Venesiya…
Gözəlliyinə vuruldum,
Hıcqırığını eşitdim,
Fəlakətində buruldum.
Hönkürə-hönkürə belə,
Sənə qonaq gələnlərin
hisslərinə, gözlərinə
toxunduğunu hiss etdim.
Boğulduğunu hiss etdim.
Yaxana başımı qoyub,
Yıxıldığımı hiss etdim.

Nə mən səndə qala bildim,
Nə sən məndə qalacaqsan…
Əlvida deməyə gəldim…
Şəkillərdə olacaqsan…

Venesiya…
Sənin başına dolandım…
Həm duruldum, həm bulandım.
Cır maskanı at üzündən,
Ağladığını görüm.
Məni gecə səhərədək
öz qoynunda bu səbəbə
saxladığını görüm…

Məni, bu faciənlə,
Öz halına bağladın.
Mən, gününə ağladım,
Sən, günümə ağladın.

İçinə şərab süzülən,

Bir badəyə bənzəyirsən,
Hər kəs səndən içib gedir…
Öz içində titrəyirsən,
Hamı sənin mənzərənə
baxa-baxa keçib gedir…

Venesiya…
Suyun içində şəhər…
Şəhərin içində su…
Müəmmalı bir yuxu…

29 avqust, 2013.

***

Təbimiz deyəsən zildə fırlanır,
Ürəyin sözüdü, dildə fırlanır,
Dostum, taleyimiz əldə fırlanır,
Hər ələ düşəni götürmək olmur.

Qazanc da pis deyil, fərasət də var,
Dolaşıq yollarda cəsarət də var,
Neyləyək, hərdənbir həqarət də var,
Heç nəyi sonadək yetirmək olmur.

Etibar qalmayıb, əldən salmışıq,
Fikirlər öndədi, geri qalmışıq,
O qədər arxadan zərbə almışıq,
Heç kimə arxanı çevirmək olmur.

29 avqust, 2013.

***

Yazılan yazıya nöqtəyik bəlkə,
Dünyada laxlayıb dura bilmirik.
Nehrənin içində çalxalanırıq,
Yağımızı üzə vura bilmirik.

Gələnlə, gedənlə əl tuta-tuta,
İlişib qalırıq görünməz qata.
Qəfil şəkil kimi düşüb həyata,
Zamanı geriyə bura bilmirik.

Yollardan yığılır hissin sözləri,
Torpağa qarışır adam izləri.
Çat verən üzlərdən baxan gözləri,
Sevgiyə kökləyib qura bilmirik.

Yanğından qoparaq dənizdə söndük,
Göylərdən atıldıq, qüruba endik.
Sudan quru çıxan balığa döndük,
Biz necə ilişdik tora, bilmirik.

Tale yazısında işarəyik biz,
Nöqtəni yerinə vura bilmirik.
Bu qədər hərflər arasındayıq,
Hara gəldi düşüb, dura bilmirik.

31 avqust, 2013.

***

Adam, Allahın əlindən
Düşəndə, gülmək istəmir.
O dünyada göz açaraq,
Buraya gəlmək istəmir.

Öz içindən keçə-keçə,
Qoşulub sahibsiz köçə,
Kədəri satıb sevincə,
Gözünü silmək istəmir.

Həyatını yaşa vurub,
Ömrünü yaddaşa vurub,
Öz şəklini daşa vurub,
Dünyanı bölmək istəmir.

Havadanmı asılacaq?
Buludamı qazılacaq?
Yazılacaq, pozulacaq?
Heç nəyi bilmək istəmir.

Dönə-dönə sıxılmaq var,
Yıxılmaq var, boğulmaq var.
Biləndə ki, doğulmaq var,
Adam heç ölmək istəmir…

2 sentyabr, 2013.

***

Ürəklə dil arasında,
Kiminsə adı qaçır.
Yıxılır göz qırpımına,
Həyatın dadı qaçır…

6 sentyabr, 2013.

***

Səsimizi atdıq göyə,
Elə bildik çatdıq göyə,
Bir nəfəs də qatdıq göyə,
Bizə yağışı göndərdi.
Hər tərəfi yudu getdi,
Torpağa uyudu getdi,
Havanın da odu getdi,
Günü yuxuya döndərdi.

10 sentyabr, 2013.

***

Adam darıxanda qəribə olur,
Geridönməzlərin oduna düşür.
Çevirib dünyanı astar üzünə,
Köçüb gedənlərin yadına düşür.
Bütün səhvlərinin, günahlarının,
Ən gözəl anını doğur yenidən.
Yaşamaq eşqinin həyəcanını,
Gözüylə içinə yığır yenidən.
Toxunur yaddaşın sonsuzluğuna,
Ötüb-keçənlərin filminə baxır.
Sonda, o həyatı yaşayıb gələn,
Darıxan adamın zülmünə baxır.

11 sentyabr, 2013.

***

Gəl sənə nağıl danışım,
Aldadım səni bir az da…
Məni də anam aldadıb,
Onu da öz anası.
Bu - nağılın qaydası…

İstəsən, qırmızıpapaq,
İstəsən, canavar kimi,
Nağılın qəhrəmanı ol.
İstəsən, cırtdanın özü,
İstəsən də divə dönüb,
Qorxunun həyəcanı ol.

Bir nağıl danışaram ki,
Sən də mənə inanarsan.
Nağıla inanan qızım,
Sən də mənə aldanarsan…

Biri vardı… Biri yoxdu…
Var ilə yox arasında,
Yoxdan var olanlar çoxdu…
Biri vardı, bir gecədə,
Dünyası tərsinə çöndü,
Yoxluqdan varlığa çöndü,
Yoxluqdan varlığa döndü…
Nağılın işığı söndü…

Göydən alma əvəzinə,
Nağıl danışanlar düşdü.
Yeni bir nağıl içində,
Yenə biriylə görüşdü.

Qaranlığın işığına,
Yenə də nağıl dedilər…
Dünyamızın adamları,
Nağıllarla böyüdülər…

Sən də böyü, gözəl qızım,
Bu nağıllara qarışma…
Mən sənə nağıl danışdım,
Sən öz balana danışma…

Biri vardı… Biri yoxdu…
Var ilə yox arasında,
Nağılın kəndiri qopdu…
Nağıl bizi yerə çırpdı…

16 sentyabr, 2013.

***

Yığıb bütün olanları,
Dənizə atmaq istədim.
Ya bu torpağın dibinə,
Ya göyə çatmaq istədim.

Sahilinə yetişdiyim,
Ömrün gəmisi gəlmədi.
Limanlarda gecələdim,
Tanrım yerimi bilmədi?

Yudum, qurutdum səsimi,
Asdım gecənin ipindən.
Dualarımı bağladım,
Göy üzünün kəndirindən.

Nə dənizdə yata bildim,
Nə də ki, göyün üzündə.
Qalmışam yer ilə göyün
Yırğalanan körpüsündə.

4 oktyabr, 2013.

***

Dünyanın başqa qatında,
Gözüm bir gözə toxundu.
Qorxum içimə sarıldı,
Qulağım səsə toxundu.

Qaranlığa köç eləyib,
İşığa pərdə çəkmişdi.
Ayağı üstə dayanıb,
Öz dəhşətinə çökmüşdü.

Görəsən həmin o adam,
O gözləri daşıyırmı?
Adamlıqdan çıxa bilib,
Adam kimi yaşayırmı?

4 oktyabr, 2013.

***

Dostları siyahıdan
silə-silə gedirik…
Sonunda tənhalıq var
bilə-bilə, gedirik…
Hər günü çiynimizə
ataraq daşıyırıq…
Ölümün ayağına
gülə-gülə gedirik…

5 oktyabr, 2013.

***

İlin on iki ayında,
Bu qədər hallanmaq olar?
Gündən həftəyə atılıb,
Aylara aldanmaq olar?

Öz içində bayquş olub,
Viranədən sərxoş olub,
Hər an köçəri quş olub,
Qürbətə yollanmaq olar?

Gecələr ayın altında,
Səssiz harayın altında,
Qəmli sarayın altında,
Bu qədər danlanmaq olar?

İçində matəm havası,
Dağılmış ömrün yuvası,
Ürəkdə itkin duası
Ölərək, canlanmaq olar?

22 oktyabr, 2013.

***

Özümü tapdayıb keçdim
ulaşmaya bürünən gecənin
gözü olan ayın qapısından…
…Cırdım kəfənin qarasını
ağına çatmaq üçün…
Hələ doğa bilməyən səhərimin
sökülmüş kandarında
ləngər vurdum,
Özümü özümsüzlüyə
satmaq üçün…

…Qulaqlarımda
Ölümün uğultusu batan karlıq,
Gözlərimdə
çarmıxa çəkilən,
Ruhundan asılan varlıq,
qəbrimi qazdım
gecənin ağuşunda,
Həyatımın çıxışında…

…Tapdalanmış özümü tapdım
cansızların sırasında,
Qəbirlərin arasında…
…Səhər süpürürdü küçələrdən izimi…
Gecə ulayıb qaçsa da,
Aparmışdı səsimi…

29 oktyabr, 2013.

***

Susuzluqdan yanıram,
Ovcunda su ver içim.
O suya bir az ürəyini qoy,
Bir az hərarətini çilə.
İçim, dirilim damla-damla,
Gilə-gilə…
Sönsün quraqlıq odum,
Qurtum-qurtum doğulum…
Oğlum…

2 noyabr, 2013.

***

Atdığım hər bir addım,
Yerə dəyir hələ ki.
Gözlərimə təpə yox,
Dərə dəyir hələ ki.

Yuxuları satıram,
Gedirəm, qayıdıram.
Qazanca əl atıram,
Tərə dəyir hələ ki.

Durmuşam köz içində,
Tanrımla öz içimdə.
Hisslərim, söz içində,
Şeirə dəyir hələ ki.

2 noyabr, 2013.

***

Surətpərəst olduğumdan,
Hər şeyin gözəli düşüb qismətimə…
Həm sevginin, həm nifrətin…
Həm vüsalın, həm həsrətin…
Həm sevincin, həm dəhşətin…
Həm ağrının, həm ayrılığın…
Gözəlləri seçib məni,
Gözəlinə aşiq olmuşam…
Gözəlliyə işıq olmuşam…

Surətpərəst olduğumdan,
Ölümün də çirkinini istəmirəm…
Mənə aşiq ola bilib,
Məni məndən almalıdı…
Ölümüm də çox gözəl olmalıdı…

24 noyabr, 2013.